# TÜRKÜN (ilk) RUHANİYYAT OCAĞI
# İNAM ATANIN (Asif Atanın)
# MÜTLƏQƏ İNAM OCAĞI



**MÜTLƏQƏ İNAM PEYĞƏMBƏRİ İNAM ATA**

**İNAM ATA**
**(Asif Ata)**

**ON KUTSAL BİTİQ**

**(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)**

# HÜQUQDAN HAQQA

**(Yeddinci Bitiq)**

Atakənd – 37
Qanun Nəşriyyatı – 2015

**Nəşrə hazırlayanlar:** **SAFRUH,**
*Mütləqə İnam Ocağının Ruhsal Başçısı*

**ULURUH ATALI,**
*Mütləqə İnam Ocağının Evladı*

**İNAM ATA (Asif Ata). ON KUTSAL BİTİQ**
(On Müqəddəs Kitab)**.** (Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)
***HÜQUQDAN HAQQA (Yeddinci Bitiq)*** (Atakənd. İnam Evi. 37-il).
Bakı, Qanun Nəşriyyatı, 2015, 112 səh. tiraj 500.

Yaradıcısının Adı ilə "İnam Ata Sivilizasiyası", mahiyyətinə görə "Mütləqə İnam Sivilizasiyası", ulus'al kimliyinə görə "Türk Sivilizasiyası" adı ilə yeni ümumbəşər sivilizasiyası yaranmasına səbəb olacağı düşünülən dünyabaxışın fəlsəfəsi və ruhaniyyatı təqdim olunur.

"Hüquqdan Haqqa" – İnamın altı Müqəddəs Kitabını özündə birləşdirir: "İqtisadiyyat İnsaniliyi – İqtisadiyyat İnsansızlığı", Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti", "Siyasətdən Üstün", "Haqq – Haqsızlıq" "Ölçü", "Haqq".

ISBN 978-9952-36-096-7

© SAFRUH (Əliyev Elman Ağa oğlu), 2015
© Qanun Nəşriyyatı, 2015

*Mütləqim, Müqəddəsim, Peyğəmbərim*
*İnam Ataya Ali Səcdəylə!*

# BUZQIRAN GƏMİ YOLÇULUĞU

Önsöz – haray

İstəyirik insanlar öz inamlarında, anlaqlarında, qanacaqlarında, qırımlarında ciddiləşsinlər. Bunlara münasibətlərində oyunçuluqdan, aldanışdan, zalımlıqdan, acgözlükdən çıxsınlar. Adlarını doğrultsunlar. Öz keçmişlərini gözdən salmasınlar. Gələcəkdən xoflanmasınlar. "İnsan düşünən varlıqdır" təyinini unutmasınlar. Öz ağıllarının həddini bilsinlər. Daha üstün ağıla – ağıllıya can atsınlar. Bəşərin, ilsıranın bu sahədəki əmək məhsullarının xiridarı olsunlar. "Yaranışın yaraşığı", "uca səslənən" insan – ruhani varlıq olmalıdır, bu ada yaraşmayan duyğudan-duyğusallıqdan çəkinsinlər, bu sahədə yaraşıqsıza "yaraşıqlı" deməsinlər...

Yer üzü – dünya çox genişdir, əhali çoxdur, sıxdır. Xəmir içində kündə (kündədən) seçilmir, özündən asılı olmur. Söz fərdə ("kündəyə") çatmır, sözü götürən olanda da kütlə onu vurub onun əlindən, ağlından salır. Güc ruhsal kimsəyə (fərdə, fərdiyyətə) düşür: ümumi kütlədən – xəmirdən ayrılmalı, kündələnməli, ruhsal cizgilənməli, şəkillənməli, insanlıq yükünü çəkməli...

Bu istəklərə yetmək – güc istəyir. Bunlara yetən güclüdür, yetməyən – gücsüz. Bunlara yetmişi görən – gözlüdür, görməyən – kordur...

Yeddinci Bitiqin ilk Əsəri "İqtisadiyyat insansızlığı – İqtisadiyyat insaniliyi" adlanır. Onun ilk nəfəsi ("İnsansızlıq yönü") **"İqtisadiyyat – İnsanı yeyib"** sözüylə bitir (s.17). Bu, o "insan"dır ki, yeyən (adam) onu görmür, mövcud saymır.

Yeyilən də (insan da) yemək istəyir. Yemək məsələsi qarşılıqlı olmağa keçir – bir-birini yeməyə (birbaşa olmasa da). Onda Dünyabaxış Yiyəsi yada düşür... O, irəli çıxır. Yeyənlərin dərəcələrini müəyyənləşdirir. Elə yalnız indi yeyəni **"məxluq"** adlandırır; bir az da (başından eləməkçün) başqasına verib, çoxunu özünə götürəni, götürdüyünün bir qısmini dar günə saxlayıb, qalanını keflərə ayıranı **"adam"** adlandırır; hamını düşünəni **"insan"** adlandırır. Bu adlandırma iş görür – məxluqu adama doğru, adamı insana doğru meyilləndirir...

Adam olmaq məxluqun xeyirinədir – olur. Yemək orada da var, bir az da məxluqunkundan çox. İnsan olmaq – adamın xeyirinə görünmür – yeməyi məhdudlaşdırır. İştaha (yemək istəyi) adamı yeyir. Adam iştahasını doydurmalıdır... Dünyabaxış Yiyəsinin irəli sürdüyü, yeməkdən başqa meyarlar burada keçilməz əngəllərə ilişir. "Ağ – qara", "yaxşı – yaman" təyinləri yarasalaşır (qulaq, quyruq göstərir), buqələmunlaşır (boyaq, biçim dəyişir). İlsıra boyu, bütün dünyada.

Dünyabaxış Yiyəsi bir də "insan – təbiət" münasibətlərində yada düşür, məxluqun və adamın da gözlə görə biləcəkləri qayğılara işarə eləyir: **"Antiinsani iqtisadiyyat – təbiəti yeyir: onun ahəngini pozur, havasını zəhərləyir, meşəsini qırır...";** sularını çirkləndirir (Bu nəşr, s.22-23).

Dünyabaxış Yiyəsi təsvirlə, iç aləmin qüsurlarını göstərməklə yetərlənə bilməz. O bunların aradan qaldırılması yollarını da göstərməlidir. Ata deyir: **"Ağalıqdan ayrılan cəmiyyət – insani iqtisadiyyat yaradacaq"** (Bu nəşr, s.27). **"İqtisadiyyatın insaniləşməsi üçün adamın insanlaşması gərək"** (s.28).

Ağalıq isə adamlıqla bağlıdır – güclu, dadlı, əlvan, dərin refleksiyalı yeməklərlə və başqa bənzər istəklərlə. Umumbəşər Bermudu ilə...

Və insani iqtisadiyyatın yaranması üçün onu yaradanların ruhsal refleksiyaları olmalıdır. Çünki yalnız ruhani olan insanidir. "Refleksiya" sözünü mən burada öz yiyəsini iqtisadiyyat yaratmağa (zəhmət çəkməyə) sövq edən doğal qıcıq, qüvvə anlamında işlədirəm.

Bitiqə daxil olan ikinci əsər "Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti" adını daşıyır. Bu – hüquqdan haqqa doğru yüksəliş yolu keçməli olan həmin

üçlüyün (məxluq, adam, insan) inanc məsələsidir. İnam Atanın Öyrətisində ontologiya anlamında yaradılma baxışı yoxdur, özündən yaranma baxışı var.

**“İnsanın özündən yaranması – onun Dünyadan, Təbiətdən yaranmasıdır əslində, çünki insanın, dünyanın, təbiətin mahiyyəti birdir”** (Bu nəşr s.31).

İnanc irəli sürülən dünyabaxışla (təlimlə, öyrəti ilə) bir axarda olmalıdır, yoxsa o, haqqa (həqiqətə) yolu düzgün göstərə bilməz. Ata insanı ruhsal varlıq sayır, insana materialist, bioloji baxışları rədd eləyir, dini ruhaniyyat saymır, onun idraka baxışını cəfəngiyyat adlandırır.

Mütləqçi həqiqətə həqiqət deməlidir, cəfəngiyyata – cəfəngiyyat. Mütləqə İnamda kabbala, okkultizm, hər cür falçılıq, rəqəm elmi (riyaziyyata pərəstiş), eləcə də dünyabaxış iddiasına düşən elmçilik (psixoanaliz, noosferaçılıq və s.), ekzistensializm, pozitivizm, ateizm və s. rədd edilir. İnamın “Təməl” Əsərində bunlar **“mənasızlıq fəlakəti”** yaradan baxışlar sayılır (IV Bitiq, s.8).

İnancdan danışırkən, önsözümün bu yerində Atanın bir mövqeyini yada salmalıyam. Ata ruhani idarəçiliklə, dünyəvi idarəçiliyin bir-birindən ayrılmasına olumlu baxmırdı. Özünün **“Olan və Olmayan”** adlandırdığı Altıncı Müqəddəs Kitabında ruhsal dövləti nəzərdə tutaraq yazmışdır: **“Dövlət səlahiyyətini ruhanilik səlahiyyətindən ayırmaq yanlış təmayüldür”.** (III Bitiq, s. 202). Çünki Özü ruhaniyyatçıydı və ruhaniyyatı hər nəsnədən uca tuturdu. Bununla yanaşı, O, “Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti” Əsərində yazır:

**“Xristianlar – dünyada Allah hakimiyyəti qurmaq istəyirdilər – əslində isə O, artıq kilsələrdə qurulmuşdu və zülm azalmadı, artdı.**

**İslamçılar – dünyada Allah hakimiyyəti qurdular və zülm ərşə qalxdı.**

**Cəfəngiyyat – zülmdür, zülmkardır, zülm artırandır”.** (Bu Bitiq, s. 34)

Burada mən özüm üçün və Mütləqə İnam Ocağı üçün bəzi sonuclar çıxarıram. Allah hakimiyyəti – “ən uca hakimiyyət” anlamındadır. Ata hakimiyyətin bu ucalıq səviyyəsini “İdeal Dövlət” adlandırır. Adı çəkilən dinlər onu qurdular, zülm isə aradan qalxmadı – halbuki məqsəd zülmü

yox etmək və ya, heç olmasa, ərşdən endirib, dözülən hala gətirmək idi. Mənim qəti (şəxsi) yəqinliyimə görə, Marksist – Leninçi dövlət də bu məqsədlə qurulmuşdu. Ancaq bu baş vermədi. Halbuki adı çəkilən dinlərin hər birinin, eləcə də kommunizmin çox zəngin gələnəkləri və demək olar tükənməz resursları vardı – həm əski Misir (qibti Misiri) mədəniyyəti şəxsində, həm bir-birinin şəxsində, həm də yəhudi peyğəmbərçiliyi, yunan fəlsəfəsi, Roma dövlətçiliyi və s. şəxsində.

Niyə belə oldu? Çünki, zənnimcə, bu qurmalar, el dili ilə desək, oğlan evindən xəbərsiz, qız evinin dappa-duppu mövqeyində qalmışdır. "Oğlan evinin xəbərdar edilməməsi", yalnız "qız evinin" qərarı ilə toy edilməsi – Mütləqə İnamın dili ilə bu anlama gəlir: Fəlsəfənə, ruhaniyyatına uyğun insan kütləsi, insanlıq halı yetirməyincə quruluş qurma.

Yəni yalnız hüquqdan haqqa gedən, gedilən yol, gedənlərin yetərli halı və sayı Ruhani Dövlətə doğru aparır.

Ata tələsmirdi. Mən tələsdim, sağa-sola öygülər yağdırdım, gümanlara düşdüm; başım daşdan-daşa dəydi, başıma daşlar yağdı, quyruğuma vedrələr bağlandı... Xoşam ki, sarsılmadım. İnsan coşqumdan, həqiqət eşqimdən və o Bircəmdən yapışıb Ata Yolunda yürüməkdə – yeriməkdəyəm.

İndi "Hüquqdan Haqqa" Kutsal Bitiqi ilə həmağuşam. Bu, ömürlə israr istəyir. Bəzən xeyirin daşıyıcısı yaşamaq istəmir, xeyiri daşımaq istəmir.

Hüquqa (qanuna) uymaq (könüllü əməl etmək) – **fərdi dünyəvi qırım (iradə)** əməlidir, hüquqdan haqqa keçid **– fərdi ruhsal qırım (iradə) əməlidir** – gizlisi, umacağı olmayan. Və demək olar heç bir bəşər evladının uymadığı.

Ona uyan yoxdursa, Dünyabaxış Yiyəsi onu nə üçün irəli sürür? Çünki Dünyabaxış Yiyəsi daimi zəhmətkeşdir – özbaşınalıqdan hüquqa, hüquqdan haqqa aparan Yolun Allah qədər səbirli zəhmətkeşi – başladığı xeyirin o Yol ilə irəliləməsini izləyəndir.

Fəlsəfə tarixində əxlaqı, inancı (dini), hüququ, siyasəti bir-birinə yaxın bəhslər kimi, "əməli, praktik fəlsəfə" deyə araşdırırlar. İqtisadiyyatdan, inancdan (o "cəfənfiyyat" səviyyəsindən) keçən yol eyni kələkötürlüklə siyasətə gəlib çıxır. Adamlığın ruhsallıq burulğanı, iştaha burulğanı (Bermudu) burada ölkələri, dövlətləri cənginə alır. Atanın "Siyasətdən Üstün"

Əsəri bu cəngəlliyin əyintilərini, sifətini araşdırmaya həsr olunub. İqtisadi həyatın ağa – nökər (fərdlər) strukturunu, siyasətdə mərkəz – ucqar, güclü – zəif, inkişaf etmiş – geridə qalmış (ölkələr) strukturu əvəz eləyir.

Hüquqdan haqqa gedən yolun başqa bir mərhələsi:

**“Siyasətdən çıxmaq üçün insanlaşmaq gərək.**

**Siyasi Dünya Ruhani Dünyayla əvəz olunmalıdır”** (Bu nəşr, s.56).

Bunun üçün sifətlərin, məziyyətlərin, dəyərlərin mütləq ölçüsü əsas alınmalıdır. Ata “Ölçü” Əsərində idraka daxili göz kimi baxır. İdrak xeyirin, ədalətin, həqiqətin gerçəklikdə ötəri, keçici, kəsintili (nisbi), dəyişkən olduğunu bilir, görür, nəzərə alır, ancaq onlarda qalmır, onları ötür, onların bütöv, əzəli, dayanıqlı, dəyişməz hallarına yetir. Deməli, ölçü – Mütləqilikdir.

İqtisadi, mənəvi, siyasi fəaliyyətləri bu ölçü ilə aparmalı...

“Haqq – Haqsızlıq” adlı kiçik həcmli (7 səh.) Əsərdə Ata qorxu ilə qorxusuzluq sifətlərini qarşılaşdırır: qorxusuzluğu “haqq”, qorxunu “haqsızlıq” adlandırır; diqqəti bunlarla bağlı olan bəzi başqa mətləblərə yönəldir: qorxusuzluq – saflıqdır, insanilik – haqdır, özümlük – haqdır, dövlət (toplumsal quruluş) – haqsızlıqdır... Haqqa “haqq”, haqsızlığa “haqsızlıq” demək (deyə bilmək) üçün buradakı qorxusuzluq “Olçü”dəki idrakla çulğaşmalıdır. Yoxsa gerçəklikdə o qədər qorxubilməz qansız və qanmaz var ki!

**“Haqq” – İnsaniliyi təsdiq edir. Hüquq Adamlığı qoruyur. İnsanilik – Mütləq Xeyir deməkdir; Mütləq Ədalət, Mütləq Həqiqət, Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə...”** (Bu nəşr, s.79). Bitiqə daxil edilmiş son Əsər – “Haqq” – bu boğuq harayla başlayır. Mən buradakı üç nöqtəni o boğulmuşluğun ifadəsi sayıram.

Gerçəkliyin ali təhsil məktəblərində Haqq fakültəsi olmur,

Hüquq fakültəsi olur. Ayağı yer tutan o fakültəyə qaçır ata-anasıyla; o fakültə ilə öyünüb Yerə-Göyə sığmırlar.

...Atanın Düşüncəsini mən atom buzqıran gəmisinə bənzədirəm. O Gəminin qırıb keçdiyi hövzələrdə buz – adamlıqdır, buzun altındakı sular – məxluqluqdur. Ata o Gəmidə Haqq fakültəsi açmışdı – öyrəncisi yox. Oraya doluşanlar Hüquq təsbehi çevirirdilər – dənələrinin birinin

adı “Mütləq”, birinin adı “İnam”, birininki “Ocaq”, birininki “İnsanlaşmaq”, “Adamlaşmamaq”, o birilərinki “İdrak”, “Mənəviyyat”, “İradə”, “Ömürləşmək”, “Özündənkeçmə”, “Türükləşmək”, “Bizdənolmaz”...

İndi hər yerdə təsbeh şaqqıltısı eşidilir, o Gəmi isə buzların cəngində sıxılıb qalıb.

Mən o Gəmidəki fakültəni İnam Evinə köçürmüşəm – öyrəncisi – bir əlin barmaq sayı. Və Atanın xristianlara yönəlik dediyi məzmunu mən İnam Evində qurmuşam – Mütləq hakimiyyətini, Haqqı.

Allah hakimiyyəti kilsələrdən çıxmamalıydı, “aşıbdaşmamalıydı”. Buzlaqlardan çıxan, aşıbdaşan sular özləri də məhv olur, aləmi də sellərdə boğur. (Bəlkə doğrudan da “günah öləndədir”?) Gərək onlar da öz Kilsələrindən, İnam Evlərindən – Buzlaqlardan çıxmayaydılar. (Eyni bənzətməni Odlaqlara yönəlik də demək olar.)

...“Hüquqdan Haqqa” – bəşər ilsırasının İnama qədərki sivilizasiyalı çağının xəyalı. Bu xəyalı gerçəkliyə gətirənlər gərək.

***

**Cızqı:** Bilən birisi yazmalıydı bu önsözü də...
O yazsaydı, oxuyaoxuya zövq alardım.
Yaza-yaza əzab çəkdim.
Atamız var olsun!

**Safruh**
*Mütləqə İnam Ocağının Ruhsal Başçısı*
*11 – 31 Söngü (VI ay) 37-il.*
*(Avqust 2015).*
*Atakənd. İnam Evi.*

## İNSANLAŞMAQ

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.

Təqiblərə yüksəldim. Ata çağırıldım.
Bəşərin nicatı – İnsanlaşmaqdadır.

İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

# İQTİSADİYYAT İNSANSIZLIĞI – İQTİSADİYYAT İNSANİLİYİ

**(30-cu Müqəddəs Kitab)**

## I. İNSANSIZLIQ YÖNÜ

Natural İqtisadiyyatdan fərqli olaraq Sivilizasiyalı İqtisadiyyat ***Qazanc Tələbindən*** yaranıb, Adam Smitin təbirincə desək, ***Xudbinlikdən*** yaranıb – ***Ağalıq Tələbindən*** yaranıb.

Onu hərəkətə gətirən, inkişaf etdirən – Rəqabət Duyğusu olub, – İnsana xidmət etməli olan İqtisadiyyat əslində İnsansızlığa xidmət eləyib.

***İnsan, İqtisadiyyatı yaradıb – İqtisadiyyat İnsanı əsarətə salıb, onun Vaxtına, Ömrünə, Həyatına ağır yük kimi düşüb.***

***İqtisadiyyat İnsana yox, İnsan İqtisadiyyata tabe olub əslində;*** İnsanın İqtisadiyyatdan əzablı Asılılığı yaranıb.

***İqtisadiyyat İnsanı arxasınca aparıb; İqtisadiyyat İnsanilәşməyib, İnsan İqtisadiləşib;*** İqtisadi Zülm – İctimai Zülmün əsaslarından biri olub; İctimai-İqtisadi Zülm bərqərar olub İnsan üzərində.

***İqtisadiyyat – İnsanı yeyib.***

## II. ANTİİNSANİ MÜLKİYYƏT

Mülkiyyət İnsanın ***maddi Tələblərini*** ödəmək üçün yaranmayıb – Ağalıq Tələblərini ödəmək üçün yaranıb.

Mülkiyyətə Ağalar sahib olub – Əməkçi sahib olmayıb.

Mülkiyyət vasitəsiylə Ağalar özgə əməyinə sahib olublar; özgə əməyi vasitəsiylə Qazanc əldə ediblər; Qazanc vasitəsiylə öz xudbin Ağalıq Tələblərini ödəyiblər.

İqtisadiyyatın üç əsasından biri olan ***Mülkiyyət*** (digərləri İstehsalat və Ticarətdir) – İnsaniliyi inkar edib, İnsansızlığı Təsdiq edib.

***Quldarlıqda*** Əməkçi özü də Mülkiyyətə daxil idi: həm İqtisadiyyat, həm də İqtisadiyyatı yaradan İnsan Ağaya mənsub idilər.

İqtisadiyyat, Ağalığı hərtərəfli təmin edirdi. İqtisadiyyat artdıqca, Ağalıq da, Köləlik də artırdı.

***İqtisadi İnkişaf, İnsansızlığı artırırdı.***

Maddi nemətlər artdıqca – ədalətsizlik də artırdı.

***Feodallar*** – Mülk Ağalarıydılar; Mülkə Ağalıq edirdilər; Ağalıqdan qazanc götürürdülər; Qazanc vasitəsiylə Ağalıqlarını artırırdılar; ***İqtisadiyyat Zülmə xidmət edirdi.***

***Zülmkar Mülkiyyət yaranırdı.***

***Kapitalizm*** – Varçılıq, Pulçuluq Mülkiyyəti yaratdı – Pulla yaranan və Pul yaradan; Pul Hakimiyyətini, Pulçu Hakimiyyətini Təsdiq edən, Vardan Zülm yaradan, İnsan əməyini satın alan Mülkiyyətçilik yaratdı.

***Sosializm*** – Dövlət Mülkiyyəti yaratdı; Mülkiyyət, Dövlətin Fərd üzərində Ağalığına, Dövlət Zülmünə xidmət etdi; İqtisadiyyat artdıqca Dövlətin İnsan üzərində Ağalığı artdı; Əməkçinin Dövlətdə itməsi İqtisadiyyatdan başladı; İqtisadiyyat – Dövləti yüksəltdi, İnsanı əksiltdi.

İnsanın yaratdığı – İnsanın başına bəla oldu.

***İnsanın yaratdığı – İnsansızlığa yaradı.***

## III. ANTİİNSANİ İSTEHSALAT

İstehsalat əslində ***maddi zənginlik*** məqsədi güdmür – gəlir zənginliyi məqsədi güdür; yəni gəlir zənginliyi dərəcəsində maddi zənginlik yaradır; ***əməkçini gəlir alətinə çevirir.***

***Gəlir*** – istehsalatı inkişaf elətdirir; onu hərəkətə gətirir, tərəqqiyə çatdırır.

Əməkçi – gəlir alətinə çevrilir. Sahibkar Var qazanır – Var vasitəsiylə Əməkçiyə sahib olur, – onu İstehsalat Ünsürünə çevirir. Əslində Sahibkar – Əməkçi – İstehsalat əlaqələri yox, Sahibkar – İstehsalat əlaqəsi yaranır, çünki Əməkçi istehsalata pərçimlənir, orada

itir; istehsalatdan fərqlənmir; onun İnsani Mahiyyəti görünmür, bilinmir – yalnız istehsal xassəsi, funksiyası bilinir, görünür.

Əmək mənasızlaşır, öz cəzbini itirir, əməkçi dolanmaq üçün işləyir; özgə üçün işləyir – əmək özgələşir, istehsalat artdıqca – Sahibkarın Əməkçi üzərində hakimiyyəti artır. Zəhmət məbləği artdıqca Sahibkar, Ağalığını azaltmır, artırır; Əməkçini istehsalata daha çox bağlayır, onun Alətləşməsini, Ünsürləşməsini, Gəlirçiliyini möhkəmlədir; Sahibkar Əməkçini daha möhkəm əlində saxlayır, ondan daha səmərəli istifadə edir – zəhmət məbləği artdıqca – Əməkçinin Sahibkardan Asılılığı artır.

***İstehsalat – gəlir mənbəyinə, Əməkçi – gəlir vasitəsinə çevrilir.***

Əməkçi – istehsalat yaradır, istehsalat vasitəsiylə Sahibkar varlanır; ***Sahibkar varlandıqca Əməkçi – İstehsallaşır.***

***İstehsalat İnsaniliyə qarşı çevrilir.***

Bu təməl halını süni surətdə – menecerlik vasitəsiylə – idarəçinin əməkçiylə insaflı rəftarı, davranışı, mərhəmliyi, “dostluğu”, qılığıyla – yumşaltmaq cəhdi – mahiyyəti dəyişmir, daha da qabardır, çünki məqsəd əməkçinin İstehsallığını azaltmaq yox, əksinə – artırmaqdır; yəni menecerin səyi əməkçinin İstehsal Alətliyini, Ünsürlüyünü aradan qaldırmaq yox, daha da möhkəmləndirməkdir.

İstehsalat dəyişir – təkmilləşir; ancaq istehsalat Antiinsaniliyi yox olmur; o da təkmilləşir.

***Quldarlıq istehsalatında*** Qul – insan sayılmırdı – açıq şəkildə istehsalatla bərabərləşirdi; onun Alətliyi, Ünsürlüyü bəyan edilirdi.

***Antiinsanilikdən ürkən, utanan Quldar yox idi.***

Feodallar Kəndlidə torpaq əkən, məhsul becərən Alət görürdülər; Kəndlinin taleyi bütünlüklə Feodaldan asılıydi; kəndli Feodal üçün yaşayırdı əslində – Feodal kəndliyə kəndli ömrünü pay verirdi – Kotançının Kotandan fərqi az idi – Feodalın gözündə.

***Kapitalizmdə*** Fəhlə – istehsalatın hissəsiydi, istehsal alətləri ilə bir alınıbsatılırdı; istehsal vasitələrindən biriydi.

***Sosializm*** sözdə, ayrı-ayrı hallarda, mükafatlarda, təltiflərdə əməkçini vəsf edirdi; ancaq İstehsalatın özündə sosializmin kapitalizmdən fərqi yox idi, Fəhlə burada da istehsalat Alətiydi, Ünsürüydü; fərq yalnız Sahibkardaydı: kapitalizm istehsalatı Şəxsi Sahibkarın əlindəydi, – sosialist istehsalatı – Dövlətin.

Hər ikisində İstehsalat Antiinsaniliyi hökm sürürdü.

İstehsalatda təkcə maddi nemətlər istehsal olunmur, həm də ***İnsansızlıq istehsal olunur.***

## IV. ANTİİNSANİ TİCARƏT

Ticarətin əsil məqsədi – maddiyyat bolluğu yaratmaq deyil, daha çox və daha baha qiymətə mal satmaq, ***daha çox Qazanc əldə etməkdir.***

Ticarətdə İnsani münasibətlər rədd edilir – ticarətçi üçün İnsan – yalnız Qazanc mənbəyidir. ***İnsanın dəyəri burada Alıcılıq, Satıcılıq qabiliyyətiylə ölçülür.***

Ticarətdə, Bazarçılıqda Qazanca hörmət İnsaniliyə hörməti rədd edir; İnsan İnsana yalnız bir keyfiyyətdə – Qazanc götürmək keyfiyyətində görünür, bilinir.

***Ticarət – Bazar – Qazanc meydanıdır; Bazarın Ağası – Puldur.***

Bazarda İnsana hörmət əvəzinə – Pula hörmət təsdiq olunur – Pul Qüdrəti, Pul Üstünlüyü, Pul Hökmü bilinir, görünür.

Bazar – Pula xidmət eləyir; Pulçuluğa xidmət eləyir, Pulçunu böyüdür, Pulçuluğu böyüdür; ***Ticarət artdıqca Pulçuluq artır.***

***Pulun qiyməti artdıqca – İnsanın qiyməti azalır.***

***Ticarət – Varın Varlıq üzərində Ağalığıdır.***

Burada İnsanilik qayğısına qalan, İnam qayğısına qalan, Ruh qayğısına qalan olmur.

***Ticarət – qəti Təmənnaçılıqdır.***

Burada İnsani münasibətlər Əmtəələşir, hörmət, izzət, duyğu, mərhəmət itir.

***Ticarət – yadlıq meydanıdır.***

Satıcı – Alıcı münasibətləri – yad münasibətlərdir.

Ticarətin inkişafı – Yadlığı artırır.

***Ticarət dəyişir, onun İnsansızlığı yox olmur – təkmilləşir.***

Quldarlıqda Qul satılırdı – Qul bazarları quldarlıqdan çox yaşadı.

Burada Ticarət İnsansızlığı bütün çılpaqlığıyla üzə çıxırdı.

İnsan pula satılırdı, Pul İnsandan Üstün olurdu.

***Feodalizm*** – Kəndlini Əmtəəyə çevirmişdi.

***Kapitalizm*** – Fəhləni satın alırdı.

***Sosializm*** – Xalqı Əmtəələşdirmişdi.

***Ticarətdə Varidatçılıqla İnsansızlıq qoşalaşır.***

***Ticarət – İnsanilik satıb – Varidat almaqdır.***

## V. ANTİİNSANİ İQTİSADİYYAT – CƏMİYYƏT

Antiinsani İqtisadiyyat – cəmiyyətdən yaranıb; – Cəmiyyətdə hökm sürən Ağalıq Antiinsaniliyindən, Təbəqəlik Antiinsaniliyindən, Özgəçilik Antiinsaniliyindən yaranıb.

Cəmiyyətdə hökm sürən Ağalıq – ***Mülkiyyət Ağalığını*** yaradıb, ***İstehsalat Gəlirçiliyini*** yaradıb, ***Ticarət qazanclığını*** yaradıb.

Cəmiyyət – Xudbinliyi yaşadıb; Xudbinlik – Antiinsani İqtisadiyyatı yaradıb.

***Cəmiyyət Antiinsaniliyi – İqtisadiyyat Antiinsaniliyini yaradıb.***

Cəmiyyətdə hökm sürən Antiinsani münasibətlər – Antiinsani Mülkiyyət, Antiinsani İstehsalat, Antiinsani Ticarət yaradıb.

Cəmiyyət – Adama xas olan Antiinsaniliyi yaşadıb – Ağalığı, Xudbinliyi, Rəqabətçiliyi, Qazanclığı; İqtisadiyyat – Cəmiyyət halına uyğun yaranıb.

Cəmiyyətə xas olan ***Təbəqəlik*** – Mülkiyyət Zəbtçiliyini, Qəsdçiliyini Yaradıb; İstehsalat Zəbtçiliyini, Qəsdçiliyini yaradıb; Ticarət Zəbtçiliyini, Qəsdçiliyini yaradıb.

İqtisadiyyat Cəmiyyətdən yaranıb, Cəmiyyəti Təmsil eləyib – Cəmiyyət İnsanın adamlıq səviyyəsindən yaranıb.

Cəmiyyətə xas olan ***Özgəçilik*** – İqtisadiyyat Özgəliyi – Mülkiyyət Özgəliyi, İstehsalat Özgəliyi, Ticarət Özgəliyi – Yadlığı yaradıb.

***İqtisadiyyat Cəmiyyətə yarayıb, Cəmiyyəti yaşadıb.***

Adam İnsan olmayıb, Ağalığı, Xudbinliyi, Rəqabətçiliyi, Qazanclığı yaşadıb.

İqtisadiyyat – cəmiyyətçilik əsasında – Ağalıq, Xudbinlik, Rəqabət, Qazanclıq əsasında inkişaf edib.

***İqtisadiyyat – cəmiyyəti əks etdirib.***

Cəmiyyət – səthi dəyişilib, mahiyyətcə dəyişməyib – ***cəmiyyət Antiinsaniliyi dəyişməyib.***

Bütün Quruluşlarda Ağalıq yaşayıb; – bütün İqtisadiyyatlarda Ağalıq yaşayıb.

Bütün Quruluşlarda Təbəqəlik yaşayıb; – bütün İqtisadiyyatlarda Təbəqəlik yaşayıb.

Bütün Quruluşlarda Özgəlik yaşayıb; – bütün İqtisadiyyatlarda Özgəlik yaşayıb.

Antiinsani İqtisadiyyatı – Antiinsani cəmiyyət yaradıb.

***Cəmiyyətin İqtisadiyyatdan yaranması fikri – uydurmadır.***

“Adam əvvəl yeyib, sonra cəmiyyət yaradıb” iddiası – yalançı sübutdur.

***Cəmiyyət yaranandan sonra – Adam, cəmiyyət istədiyi kimi yeyib.***

***İqtisadiyyat bütün çeşidlərdə cəmiyyətçidir – cəmiyyət ifadəçisidir.***

## VI. ANTİİNSANİ İQTİSADİYYAT – TƏBİƏT

***Antiinsani İqtisadiyyat – Təbiəti yeyir:*** – onun ahəngini pozur, havasını zəhərləyir, meşələrini qırır; dənizlərini, okeanlarını çirkaba

qərq edir; Təbiətə zülm eləyir; ***Burada Adam Təbiətlə Doğmalığını, Qohumluğunu, daxili Birliyini unudur.***

***İqtisadiyyat böyüdükcə, Təbiətin ölüm təhlükəsi də böyüyür.***

Antiinsani İqtisadiyyat, İnsanın Təbiətlə Ülvi Təmasına – Heyrətinə, Məhəbbətinə, Vəcdinə Yad olur.

***Antiinsani İqtisadiyyat – Adamı Təbiətsizləşdirir.***

Təbiət üzərində Ağalığın artması – son nəticədə İnsanın məğlubiyyətini hazırlayır.

Antiinsani İqtisadiyyat – Adamın Təbiətə xudbin münasibətini təsdiq edir.

***İqtisadiyyatda – Həyat mənbəyi olan Təbiət Qazanc mənbəyinə çevrilir; Adam Təbiətdən gəlir götürür – Təbiət əmtəələşir.***

***Şiddətli sənayeləşmə – şiddətli təbiətsizləşmə təhlükəsi yaradır.***

Təbiəti istehsalatdan qorumaq lazım olur.

Xudbinlik, Ağalıq, Qazanclıq, Rəqabət – Adamı Təbiətə qarşı qoyur: ***İnsanı yaşadan Təbiəti – Adam yaşamaqdan məhrum edir.***

İqtisadiyyat – Təbiətə yırtıcı münasibəti gücləndirir və özünün tənəzzülünü hazırlayır.

***Antiinsani İqtisadiyyat – Antitəbiətçilik yaradır – daim artan, güclənən, – fəlakətli təhlükəyə çevrilən.***

## VII. İNSANİLİK YÖNÜ

Adam ***Xudbinlikdən, Ağalıqdan, Rəqabətdən*** ayrılanda – İnsani iqtisadiyyat yaranacaq – İqtisadiyyat İnsaniliyə xidmət edəcək.

***İnama*** Yetən İnsan – Xudbinliyi rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İdraka*** Yetən İnsan – Xudbinliyi rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***Mənəviyyata*** Yetən İnsan – Xudbinliyi rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İradəyə*** Yetən İnsan – Xudbinliyi rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İnama*** Yetən İnsan – Ağalığı rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İdraka*** Yetən İnsan – Ağalığı rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***Mənəviyyata*** Yetən İnsan – Ağalığı rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İradəyə*** Yetən İnsan – Ağalığı rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat insaniləşəcək.

***İnama*** Yetən İnsan – Rəqabəti rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İdraka*** Yetən İnsan – Rəqabəti rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***Mənəviyyata*** Yetən İnsan – Rəqabəti rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***İradəyə*** Yetən İnsan – Rəqabəti rədd edəcək, İqtisadiyyatın Yönü dəyişiləcək, İqtisadiyyat İnsaniləşəcək.

***Adam İnsaniliyə Yetəcək və İnsani İqtisadiyyat Yaradacaq.***

***İnsani İqtisadiyyat İnsanlaşmadan başlayacaq.***

## VIII. İNSANİ MÜLKİYYƏT

Adam Ağalıqdan Ayrılanda – Əməkçinin Mülkiyyətdən Ayrılığı aradan qalxacaq – Əməkçi Mülkiyyəti yaranacaq.

Əməkçi üzərində Mülkiyyətçi Ağalığına son qoyulacaq – Əməkçilik – Mülkiyyətçilik Birliyi Təsdiq olunacaq – Mülkiyyətə Əməkçi sahib olacaq.

***İnama Yetən İnsan*** – Mülkiyyət Ağasını, Mülkiyyətçilik Ağalığını rədd edəcək; – Mülkiyyət Əməkçisini, Əməkçi Mülkiyyətini Təsdiq edəcək.

***İdraka Yetən İnsan*** – Mülkiyyət Ağasını, Mülkiyyətçilik Ağalığını rədd edəcək; – Mülkiyyət Əməkçisini, Əməkçi Mülkiyyətini Təsdiq edəcək.

***Mənəviyyata Yetən İnsan*** – Mülkiyyət Ağasını, Mülkiyyətçilik Ağalığını rədd edəcək; – Mülkiyyət Əməkçisini, Əməkçi Mülkiyyətini Təsdiq edəcək.

***İradəyə Yetən İnsan*** – Mülkiyyət Ağasını, Mülkiyyətçilik Ağalığını rədd edəcək; – Mülkiyyət Əməkçisini, Əməkçi Mülkiyyətini Təsdiq edəcək.

İnsani Mülkiyyət yaranacaq.

Ağa Mülkiyyəti, Mülkiyyət Ağalığı – ***İnamsızlığı*** –aradan qalxacaq.

Ağa Mülkiyyəti, Mülkiyyət Ağalığı – ***İdraksızlığı*** – aradan qalxacaq.

Ağa Mülkiyyəti, Mülkiyyət Ağalığı – ***Mənəviyyatsızlığı*** – aradan qalxacaq.

Ağa Mülkiyyəti, Mülkiyyət Ağalığı – ***İradəsizliyi*** – aradan qalxacaq.

***Ağalığı daxilində öldürən İnsan İnsani Mülkiyyət yaradacaq.***

## IX. İNSANİ İSTEHSALAT

İnsan Xudbinlikdən Ayrılanda, istehsalatın məqsədi – ***Gəlirçilik*** yox – ***Xeyirçilik*** olur; – ***İnsani İstehsalat*** yaranır.

İstehsalat İnsana yox, – İnsan istehsalata sahib olur; İnsan – İstehsalat Aləti yox – İstehsalat sahibi olur. İnsan – istehsallaşmır, İstehsalat – İnsanilәşir.

Əməkçi İstehsalata yox, – İstehsalat əməkçiyə tabe olur.

İnama Yetən İnsan – İstehsalatı ***Gəlirçilikdən*** xilas edir, ***Xeyirçiliyə*** yüksəldir.

İdraka Yetən İnsan – İstehsalatı ***Gəlirçilikdən*** xilas edir, ***Xeyirçiliyə*** yüksəldir.

Mənəviyyata Yetən İnsan – İstehsalatı ***Gəlirçilikdən*** xilas edir, ***Xeyirçiliyə*** yüksəldir.

İradəyə Yetən İnsan – İstehsalatı ***Gəlirçilikdən*** xilas edir, ***Xeyirçiliyə*** yüksəldir.

Gəlir İstehsalatı – İnamsızlığı aradan qalxır.

Gəlir İstehsalatı – İdraksızlığı aradan qalxır.

Gəlir İstehsalatı – Mənəviyyatsızlığı aradan qalxır.

Gəlir İstehsalatı – İradəsizliyi aradan qalxır.

Əməyin əmtəələşməsi aradan qalxır.

Əməkçinin əmtəələşməsi aradan qalxır.

***İnsanlaşma – İnsani İstehsalat yaradır.***

## X. İNSANİ MÜBADİLƏ

Xudbinlikdən, Ağalıqdan, Rəqabətdən Ayrılan İnsanda Mübadilənin Məqsədi Varidat yox – Rifah olacaq; Mübadilə – Adamları Özgələşdirməyəcək, Yadlaşdırmayacaq, bir-birinə Yaxınlaşdıracaq.

Mübadilə – Pul Ağalığı yaratmayacaq – Maddi nemət Zənginliyi yaradacaq.

***Mübadilə – Oyunçuluğunu itirəcək:*** Udan– Uduzan, Qazanan–İtirən Adamlar əvəzinə bir-birindən bəhrələnən İnsanlar münasibəti yaranacaq.

***Adamların bir-birinə Xeyir vermək niyyəti bir-birindən Qazanc götürmək cəhdini üstələyəcək.***

Ticarət əvəzinə İnsani Münasibətlərə xidmət eləyən ***zəruri Mübadilə*** yaranacaq.

***Həmin Mübadilənin ən böyük Qazancı – İnsani münasibətlər olacaq.***

İnsan Natural İqtisadiyyata qayıtmayacaq; ancaq Varidatçılıq Rifahçılıqla əvəz olunacaq.

***İnama*** Yetən İnsan – Varidatçılığı qəbul etməz, Varidatın İnsan üzərində Ağalığını qəbul etməz, Varidat Xudbinliyini, Rəqabətini, Yadlığını, Yağılığını qəbul etməz – Rifah Zənginliyini – maddi tələblərin tam ödənilməsini qəbul edər.

***İdraka*** Yetən İnsan – Varidatçılığı qəbul etməz, Varidatın İnsan üzərində Ağalığını qəbul etməz, Varidat Xudbinliyini, Rəqabətini, Yadlığını, Yağılığını qəbul etməz – Rifah Zənginliyini – maddi tələblərin tam ödənilməsini qəbul edər.

***Mənəviyyata*** Yetən İnsan – Varidatçılığı qəbul etməz, Varidatın İnsan üzərində Ağalığını qəbul etməz, Varidat Xudbinliyini, Rəqabətini, Yadlığını, Yağılığını qəbul etməz – Rifah Zənginliyini – maddi tələblərin tam ödənilməsini qəbul edər.

***İradəyə*** Yetən İnsan – Varidatçılığı qəbul etməz, Varidatın İnsan üzərində Ağalığını qəbul etməz, Varidat Xudbinliyini, Rəqabətini, Yadlığını, Yağılığını qəbul etməz – Rifah Zənginliyini – maddi tələblərin tam ödənilməsini qəbul edər.

Varidatçılığın yaratdığı Rifah – mahiyyətcə Rifahsızlıqdır – çünki İnsansızlıqdır.

***İnsaniliyi rədd edən Rifah – Zülmdür.***

İnsani Mübadilə Varidatçılıq İnsansızlığını rədd edir.

Varidatçılıq İnamsızlığını rədd edir.

Varidatçılıq Mənəviyyatsızlığını rədd edir.

Varidatçılıq İradəsizliyini rədd edir.

***İnsani İqtisadiyyat – Ticarət İnsansızlığını İnsani Mübadiləylə əvəz edir.***

## XI. İNSANİ İQTİSADİYYAT – CƏMİYYƏT

***Ağalıqdan*** Ayrılan cəmiyyət – İnsani İqtisadiyyat yaradacaq. İnsani İqtisadiyyat Ruhani Cəmiyyəti təmsil edəcək.

***Təbəqəlikdən*** Ayrılan Cəmiyyət – İnsani iqtisadiyyat yaradacaq. İnsani İqtisadiyyat Ruhani Cəmiyyəti təmsil edəcək.

***Özgəçilikdən*** Ayrılan Cəmiyyət – İnsani iqtisadiyyat yaradacaq. İnsani İqtisadiyyat Ruhani Cəmiyyəti təmsil edəcək.

***İnama*** Yetən Cəmiyyət – İnsani İqtisadiyyat yaradacaq.

***İnam*** – İqtisadiyyatı İnsanilaşdirəcək.

***İdraka*** Yetən Cəmiyyət – İnsani İqtisadiyyat yaradacaq.
***İdrak*** – İqtisadiyyatı İnsaniləşdirəcək.
***Mənəviyyata*** Yetən Cəmiyyət – İnsani İqtisadiyyat yaradacaq.
***Mənəviyyat*** – İqtisadiyyatı İnsaniləşdirəcək.
***İradəyə*** Yetən Cəmiyyət – İnsani İqtisadiyyat yaradacaq.
***İradə*** – İqtisadiyyatı İnsaniləşdirəcək.
***İnsaniləşən Cəmiyyət – İnsani İqtisadiyyat yaradacaq.***

## XII. İNSANİ İQTİSADİYYAT – TƏBİƏT

İnsani İqtisadiyyat, Təbiətlə Əzəli Ahəngini bərpa edəcək; Təbiətlə İqtisadiyyat arasında Yadlıq, Yağılıq aradan qalxacaq; İnsan, Təbiəti öldürməyəcək – Yaşadacaq; Təbiətsizləşmə Təhlükəsi yox olacaq; İqtisadiyyat, Təbiətin Qənimi yox – Davamı olacaq.

***İnama*** Yetən İnsan Təbiətlə Doğmalaşacaq.
İnam – Təbiətlə Doğmalıq yaradacaq.
***İdraka*** Yetən İnsan Təbiətlə Doğmalaşacaq.
İdrak – Təbiətlə Doğmalıq yaradacaq.
***Mənəviyyata*** Yetən İnsan Təbiətlə Doğmalaşacaq.
Mənəviyyat – Təbiətlə Doğmalıq yaradacaq.
***İradəyə*** Yetən İnsan Təbiətlə Doğmalaşacaq.
İradə – Təbiətlə Doğmalıq yaradacaq.
***İnsan – Təbiət Ayrılığına son qoyulacaq.***
***İnsan – Təbiət Birliyi Yaranacaq.***

## XIII. ZƏRURƏT

İqtisadiyyatın İnsaniləşməsi üçün – Adamın İnsanlaşması gərək.

*16. Ümid günü, Qar Ayı, 17-ci il.*
*Bakı. (Yanvar, 1996-cı il).*

# HƏQİQƏT AZADLIĞI – CƏFƏNGİYYAT ƏSARƏTİ

**(40-cı Müqəddəs Kitab)**

**1. ƏLAQƏ**

***Həqiqət – Azadlıqdır,***
***Cəfəngiyyat – Əsarət.***

Bəşər Həqiqət Azadlığına Yetməyib, çünki Cəfəngiyyat Əsarətindən çıxmayıb.

**2. ƏSARƏT – AZADLIQ**

***Xurafatda*** – İnsan Allahdan asılı olur,
Ulduzlardan asılı olur,
Saylardan asılı olur.
Günlərdən, Aylardan, İllərdən asılı olur.

***İnamda*** – İnsan İnsanilikdən asılı olur – İdrakdan, Mənəviyyatdan, İradədən.

***Xurafat*** – Cəfəngiyyatdır,
***İnam*** – Həqiqət.

***Cəfəngiyyat – Əsarətdir,***
***Həqiqət – Azadlıq.***

**3. BİRLİK**

İnsanın Özündən Yaranması – onun Dünyadan, Təbiətdən Yaranmasıdır əslində; çünki ***İnsanın, Dünyanın, Təbiətin Mahiyyəti Birdir.***

**4. ÖZÜNDƏN YARANMAQ**

***Dünyalıq*** – Yaranmaq, Yaşamaq, Yaşatmaq Tələbi, İmkanı, Qüdrətidir.

***Həyatlıq*** – Həyatın Yaranmaq, Yaşamaq, Yaşatmaq Tələbi, İmkanı, Qüdrətidir.

***İnsanilik*** – İnsanın Yaranmaq, Yaşamaq, Yaşatmaq Tələbi, İmkanı, Qüdrətidir.

**5. HƏQİQƏT – MÜQƏDDƏSLİK**

***Dünyanın*** Müqəddəsliyi – ***Dünyalıqdır.***

***Həyatın*** Müqəddəsliyi – ***Həyatlıqdır.***

***İnsanın*** Müqəddəsliyi – ***İnsanilikdir.***

***Həqiqət –*** Mahiyyəti ifadə edir.

***Bu səbəbdən də Həqiqət özü Müqəddəsdir.***

**6. HƏQİQƏT AQİBƏTİ**

***Dinin Həqiqəti – Cəfəngiyyatdır.***

Din – Həqiqəti cəfəngləşdirir.

***Elmin Həqiqəti – Gerçəklikdir***.

Elm – Həqiqəti gerçəkləşdirir.

***İnamın Həqiqəti – Mütləqilikdir.***

İnam – Həqiqəti Mütləqləşdirir.

**7. TƏSADÜFÇÜLÜK – ZƏRURİYYƏTÇİLİK**

***Xurafat*** – Təsadüfləri Zəruriyyətləşdirir – bu səbəbdən də o, Zərurət tanımır əslində.

***Din*** – Təsadüflər "Zərurətidir".

***Qismətçilik*** – Zəruriyyətsizlikdir əslində, burada heç nə İnsandan asılı deyil.

**8. ULDUZ AĞALIĞI**

Xurafatda Dünyaüstü Allahla yanaşı, İnsanlıqüstü Təbiət də yaşayır.

Ulduzların İnsan Aqibətini müəyyən etməsi iddiası (Astrologiya) İnsanı Əksildir və Ulduzları Böyütmür.

***İdarəçi Ulduzlar – Ağalaşırlar və İnsandan daha da uzaqlaşırlar.***

***Ağalıqda Böyüklük yoxdur, İnsana Yaxınlıq yoxdur.***

Astrologiyada İnsan üzərində Yer Ağalığına Göy Ağalığı əlavə olunur.

Yerdəki Cəmiyyətdən asılı olan İnsan – Göydəki Ulduzlardan asılı olur.

Astrologiyanı yaşadan Ümidsizlikdir.

Özünə Ümid eləməyən İnsan Ümidini Ulduzlara bağlayır.

Gözəl Ulduzlardan özünə Ağa düzəldir – Ulduzları eybəcərləşdirir.

**9. XURAFAT ASILILIĞI**

Xurafatda İnsan Özgəyə yaxınlaşdıqca Özündən Uzaq düşür.

Burada o, hətta Saydan asılı olur (Pifaqorçuluq), ancaq özündən asılı olmur.

**10. SAYLANMAQ – SAYILMAQ**

Hadisə – Saylananda – Sayılmır,
–Sayılanda – Saylanmır.

Say Hadisənin İnsani Cəhətini nəzərə almır, Riyaziyyat Dünyanı saylandırır, ***Məqsəd isə Dünyanı saymaqdır – sevməkdir.***

Dünya cismaniliyini Saymaqda Riyaziyyatın rolu misilsizdir. Ancaq Dünya – İnsan Birliyini saymaqda, Təsdiq etməkdə rolu Yox dərəcəsindədir.

***Saylanmaq – Sayılmaq deyil, Say – Mahiyyətə Yetmir.***

Say – Zəruridir, Faydalıdır, Gərəklidir, – ancaq Mahiyyətdən kənardadır.

Dünyanı saylamaq – Saya almaq – Dünyadakı İnsaniliyi – İnsandakı Dünyalığı saymaq deyil.

Dünya neçə əsrdir ki, Saylanır, saya alınır, ölçülür, biçilir, ancaq hələ də Sayılmır, Dəyərləndirilmir, çünki İnsan – Dünya Birliyi Bilinmir – Dünya İnsani, İnsan Dünyalı sayılmır.

**11. RİYAZİ XÜLYA**

Kəmiyyətin Keyfiyyətə keçməsi Qanunu – Fəlsəfi Həqiqət deyil – Riyazi Xülyadır.

Say – “Kəmiyyət artdıqca keyfiyyət də artır” – fikri Mahiyyətçi – Fəlsəfi fikir deyil, Təzahürçü – Riyazi fikirdir.

**12. CƏMİYYƏTLƏŞƏN AĞIL**

“Dünyanı Allah idarə edir” iddiası Ağıla sığır.

“Dünyanı Dünya özü idarə edir” Həqiqəti Ağıla sığmır.

Adamlar ***Allaha*** inanırlar, ancaq ***Dünyalığa*** inanmırlar, çünki Bəsit Ağıl – cəmiyyətləşmiş Ağıldır – cəmiyyəti ***Ağa*** idarə edir – deməli Dünyanı da ***Allah*** idarə edir; ***Ağasız*** cəmiyyət olmur – deməli ***Allahsız*** da Dünya olmaz.

**13. CƏFƏNGİYYAT ZÜLMÜ**

***Xristianlar*** – Dünyada Allah Hakimiyyəti istəyirdilər – əslində isə o, artıq kilsələrdə qurulmuşdu və Dünyada Zülm azalmadı, artdı.

***İslamçılar*** – Dünyada Allah Hakimiyyətini qurdular və Zülm ərşə qalxdı.

***Cəfəngiyyat – Zülmdür, Zülmkardır, Zülm artırandır.***

**14. ÖLÜMCÜL XİLAS**

Xristianlıq Dünyanın xilasını Dünyanın sona çatmasında (Esxatologiya) görür.

Dünya ölməlidir ki, təzələnsin – deyirlər.

Dünyanı xilas etmək üçün – ***onu öldürürlər.***

***Cəfəngiyyat Ölüm saçır.***

**15. İNSAN – MƏNA**

İnsanın Mənasına Yetməyən Adama İnsan Dar gəlir, –
o, özünə Allah axtarır.

İnsanın Mənasına Yetən İnsana İnsan Gen gəlir, –
o, İnsaniliyə Yüksəlir.

**16. DÜNYA – MƏNA**

Dünyanın Mənasına Yetməyən Adama Dünya Dar gəlir, – o, İkinci Dünya – o Dünya axtarır.

Dünyanın Mənasına Yetən İnsana Dünya Gen gəlir, – o, Dünyanı Mənasına Yetirir.

**17. XÜLYA FƏLAKƏTİ**

Dünyanın Mənası Dünyadan Üstündür, ancaq ***Dünyaüstü*** (Transendental) deyil.

Dünyaüstülüyə (Transendentala) İnam – Dünyaya İnamsızlıqdır əslində.

***Bu Fəlakətli Xülya Dünyanı İnsanın Gözündən salır və son nəticədə İnsanı öz gözündən salır.***

**18. AĞALIQ – ALLAHLIQ**

Dini Yaşadan – Ağalıqdır.

***Yerdə Ağa Yaşadıqca – Göydə Allah Yaşayacaq.***

**19. CƏMİYYƏTLƏŞƏN MİFOLOGİYA**

***Din*** – Cəmiyyətləşən Mifologiyadır, o, Ağalıq – Rəiyyətlik əsasında qurulur: ***Ağa – Allah, Rəiyyət – İnsan.***

**20. İNAM ƏMƏLİ**

Dünya ***Elmdə*** Dolğun və Düzgün təsvir olunur, amma Dünyanın ***Nədənliyi və Niyəliyi*** açılmır.

Çünki Din olub – İnam olmayıb, – Fəlsəfə də İnama Yüksəlməyib.

Mütləqçilikdə – Dünyanın ***Nədənliyi, Niyəliyi açılır,*** çünki İnam Yaranıb və Fəlsəfə İnama Yüksəlib.

**21. GERÇƏKLİK – ŞÜUR – ŞÜURSUZLUQ**

***Bəsit Şüur*** – Gerçəkliyə uyğunlaşan Şüurdur.

Bu baxımdan ***Siyasət*** Bəsit Şüura aiddir.

***Ali Şüur*** – Gerçəkliyi Ötən Şüurdur.

Bu baxımdan –

***Elm*** – Ali Şüurla Bəsit Şüur arasındadır;

***Fəlsəfə*** – Ali Şüura meyllidir;

***İnam*** – Ali Şüur əməlinin Təsdiqi, Ömürləşməsi, Aqibətləşməsi, Müqəddəsləşməsidir;

***Din*** – ardıcıl, aramsız Şüursuzluqdur – gerçəkliyi əksildən.

**22. SƏBƏB – NƏTİCƏ**

Adamlar Təməlsiz ictimai Həyat Qururlar, bu səbəbdən də Qurduqları başlarına uçur.

**23. TƏMƏLSİZLİK**

Cəmiyyətin Təməli – İnsanilik olmalıydı, ancaq İnsansızlıq oldu.

***Cəmiyyət əslində Təməlsizdir.***

Bu səbəbdən də o, daim dəyişir, ancaq ***təzələnmir.***

***Təzələnmək üçün Təməl gərək.***

**24. ŞÜUR – İNSANİLİK**

Cəmiyyət – Şüuru müəyyən eləmir – Şüursuzluğu müəyyən eləyir.

***Şüuru İnsanilik müəyyən eləyir.***

Adam İnsan olmur, bu səbəbdən də Şüursuzluq Şüuru üstələyir.

**25. ALLAHI YAŞATMAQ**

Ateizm – Allahı inkar edir və onun Atributlarını, Xassələrini cəmiyyətə şamil edir.

***Allah cəmiyyət biçimində Yaşayır.***

Ateizm Allahı inkar edir və onu ictimai biçimdə Yaşadır.

***Ateizmi Allah Yaşadan da adlandırmaq olar.***

## 26. FƏLSƏFİ AQİBƏT

***İdealizm Fəlsəfəsi*** – Göy mifologiyasına əsaslanır əslində. Burada Dünya Göydən Yaranır.

***İdeyalar Aləmi – Mahiyyətcə Göydür.***

***Materializm Fəlsəfəsi*** – Yer Mifologiyasına əsaslanır əslində. ***Burada Dünya Yerdəki cismanilikdən Yaranır.***

***Hər iki cərəyan – Mifoloji Təxəyyülün məhsuludur*** – Fəlsəfə Mifoloji Təxəyyül Dairəsindən indiyədək çıxa bilməyib, bu səbəbdən Həqiqətinə Əfsanə qarışıb, Həqiqətlə Əfsanə arasında qalıb.

***Pozitivistlər*** – çıxış yolunu Fəlsəfənin Elmləşməsində gördülər və Fəlsəfəni Özündən ayırdılar.

***Mütləqçilikdə*** – Fəlsəfə Mifologiyadan Ayrılır və Pozitivizmə enmir.

## 27. MƏRHƏLƏLƏR

1.***Təbiət*** uzun müddət Təxəyyüldə, Təfəkkürdə İnsaniləşib. Sonradan ***Elm*** onu Müstəqil Varlıq kimi dərk edib, İnsaniləşmədən Ayırıb.

Təbiətə İnsani Münasibət Yaranmalıdır – Bilinməlidir ki, ***Təbiət Dünyanın Təməlidir*** – Təbiət dağılsa – Dünya Dağılar, Təbiət İnsana yalnız Mənfəət gətirmir, həm də Səadət gətirir, Təbiətsiz İnsan bədbəxt olar.

Təbiətlə İnsan arasında Daxili Doğmalıq var – ***Təbiətsiz İnsan Yetim qalar.***

2. İnsan uzun müddət Cəmiyyətsiz Yaşayıb. Sonra o, İnsaniliyə yaramayan Cəmiyyətlərdə Yaşamağa başlayıb və Yaşayır.

***İnsani Cəmiyyət Yaranmalıdır: Ağasız, Nökərsiz, Təbəqəsiz, Yağılıqsız – yəni əslində Cəmiyyətçilik – Xalqçılıqla əvəz olunmalıdır.***

3. İnsanı Din – Bəndə sayıb, – Bədiiyyat – Təbiətin Əşrəfi.

***Əslində isə İnsan – Kamilləşməyə qadir olan Ruhani Varlıqdır.***

***Dünyada Kamil İnsan Yaranmalıdır,***
***İnsan öz Kamilliyini Yaratmalıdır.***

**28. FƏRQ**

Mifologiyanı Dinlə Eyniləşdirirlər.

***Əslində Din – Mifologiyanın Tam, Qəti, Bütöv cəfəngləşməsidir.***

Mifologiyada Həqiqət də var, Əfsanə də.

Dində Yalnız Əfsanə var.

**29. TƏXƏYYÜL – İDRAK**

***Təxəyyül – həm Həqiqətə Yarayır, həm də Cəfəngiyyat Yaradır.***

İdrakla Qoşalaşanda Həqiqətə Yarayır, – İdrakdan Ayrılanda – Cəfəngiyyat Yaradır.

***İdraksız Təxəyyüldən Azad olmaq gərək –İdraklı Təxəyyülü Yaşatmaq gərək.***

**30. XURAFATIN MAHİYYƏTİ**

Ekzistensialistlər Cəfəngiyyatı Dünyanın Mahiyyətində görürlər. Əslində onu Xurafatın Mahiyyətində görmək gərək.

**31. RUHANİ TƏLƏB**

***Din*** – Cəfəngiyyatçılıqdır.
***Elm*** – Gerçəkçilikdir.
***İnam*** – Həqiqətçilikdir.

Cəfəngiyyatçılıq – Əsarətdir.
Gerçəkçilik – Zərurətdir.
Həqiqətçilik – Azadlıqdır.

Cəfəngiyyatdan çıxmaq gərək,
Gerçəkliyi ötmək gərək,
Həqiqətə çatmaq gərək.

*Günəş Ayı, 19-cu il. Bakı.*
*(Mart, 1997-ci il).*

# SİYASƏTDƏN ÜSTÜN

**(37-ci Müqəddəs kitab)**

## 1. CƏMİYYƏT – SİYASİ DÜNYA

***Siyasi Dünya– Cəmiyyətin Davamıdır.***
***Cəmiyyətdə Ağalıq hökm sürür.***
***Ölkələr arasında münasibətdə Ağalıq hökm sürür.***

Böyük ölkələr kiçik ölkələr üzərində Ağalıq eləyir. Ağalıq üsulu dəyişilir, Ağalıq dəyişmir; Ağalıqdan məhrum olan ölkə – Böyük ölkə sayılmır; ölkələrə təsir etməyən, ölkələri özündən asılı etməyən ölkə Böyüklüyünü itirir.

Kiçik ölkələri dirçəldən ölkələr əslində özlərini zənginləşdirirlər; mahiyyətcə Böyük ölkələr Kiçik ölkələrin kiçikliyini qoruyurlar.

Fövqəlölkələr varsa – ölkələr kiçikliyi də var, ölkələr kiçikliyi ölkələrin Böyüklüyünü qoruyurlar.

Dünya Böyüklərə və Kiçiklərə bölünürsə – kiçiklərin kiçikliyi daim yaşayacaq, kiçik ölkələr nə qədər inkişaf etsələr də, Böyük ölkələrə çatmazlar; Böyük ölkələr kiçik ölkələri nə qədər inkişaf etdirsələr də özlərinə çatdırmazlar, onlardan üstünlüklərini əksiltməzlər, əslində artırarlar.

***Fövqəlölkə elə bu deməkdir əslində.***

Cəmiyyətdə Rəiyyətlik hökm sürür, – Böyük ölkələrə Kiçik ölkələrin rəiyyətliyi gərəkdir.

***Rəiyyəti olmayan Ağa Ağa olmur.***

Rəiyyətlərini itirən Ağalığını itirir.

Bu səbəbdən də Böyük ölkələr Kiçik ölkələrin rəiyyətliyini qoruyur, onları rəiyyətlikdən çıxmağa qoymur, onlara elə səxavət göstərirlər ki, rəiyyətliyə xələl gəlməsin, – rəiyyətlik möhkəmlənsin, zəifləməsin, – Rəiyyətlik yaşadığı dərəcədə – Ağalıq da yaşayır, – Ağalıq rəiyyətlik üstə yaşayır. Bu səbəbdən də Ağalıq rəiyyətliyi bəsləyir, böyüdür, qoruyur.

***Cəmiyyətdə Təbəqəlik hökm sürür.***

Böyük ölkələr Dünyanın Yüksək Təbəqəsi sayılır. Onlar Yüksək Təbəqəliklərini İnadla, ardıcıl şəkildə, müxtəlif üsullarla, gedişlərlə qoruyurlar.

Əgər Dünyada Yüksək Təbəqə varsa, deməli Aşağı Təbəqə də var; Aşağı Təbəqəyə mənsub olan ölkələr olmasa, Yuxarı Təbəqəyə mənsub olan ölkələr də olmaz, bu səbəbdən də Təbəqə Yuxarılığı Təbəqə Aşağılığını qoruyur, bəsləyir, böyüdür.

***Cəmiyyətdə Yadlıq hökm sürür.***

Ölkələr arasında münasibətlərdə müxtəlif çeşiddə, aşkar, ya gizli Yadlıq hökm sürür.

Ən sıx siyasi yaxınlıqda belə, uzaqlıq yaşayır, ən sıx siyasi dostluqda belə, düşmənlik yaşayır. Siyasi münasibətlər Yaxınlıq–Uzaqlıq, Dostluq – Düşmənçilik cəmidir əslində.

***Siyasi Dünya – cəmiyyətin davamıdır, bu səbəbdən də İnsanilikdən Uzaqdır.***

## 2. BÖYÜK ÖLKƏLƏR – KİÇİK ÖLKƏLƏR

***Böyük ölkələr – Ağalıq eləmək üçün Böyük olurlar***.

Böyük ölkələrin Böyüklüyünü Ağalıq müəyyən edir.

***Siyasi Dünyada Böyüklük məntiqi Ağalıq məntiqidir***.

Kiçik ölkələr Böyüklərin Rəiyyəti olduqları üçün kiçik sayılırlar.

Kiçik ölkələrin kiçikliyini Rəiyyətlik müəyyən edir.

***Siyasi Dünyada Kiçiklik məntiqi – Rəiyyətlik məntiqidir.***

Böyük ölkələr Yüksək Təbəqəyə çevrilmək üçün Böyük olurlar. Böyük ölkələrin Böyüklüyünü Yüksək Təbəqəlik müəyyən edir.

***Siyasi Dünyada Böyüklük məntiqi – Yüksək Təbəqə məntiqidir.***

Kiçik ölkələr Aşağı Təbəqəyə çevrildikləri üçün kiçik ölkə sayılır.

Kiçik ölkələrin Kiçikliyini Aşağı Təbəqəlik müəyyən edir.

***Siyasi Dünyada Kiçiklik məntiqi – Aşağı Təbəqə məntiqidir***.

Böyük ölkələr Böyük olmaq üçün Dünya ölkələri arasında Yadlıq törətməlidir. Yadlıq törətməmək onların “Böyüklüy”ünə xələl

gətirər. "Böyüklük" Yadlıqsız ötüşmür, Doğma Siyasi "Böyüklük" olmur, siyasi "Böyüklük" özündə Yadlıq gəzdirir, Yamanlıq gəzdirir.

Kiçik ölkələr Böyük ölkələr tərəfindən yadlığa məruz qalırlar, məruz qalmaya bilmirlər.

Siyasi Dünyada Böyüklüyün Məntiqi Yadlıq Məntiqidir.

***Siyasi Dünyada Kiçikliyin Məntiqi Yadlığa məruz qalmaq məntiqidir.***

Böyük ölkə – Ağalığını gizlədə bilər, Böyüklüyünü Ağalığından süni surətdə ayıra bilər, ancaq Ağalıqsız yaşaya bilməz, Böyük qala bilməz.

Kiçik ölkə Rəiyyətliyini gizlədə bilər, ancaq onsuz Böyüklərə gərək ola bilməz, "kiçikliy"ini qoruya bilməz.

Böyük ölkə Yüksək Təbəqəliyini gizlədə bilər, ancaq ondan əl çəkməz, çünki onsuz "böyüklüy"ünü itirər.

Kiçik ölkə Aşağı Təbəqəliyini gizlədə bilər, ancaq onsuz Böyük ölkəyə gərək olmaz, öz "kiçikliy"ini qoruya bilməz.

Böyük ölkə Yadlığını gizlədə bilər, – ancaq Yadlığından əl çəkməz, Yadlıq onun ölkələrə təsir biçimidir – müxtəlif adda, müxtəlif üsulda. Onsuz o, keçinə bilməz.

Kiçik ölkə Yadlığa məruz qaldığını gizlədə bilər, ancaq onsuz o, Böyük ölkəyə gərək olmaz. Yadlığa məruz qalmaq onun "kiçikliy"ini qoruyur.

"Böyük ölkələr" kiçik ölkələrin "kiçikliy"ini qoruyurlar, Kiçik ölkələr Böyüklərin "böyüklüy"ünü.

## 3. MƏRKƏZLƏR – ƏYALƏTLƏR

Böyük ölkələr Birləşib Böyüklər Mərkəzi yaradırlar.

***Böyüklər Mərkəzi Əyalət ölkələrinə Ağalıq edir.***

Mərkəzin özünün də Ağası olur.

***Həmin Ağa Mərkəz Ağalığını idarə edir.***

Ağalar Mərkəz Ağasına tabe olurlar ki, əyalət ölkələrinin tabeliyinə nail olsunlar.

***Əyalət ölkələr Mərkəz ölkələrin rəiyyətləridir.***

Siyasi Dünya Mərkəzlərə və Əyalətlərə bölünür.

Mərkəzlər Əyalətliyi yaşadır, Əyalətlər Mərkəzləri bəsləyir, yəni əslində Əyalətliyini bəsləyir.

Mərkəzlər Əyalətliyi aradan qaldıran görünür, əslində isə o, Əyalətliyi gücləndirir, möhkəmləndirir.

Mərkəzlər İnkişaf, Tərəqqi Rəmzi sayılır, – Həmin İnkişaf, Tərəqqi ölkələri Əyalətlikdən qurtarmır – Əyalətliyin Biçimini dəyişir: onu müasirləşdirir.

Müasir Siyasi Dünya – müasir Mərkəzlər və müasirləşmiş Əyalətlər Dünyasıdır.

Böyüklər Mərkəzi Yüksək Təbəqəyə çevrilir, Əyalət ölkələri Aşağı Təbəqəyə.

Mərkəz Aşağıdakıları Yuxarıya qaldırmaq adı altında onların Aşağılığını təkmilləşdirir, Aşağıdakını müəyyən sədd, hədd daxilində, səviyyəsində inkişaf etdirir, tərəqqiyə çatdırır.

Mərkəz Əyalətləri Mərkəzin Yuxarılığına xələl gətirmədiyi dərəcədə inkişaf elətdirir, elə inkişaf elətdirir ki, Mərkəz Mərkəzliyində, Əyalət Əyalətliyində qalsın – Təbəqəlik qaydası pozulmasın. Dünya nə qədər dəyişirsə-dəyişsin, – Mərkəz öz Yuxarılığını göz bəbəyi kimi qorumalıdır. Mərkəz başqa dünya tanımır, tanımaq istəmir.

Bu baxımdan Mərkəzçilik nə qədər Radikal – Dəyişiklikçi görünsə də, – o, mahiyyətcə – konservatordur,– muhafizəçidir, – Dünya köhnəliyini saxlayandır; onun Təzələnməsini istəməyəndir, yeniliyin qabağını yeni-yeni üsullarla kəsəndir.

Bu məntiqə əsasən Aşağı Təbəqəyə Tərəqqidən, İnkişafdan pay düşə bilər, ancaq onun Yuxarı Təbəqəyə çevrilməsinə yol vermək olmaz, onda Dünya pozular – Yuxarı Təbəqə Yuxarılığını itirər; Yuxarı Təbəqəyə xidmət eləyən Aşağı Təbəqə qalmaz.

Mərkəz Düşüncəsi Dünyadakılar Fərqindən, hətta onlar arasındakı Təzaddan danışmağı sevir: – həmin Fərq, Təzad həmin Düşüncədə

ölkələrdən keçir; Böyük ölkələrin Yuxarılığı, Kiçik ölkələrin Aşağılığı labüddür, toxunulmazdır.

Mərkəz Əyalət ölkələrə Yadlıq gətirir, gətirməlidir.

Əyalət Əyalətliyində qalmalıdır: – bu, Yadlıq Tələb edir; Mərkəz Yadlıq Tələbatı yaradır.

Doğma Əyalət olmur.

***Əyalətlikdə Yadlıq yaşayır***.

Mərkəzə və Əyalətlərə bölünən Dünya əyriliyində qalır, – düzəlmir; Mərkəz əyriliyə yiyə durur.

## 4. İNKİŞAF ETMİŞLƏR – İNKİŞAFDAN QALMIŞLAR

***İnkişaf etmiş ölkələr*** – Ağa olurlar, Ağa olmaq üçün inkişaf edirlər, Ağa olmaq üçün imkan tapırlar; inkişaf etdikcə Ağalıqlarını artırırlar.

***İnkişafdan qalmışlar*** – Rəiyyət olurlar – inkişafdan qalma onları rəiyyətləşdirir; inkişafdan qaldıqca onlar Ağalara gərək olurlar. Bu səbəbdən də İnkişaf etmişlər onları elə inkişaf elətdirirlər ki, inkişafdan qalmaları tam aradan qalxmasın: onların inkişaf etmişlərdən fərqləri qalsın, yoxsa Ağalara Rəiyyətlik eləməzlər.

***Güclü ölkələr üçün İnkişaf Ağalıq Yoludur; Zəif ölkələr üçün Rəiyyət yolu.***

***Güclü ölkələr inkişaf elədikcə Ağalaşırlar. Zəif ölkələri elə inkişaf elətdirirlər ki, rəiyyətlikdən çıxmasınlar.***

Dünyəvi inkişafdan danışırlar, ancaq əslində Dünya deyəndə – əsil Dünya deyəndə – inkişaf etmiş ölkələr nəzərdə tutulur; inkişafdan qalmış ölkələr isə Dünyanın kölgəsində bilinir və bu vəziyyət qorunur, möhkəmlənir. Ağalıq İnkişaf edir əslində, Rəiyyətlik inkişaf edir; inkişaf etmişlər inkişaf edir, inkışafdan qalanlar inkişafdan qalır.

İnkişaf etmiş Ağalara ***müəyyən həddə*** inkişaf etmiş Rəiyyət gərəkdir.

***İnkişaf etmiş ölkələr Yuxarı Təbəqə olur, inkişafdan qalmış ölkələr – Aşağı Təbəqə.***

Yuxarı Təbəqə Aşağı Təbəqəni inkişaf elətdirir, ona müasir don geyindirir. İnkişafdan qalanlar – inkişafa qatılırlar ki, inkişaf etmişlərə yarasınlar.

***Aşağı Təbəqəni Yeniləşdirirlər ki, həmişələndirsinlər.***

***Nə qədər Aşağı Təbəqə varsa, bir o qədər Yuxarı Təbəqə var.***

Aşağı Təbəqə olmasa, Yuxarı Təbəqə olmaz.

***Müasir İnkişaf Təbəqəliyi azaltmır, artırır.***

***Yuxarı Təbəqə Aşağı Təbəqənin əlindən tutur ki, onu əlində saxlasın.***

Aşağı Təbəqə inkişaf edib Yuxarı Təbəqəyə çevrilmir, Aşağıda qalır.

İnkişaf Aşağı Təbəqənin Aşağılığını saxlayır. İnkişaf etmiş ölkələr inkişafdan qalmış ölkələrə Yadlıq gətirirlər.

***İnkişafdan qalma – Yadlıqdır əslində. İnkişafla Gerilik arasında Yadlıq.***

Bu Yadlığın aradan qalxması üçün İnkişafdan qalan ölkələr İnkişaf etmiş ölkələrə çevrilməlidirlər.

Bu, Siyasi Qaydanın Ahəngini pozur.

Siyasət belə Dünya yaratmır.

Siyasətin özü haradasa Yadlıqdır.

***Siyasət – Doğmalaşsa – Ölər.***

Siyasət səviyyəsində İnkişaf – ölkələri bir-birinə yaxınlaşdıran görünür, əslində isə o, onları bir-birindən uzaqlaşdırır.

Siyasət Yaxınlığı – Zahiri Yaxınlıqdır, Daxili Uzaqlıqdır; Uzaqlığı Yaşadan Yaxınlıqdır; Uzaq Yaxınlıqdır – İnkişaf etmiş Uzaqlıqdır.

## 5. ƏMƏKDAŞLIQ – ASILILIQ

Siyasi Əməkdaşlıq – Asılılıq yaradır – Asılılıq üçün yaranıb əslində – Böyüklər Kiçiklərlə əməkdaşlıq edirlər ki, onları özlərindən asılı etsinlər, – Əməkdaşlıq vasitədir. Məqsəd –Asılılıqdır.

***Siyasətləşmiş Dünyada Böyüklər Kiçikləri özlərindən asılı etmədən yaşaya bilmirlər.***

***Asılılıq – Siyasi həyat üsuludur əslində.***

Başqasını özündən asılı eləyən ölkə – Böyük sayılır; Başqasından asılı olan ölkə kiçik sayılır.

***Əməkdaşlıq Asılılıq yaradır, Asılılığa yarayır.***

Siyasi münasibətlər Əməkdaşlıq Ağalığı yaradır; Əməkdaşlıq vasitəsiylə Ağa ölkələr yaranır, – Asılılıq Yaradan.

Əməkdaşlıq vasitəsiylə Rəiyyət ölkələr yaranır – Asılılığa məruz qalan.

***Əməkdaşlıq artdıqca Ağalıq artır, – Rəiyyətlik artır.***

Siyasi münasibətlər – Əməkdaşlıq Təbəqəliyi yaradır.

Asılılıq Yaradan ölkələr Yüksək Təbəqə sayılır; Asılılığa məruz qalan ölkələr Aşağı Təbəqə sayılır.

***Əməkdaşlıq artdıqca – Təbəqəlik artır.***

***Siyasi münasibətlər Əməkdaşlıq Yadlığı yaradır.***

Əməkdaşlıq Yadlığı aradan qaldırmayıb – onun üsullarını təzələyib, Yad əməkdaşlıq yaranıb.

Doğma Asılılıq olmur; Əməkdaşlıq artdıqca – Yadlıq Donunu dəyişir – mahiyyətini möhkəmləndirir.

Siyasət ölkələri bir-birinə bağlamır, bir-birinə qarşı qoyur.

Siyasi Əməkdaşlıq Asılılıq yaradır – Asılılıq ölkələri qarşı-qarşıya qoyur.

Ölkələr arasında əməkdaşlıq artır, – Yadlıq azalmır, –Asılılıq Yadlığı Yaşadır.

## 6. BİRLİKLƏR – HAKİMLİKLƏR

Dünya (yaxud Kontinent) Birliyini Təmsil eləyən Təşkilatlar (BMT, Avropa Birliyi və s.) əslində Dünya Birliksizliyini Təmsil eləyir.

***Çünki Dünya Birliyi yoxdur, hələ yaranmalıdır***.

Dünya Birliyi yaranmadan Dünya Birliyi Təşkilatları yaranıb – əslində isə Dünya Təşkilatları Dünya üzərində hakimliklərdir, – ***Dünya Ağalıqlarıdır. Dünyanın Ağalıq altda nizamlanmasıdır –***

***Dünyaüstü Ağalıqdır – Dünyaüstü Təbəqəlikdir, Dünyaüstü Yadlıqdır.***

Birliklərdə ölkələr Ağalıq ətrafında Birləşirlər, Rəiyyətlik ətrafında Birləşirlər, Yadlıq ətrafında Birləşirlər; Siyasət Dünyanı idarə etməyin Ağalıqdan başqa Yolunu bilmir, Rəiyyətlikdən başqa Yolunu bilmir, Təbəqəlikdən başqa Yolunu bilmir, Yadlıqdan başqa Yolunu bilmir.

Dünya birliklərində bütün ölkələr bərabər elan edilir; əslində isə Ağa Ağalığından, Rəiyyət Rəiyyətliyindən ayrılmır; Yuxarı Yuxarılığından, Aşağı Aşağılığından ayrılmır; Yağı Yağılığından ayrılmır.

Burada həm də Təşkilat Ağalığı Yönü yaranır.
Təşkilat Təbəqəliyi Yönü yaranır.
Təşkilat Yadlığı Yönü yaranır.
Təşkilat Rəiyyətliyi Yönü yaranır.

Dünya Birlikləri Dünyanın Siyasi Ahəngini qoruyur – bu Ahəngdə isə Birlik yoxdur.

Birliklərin elan etdikləri Ümumbəşəri dəyərlər Ağalıqdan yan keçmir, Rəiyyətlikdən yan keçmir, Təbəqəlikdən yan keçmir, Yadlıqdan yan keçmir. Onlar əslində siyasi dəyərlərdir.

Dünya Birlikləri Bəşər Birlikləri Yaratmırlar – Bəşər Birliksizliyini qoruyurlar – Ağalığı, Rəiyyətliyi, Təbəqəliyi, Yadlığı.

## 7. TƏSİR DAİRƏLƏRİ – SİYASİ BUXOVLUQ

Siyasət Dünyanı Təsir Dairələrinə bölür – ölkələri Buxovlayır.

***Təsir Ağalığı yaranır.***

Böyük ölkələr kiçik ölkələri öz təsirlərinə salmaq uğrunda Rəqabət aparırlar; Təsir Ağalığı uğrunda siyasi döyüş gedir; Bir ölkəni təsirə salmaq üçün bir neçə ölkə vuruşur; Rəiyyət ölkə Ağa ölkələrin təsiri altında parçalanır – Təsir Dairəsi Buxov Dairəsi olur əslində.

***Yüksək Təbəqə Aşağı Təbəqəni Buxovlayır.***

***Təsir Yadlığı Yaranır.***

Ölkələrin Varlığı tapdalanır, bunu siyasi fəallıq adlandırırlar; xudbinlik qüdrət sayılır; Təsir Dairəsindən məhrum olmaq – Böyüklükdən məhrum olmaq bilinir; Təsirə məruz qalmaq adi hal sayılır; siyasi ləyaqət onu qəbul eləyir. Təsir Dairəsi Böyüklük yaradır. Kiçikliyə Təsir etmək yoluyla Böyüklük yaranır; Siyasət Birinin kiçilməsi sayəsində digərinin Böyüməsini mənfi hal saymır, çünki siyasət Böyüklüyün tərəfindədir, kiçikləri təsirdə saxlamaq siyasətdə məqbuldur.

***Siyasətdə Dünyanı Nizamlamaq onu Buxovlamaq deməkdir əslində.***

Siyasət Təsir Dairəsindən azad olmuş kiçik ölkə tanımır. Siyasət kiçik ölkəni öz təsir Dairəsinə salmayan Böyük ölkə tanımır. Böyük ölkələr kiçik ölkələri Təsir Dairələrinə salmaqda azaddırlar.

Təsir Dairəsinə düşən ölkələr – Müstəqilliyini itirən ölkə sayılmır.

***Əslində Təsir Dairəsində olmayan Müstəqil kiçik ölkələr Yoxdur.***

Əslində Dünyada Asılı Müstəqillik hökm sürür.

Kiçik ölkələr həm Müstəqil olurlar, həm asılı; həm dövlət Müstəqilliyi elan edilir, onun Atributları təsdiq olunur; həm də Təsir Buxovu qalır, saxlanır.

Müstəqilliklə Qeyri-Müstəqillik birgə, qoşa yaşayır.

"Mütləq Müstəqillik yoxdur" – deyir siyasətçilər. Siyasətdə Mütləq heç nə yoxdur; Bu səbəbdən Siyasət əslində Müstəqillik tanımır, ancaq onu tanıyan bilinir.

## 8. DÜNYAÇILIQ – TƏCRİDÇİLİK

Dünyaçılıq (Qlobalçılıq) – Təcridçiliyi (Separatizmi) yaradır.

Dünyaçılıq – Dünya Ağalarına xidmət eləyir.

Dünya deyəndə Dünya Ağaları nəzərdə tutulur.

Dünyaçılıq (Qlobalçılıq) Ağaçılıq olur əslində – Ağaçı Əməli, Ağaçı düşüncəsi olur; bu səbəbdən də ölkələrdə Təcridə meyl yaranır. Təcrid xilas sayılır – Geniş Dünyaçılıqdan Dar Təcridçilik törəyir.

Yuxarı Təbəqə Dünyaçılığından Aşağı Təbəqə Təcridçiliyi törəyir.

Dünyaçılıq Yadlığından Təcridçilik Yağılığı törəyir.

Dünya kiçik ölkələrdən üz çevirəndə kiçik ölkələr Təcridə üz tuturlar.

Dünya Böyüklərə qalanda kiçiklər Təcridə sarılırlar.

Dünyaçılar "Dünya mənəm" deyəndə – Təcridçilər öz Dünyalarını Dünyadan kənarda görməlidirlər.

Dünyaçılar Dünya ölkələrinə Xaricilik Təlqin edirlər; xariciliyə qarşı Özümçülük Təcridi baş qaldırır.

Qlobal Düşüncə, Kosmopolitizm "Dünya Vətənimdir" İdeyası Vətənsizlik əhval-ruhiyyəsi yaradır, həmin hal Dünyaçılığa qarşı etirazla müşayiət olunur, həmin etiraz Dünyaya qarşı inkarçılıq Duyğusu oyadır.

"Əgər Dünya – Vətənsizlikdirsə, – o, Vətənçiyə lazım deyil, ondan Ayrılmaq, ona qarşı durmaq gərək, Vətən özü elə Dünyadır, bu Dünya Vətənçiyə bəsdir".

Dünyaçılığı Siyasət yaradıb, Təcridçiliyi Siyasətdən hiddətlənənlər.

***Əslində isə Dünya – Müxtəlif ölkələrdən ibarətdir və hamıya mənsub olmalıdır – ancaq bu, siyasətə ziddir – çünki Ağalığa, Rəiyyətliyə, Yadlığa ziddir.***

## 9. VAHİDLƏŞMƏ (İNTEQRASİYA) – ƏKSİLMƏ

Vahidləşmə (İnteqrasiya) kiçik ölkələri Artırmır – Əksildir; Böyük ölkələri Böyüdür. ***Vahid İqtisadiyyat*** Böyük ölkələrin iqtisadi Ağalığını təmin edir; ***Vahid Siyasət*** Böyük ölkələrin siyasi Ağalığını təmin edir; ***Vahid Mədəniyyət*** Böyük ölkələrin mədəni Ağalığını təmin edir; Vahidləşmə Təbəqələşməni aradan qaldırmır – Təsdiq edir; Yadlığı aradan qaldırmır – Təzələyir. Vahidləşmə (İnteqrasiya) iqtisadi İnkişafın qarşısında sədd çəkir, onu Ağalıq – Rəiyyətlik çərçivəsində saxlayır. Vahid iqtisadiyyata qatılan əslində öz Vahidliyini itirir. İqtisadiyyatlar Vahidləşdikcə öz Müstəqilliklərini

itirirlər – Ağalıq möhkəmlənir, Rəiyyətlik Artır, Asılılıq çoxalır; son nəticədə Vahidlikdən (İnteqrasiyadan) qurtulmaq, azad olmaq meyli yaranır, yaranmalıdır.

Vahidləşmək (İnteqrasiya) Siyasi inkişafın qarşısına sədd çəkir, onu hazır, standart qəliblərə salır; qurumlara, qaydalara yönəldir, tərəqqini sxemlərə tabe edir, onun üfüqlərini daraldır, Vahidlik Buxovu yaranır, son nəticədə Vahidləşməyə (İnteqrasiyaya) qatılanlar ondan çıxmağa can atırlar, atmalıdırlar.

***Zahiri monolitlik daxili pərakəndəliyi gizlədə bilmir.***

“Vahidləşmə” Vahidlik yaratmır, çünki Müxtəlifliyə qarşıdır.

***Ağalıq – Müxtəlifliyə qarşıdır.***

***Təbəqəlik – Müxtəlifliyə qarşıdır.***

***Yadlıq – Müxtəlifliyə qarşıdır.***

Müxtəliflik olmayan yerdə Vahidlik yoxdur.

Vahidləşmə (İnteqrasiya) Vahidlik yaratmır.

Ağalığın Artması Vahidliyin Azalmasıdır. Təbəqəçiliyin Artması – Vahidliyin Azalmasıdır. Vahidliyin Azalması Yadlığın Artmasıdır.

***Son nəticədə inteqrasiya Yadlığı artırır.***

Vahidləşmə (İnteqrasiya) Mədəni İnkişafı məhdudlaşdırır, onun yaradıcı imkanlarını əksildir; onu şablonlaşdırır; bənzərsizlik, əvəzsizlik cəzbindən ayırır; Ağa Mədəniyyətlərə tabe olan Rəiyyət mədəniyyətlər, Yuxarı mədəniyyətlərə tabe olan Aşağı mədəniyyətlər törəyir.

***Mədəniyyətlər Vahidləşdikcə onların arasında Yadlıq artır.***

İnteqrasiya son nəticədə Yadlıq yaradır, yaratmalıdır.

Əsl Vahidlik (Birlik) – İnsanilik Tələb edir.

Müasir Vahidləşmədə (İnteqrasiyada) o, yoxdur.

## 10. ÜMUMBƏŞƏRİLİK – MİLLİLİK

Ümumbəşərilik – Milliliyin daxilində olmalıdır.

Ümumbəşərilik Milliliyin xaricində olanda, üstündə olanda o, Ağalığa çevrilir.

Ümumbəşərilik vasitəsiylə Böyük ölkələr kiçik ölkələr üzərində Ağalıq eləyirlər; – əksilən Millilik artan Təbəqəlik yaradır – Təbəqəlik Yadlıq törədir.

İnsanın Yaşamaq haqqı – Millətlərin Yaşamaq haqqından ayrılanda Yadlaşır.

Əgər Millətlər yaşamağa haqlı deyillərsə, əgər onlar labüd şəkildə aradan qalxmalıdırsa, Millətlərsiz bəşər yaranmalıdırsa – onda insan da yaşamamalıdır, yaşamağa qadir deyil.

***Millətlərsiz Bəşər ideyası İnsanın yaşamaq haqqına qarşıdır əslində.***

***İnsan Azadlığı haqqı Millətlər Azadlığı haqqından Ayrılsa – Yadlaşar.***

Əgər Millətlər Azadlığı yoxdursa, İnsan Azadlığı Yoxdur; əgər Millətlər Ağalara və Rəiyyətlərə bölünürsə, İnsanlar da Ağalara və Rəiyyətlərə bölünürlər, – Ağalar və Rəiyyətlər olan yerdə Azadlıq yoxdur.

Azadlıq olmayan yerdə Yadlıq hökm sürür.

Əgər İnsanların Bərabərlik haqqı Millətlərin bərabərlik haqqından Ayrılsa – Yadlaşar. Millətlər Yuxarı və Aşağı Təbəqələrə bölünən Yerdə – Bərabərlik Yoxdur.

Millətdən kənarda Millətə qarşı yaradılan Ümumbəşərilik mahiyyətcə Bəşərə qarşıdır – çünki Millətsiz Bəşər yoxdur.

Bəşəri Millətdən məhrum eləmək – Xalqı şəxsiyyətdən, fərddən məhrum eləməkdir.

Bəşər haqq olduğu dərəcədə – Millət də haqdır.

Siyasət son nəticədə Bəşəri Millətsizləşdirmək istəyir.

Bəşəri Millətə qarşı qoymaq – onu özünə qarşı qoymaqdır əslində.

## 11. OYUN – OYUNÇULUQ

Siyasət oyundur. Oyunda Udan – Uduzan olur.

***Siyasətdə Udan Böyük sayılır, Uduzan kiçik.***

***Siyasət – Həqiqət axtarışı deyil; Uduş axtarışıdır.***

Siyasətdə Udan Ağa olur, Uduzan – Rəiyyət. Udan Yuxarı Təbəqə olur, Uduzan – Aşağı Təbəqə.

***Oyun – Yadlıqdır.***

***Siyasət Seçki Oyunu Yaradır.***

Seçilən Udur – Seçilməyən Uduzur.

Siyasət seçiciləri seçki oyununda oynadır, seçilənlər seçdirilir, seçdirilmək oyunu oynadılır; seçdirilənlər udur, seçdirilməyənlər uduzur.

***Siyasət Xalq hakimiyyəti – Demokratiya oyunu oynayır,*** – Xalq üzərində hakimiyyət Xalq hakimiyyəti kimi qələmə verilir, xalq oynadılır, hakimiyyət udur.

Bu oyunda Xalqın udan vaxtı olmayıb; oynadan həmişə udub – oynadılan həmişə uduzub.

***Siyasət Rəqabət Oyunu yaradıb,*** Rəqabətin Səxavəti – Yadlıqdır, Rəqabət – Bolluca Yadlıq Səxavəti paylayır, Rəqabətdə Udan Ağa olur, Uduzan – Rəiyyət; Udan Yüksək Təbəqə sayılır; Uduzan Aşağı Təbəqə.

***Siyasət Ticarət Oyunu yaradır.***

Satan – satılan oyunu.

Ağalar satır, Rəiyyət – satılır; Yuxarı Təbəqə satır, Aşağı Təbəqə satılır.

Ticarət Oyunu Yadlıq yaradır. Yadlıqdan Yağılıq törəyir, – Ağa udur, Rəiyyət uduzur. Yuxarı Təbəqə udur, Aşağı Təbəqə uduzur.

***Siyasət İdarəçilik Oyunu yaradır.***

İdarəçilər camaatı oynadır; hakimlər udur – Tabeçilər uduzur.

***Siyasi Dünya – Oyunlar meydanıdır – Oynadanlar və oynayanlar tamaşasıdır.***

## 12. SİYASİ FƏALLIQ – AZAD XUDBİNLİK

Siyasət – Xudbinlik Azadlığıdır əslində.

Ağalıq Azadlığıdır.

Təbəqəlik Azadlığıdır.

Yadlıq Azadlığıdır.

Siyasi Fəallıq Xudbinliyə xidmət edir:
Ağalıq Azadlığından – Əsarət törəyir.
Təbəqəlik Azadlığından – Əsarət törəyir.
Yadlıq Azadlığından – Əsarət törəyir.

***Xudbinlik Azadlığı – Əsarət Azadlığı olur.***

Siyasətdə indiyə qədər ən çox Xudbinlik Azadlığı gerçəkləşib:
Bərabərlik adıyla Xudbinlik.
Qardaşlıq adıyla Xudbinlik.
Ədalət adıyla Xudbinlik.
Həqiqət adıyla Xudbinlik.

Siyasət – Xudbinlik Daşıyıcısı olub.
Ağalıq Daşıyıcısı.
Təbəqəlik Daşıyıcısı.
Yadlıq Daşıyıcısı.

Bütün Azadlıqlar Ağalıqla nəticələnib.
Təbəqəliklə nəticələnib.
Yadlıqla nəticələnib.

Siyasi Fəallıq – Xudbinlik Fəallığı olub əslində.
Ağaların Rəiyyətlərlə münasibəti olub.
Yuxarı Təbəqənin Aşağı Təbəqəyə münasibəti olub.
Yadların bir-birinə münasibəti olub.
Bütün Əsarətlər Xudbinlik Azadlığından yaranıb, – Xudbinlik Azadlığı yaranıb.

## 13. SİYASƏT POZĞUNLUĞU

Siyasət adamları pozur, Yağılıqla Birləşən Dostluq Təlqin edir, Yalanla Birləşən Həqiqət Təlqin edir, Əxlaqsızlıqla Birləşən Əxlaq Təlqin edir.

***Ağalığı*** Doğrultmağa səy göstərir, ***Təbəqəliyi*** Döğrultmağa səy göstərir, ***Yağılığı*** Doğrultmağa səy göstərir.

Siyasət Ahəngi Həqiqət Ahənginə qarşıdır. Ədalət Ahənginə qarşıdır.

***Siyasət İnamı – İnamsızlıqdır.***
Dünyaya İnanan – Ağaya İnanmaz.
Həyata İnanan – Ağaya İnanmaz.
İnsana İnanan – Ağaya İnanmaz.
Dünyaya İnanan – Təbəqəliyə İnanmaz.
Həyata İnanan – Təbəqəliyə İnanmaz.
İnsana İnanan – Təbəqəliyə İnanmaz.
Dünyaya İnanan – Rəiyyətliyə İnanmaz.
Həyata İnanan – Rəiyyətliyə İnanmaz.
İnsana İnanan – Rəiyyətliyə İnanmaz.
Dünyaya İnanan – Yağılığa İnanmaz.
Həyata İnanan – Yağılığa İnanmaz.
İnsana İnanan – Yağılığa İnanmaz.

***Siyasi İdrak – Ruhani İdraka qarşıdır.***
İnsandakı Mütləqliyi dərk edən – Ağalığı rədd etməlidir.
Rəiyyətliyi rədd etməlidir.
Təbəqəliyi rədd etməlidir.
Yağılığı rədd etməlidir.

***Siyasi Əxlaq – Mənəviyyata qarşıdır***.
Vicdan hakimliyi – Ağalığı qəbul etməz.
Rəiyyətliyi qəbul etməz.
Təbəqəliyi qəbul etməz.
Yağılığı qəbul etməz.
Təmənnasızlıq – Ağalığı qəbul etməz.
Rəiyyətliyi qəbul etməz.
Təbəqəliyi qəbul etməz.
Yağılığı qəbul etməz.
Fədakarlıq – Ağalığı qəbul etməz.
Rəiyyətliyi qəbul etməz.
Təbəqəliyi qəbul etməz.
Yağılığı qəbul etməz.

***Siyasi İradə – Ruhani İradəyə qarşıdır.***

Ruhani İradə – Ağalığı qəbul etməz.
Rəiyyətliyi qəbul etməz.
Təbəqəliyi qəbul etməz.
Yağılığı qəbul etməz.

***Siyasət – Mahiyyətcə Ruhaniliyə qarşıdır – İnsaniliyə qarşıdır.***

## 14. SİYASƏTDƏN ÇIXMAQ

Ağalıqdan İmtina etmək – Siyasətdən çıxmaqdır.

Rəiyyətlikdən İmtina etmək – Siyasətdən çıxmaqdır.

Təbəqəlikdən İmtina etmək – Siyasətdən çıxmaqdır.

Yağılıqdan İmtina etmək – Siyasətdən çıxmaqdır.

Bunun üçün İnsaniliyə Yetmək gərək.

***İnama çatmaq gərək.***

Dünyanın, Həyatın, İnsanın Mütləq – Əzəli, Əbədi, Sonsuz, Kamil Mahiyyətinə İnanmaq gərək.

***İdraka çatmaq gərək.***

İnsanın Şəraitdən, Mühitdən, Zamandan, Cəmiyyətdən Üstünlüyünü dərk etmək gərək.

***Mənəviyyata çatmaq gərək.***

Vicdan Hakimliyinə, Təmənnasızlığa, Fədakarlığa Yüksəlmək gərək.

***İradəyə çatmaq gərək.***

Zəmanəyə, Şəraitə, Mühitə, Cəmiyyətə qarşı durmaq gərək.

***Siyasətdən çıxmaq üçün İnsanlaşmaq gərək.***

***Siyasi Dünya Ruhani Dünyayla əvəz olunmalıdır.***

*16 Dözüm günü, Qar ayı, 18 il. Bakı.*
*(Yanvar, 1997)*

# HAQQ – HAQSIZLIQ

**(35-ci Müqəddəs Kitab)**

## 1. FƏRƏH HAQQI – FƏRƏH BORCU

İnsanın Fərəh Haqqı var...

Fərəh Haqqı – Fərəh Borcu Tələb eləyir.

İnsaniliyə Yetmək – Fərəhə Yetməkdir.
İnsaniliyə Yetmək – Fərəh Borcunu Yerinə Yetirməkdir.

İnama Yetmək – Fərəhə Yetməkdir.
İnama Yetmək – Fərəh Borcunu Yerinə Yetirməkdir.

İdraka Yetmək – Fərəhə Yetməkdir.
İdraka Yetmək – Fərəh Borcunu Yerinə Yetirməkdir.

Mənəviyyata Yetmək – Fərəhə Yetməkdir.
Mənəviyyata Yetmək – Fərəh Borcunu Yerinə Yetirməkdir.

İradəyə Yetmək – Fərəhə Yetməkdir.
İradəyə Yetmək – Fərəh Borcunu Yerinə Yetirməkdir.

Bəşər Fərəhə Yetməyib – Fərəh Borcunu Yerinə Yetirməyib.
***Bəşər Fərəh Haqqını Ödəməyib.***

Bəşər Haqqa Borcunu Ödəməyib, – bu səbəbdən də Fərəhə Yetməyib.

Bəşər Fərəh Borcunu ödəyəndə Fərəhə Yetəcək.

Fərəh Borcu Fərəh Haqqını Yetirəcək.

***Borc – Haqqı Ödəyəcək.***

## 2. QORXUSUZLUQ HAQQI – QORXU HAQSIZLIĞI

İnsanda Qorxusuzluq Haqqı Var – Qorxunu Əyən.
İnsanda Qorxu Haqsızlığı Var – İnsanı əyən.

Qorxu – Haqsızdır, çünki İnsanı əyir.

Qorxusuzluq – Haqdır, çünki Qorxunu əyir.

İnsan – Qorxuda – Haqsızdır; Qorxusuzluqda Haqlıdır.

Qorxu adlanan – İnsanilik Yoxdur;
Qorxusuzluq adlanan – İnsanilik Var.

Qorxu adlanan İnam Yoxdur;
Qorxusuzluq adlanan İnam Var.

Qorxu adlanan İdrak Yoxdur;
Qorxusuzluq adlanan İdrak Var.
Qorxu adlanan Mənəviyyat Yoxdur;
Qorxusuzluq adlanan Mənəviyyat Var.
Qorxu adlanan İradə Yoxdur;
Qorxusuzluq adlanan İradə Var.
***Qorxunu əymək gərək ki, Qorxusuzluq əyilməsin.***
***Haqsızlığı əymək gərək ki, Haqq əyilməsin.***

**3. QORXUSUZLUQ SAFLIĞI**

Qorxu səbəbindən Günaha batmırlar.
Əslində Qorxu özü elə Günahdır.
Qorxu səbəbindən Çirkə bulaşmırlar.
Əslində Qorxu özü elə Çirkdir.
Qorxu səbəbindən Qəbahətə qatılmırlar.
Əslində Qorxu özü elə Qəbahətdir.
Qorxu Günahından çıxmaq gərək,
Qorxu Çirkindən təmizlənmək gərək.
Qorxu Qəbahətindən ayrılmaq gərək.
***Qorxusuzluq Saflığına Yetmək gərək.***

**4. İNSANİLİK HAQQI**

İnsanın İnsanilik Haqqı Var;
İnsanın İnsansızlıq Haqsızlığı Var.
İnsanın İnam Haqqı Var; İnamsızlıq Haqsızlığı Var.
İnsanın İdrak Haqqı Var; İdraksızlıq Haqsızlığı Var.
İnsanın Mənəviyyat Haqqı Var; Mənəviyyatsızlıq Haqsızlığı Var.
İnsanın İradə Haqqı Var; İradəsizlik Haqsızlığı Var.
İnsan İnsansızlıq haqsızlığından çıxa bilməyib.
İnsanilik Haqqına Yetmək üçün İnsansızlıq Haqsızlığından çıxmaq gərək.
***Haqqa Yetmək üçün – Haqsızlıqdan çıxmaq gərək.***

## 5. ÖZÜMLÜK HAQQI

İnsanın Yaşamaq Haqqından danışırlar.
Ancaq İnsanın əlindən İnsanilik haqqını al və o, Yaşamır.
İnsanın əlindən İnam Haqqını al və o, yaşamır.
İnsanın əlindən Mənəviyyat Haqqını al və o, yaşamır.
İnsanın əlindən İradə Haqqını al və o, yaşamır.
İnsanın Azadlıq haqqından danışırlar.
Ancaq İnsanın əlindən İnsanilik Haqqını al və o, əsarətə düşür.
İnsanın əlindən İnam Haqqını al və o, əsarətə düşür.
İnsanın əlindən İdrak Haqqını al və o, əsarətə düşür.
İnsanın əlindən Mənəviyyat Haqqını al və o, əsarətə düşür.
İnsanın əlindən İradə Haqqını al və o, əsarətə düşür.
İnsanın Səadət Haqqından danışırlar.
Nə qədər ki, İnsan İnsanilik Haqqına Yetməyib – o, xoşbəxt olmayacaq.
Nə qədər ki, İnsan İnam Haqqına Yetməyib – o, xoşbəxt olmayacaq.
Nə qədər ki, İnsan İdrak Haqqına Yetməyib – o, xoşbəxt olmayacaq.
Nə qədər ki, İnsan Mənəviyyat Haqqına Yetməyib – o, xoşbəxt olmayacaq.
Nə qədər ki, İnsan İradə Haqqına Yetməyib – o, xoşbəxt olmayacaq.
***İnsan Özünə Yetməyincə – özünü Yetirməyəcək.***

## 6. HAQSIZLIQDAN ÇIXMAQ

İnsan – Özünə Yetməyib, – Haqqına çatmayıb.

O, özünə Yetməli, – Haqqına çatmalıdır; Haqsızlıqdan çıxmalı, Özümlüyünü Yetirməlidir.

## 7. DÖVLƏT QURĞUSU

Dövlət Qanunlar vasitəsiylə Adamları qurur – Adamlardan Qurğu düzəldir və onu işə salır.

Adamlara xidmət adıyla adamlardan özünə xidmətçi düzəldir.

**8. HAQSIZLIQ “HAQQI”**

Dövlət Adamları Qurmaq “Haqqı”na Yiyələnir. Əslində bu Haqsızlıqdır.

Dövlət Haqsızlığa Yiyələnir və bunu haqq adlandırır.

***Dövlət Haqsızlıq “Haqqı”na Yiyələnir.***

**9. DOĞRULUQ – ƏYRİLİK**

İctimai Doğruluq – bir çox hallarda – Gizli Əyrilikdir.

***Cəmiyyət – Əyriliyin Gizlənmək Yeridir.***

Əyrilik – ən çox zəif cəmiyyətlərdə ifşa olunur; güclü cəmiyyətlər Əyriliyi gizlədir.

**10. HALALLIQ – HARAMLIQ**

Əgər Həyatın Məqsədi – Varidatdırsa, onda Halallıqla Haramlıq arasında elə bir Fərq yoxdur.

Əgər Həyatın Məqsədi – Mənəviyyatdırsa, onda Halallıq Haramlığın Qənimidir.

***Haram Varidat olur – Haram Mənəviyyat olmur***.

**11. HÖRMƏT – XİDMƏT**

Adamların Hörmətini qazanmaq əvəzinə Azamların xidmətini qazanmaq istəyirlər.

Adamlardan Hörmət gözləmək əvəzinə Adamlardan xidmət gözləyirlər.

Adamlardan Hörmətçi yaratmaq əvəzinə Adamlardan xidmətçi yaradırlar.

**12. HAQQ – ÖZÜMLÜK**

Haqq – Özümlükdür.

İnsan Dünyanın Özümlüyünə – Dünyalığına Yetməyib.

İnsan Həyatın Özümlüyünə – Həyatlığına Yetməyib.

İnsan İnsanın Özümlüyünə – İnsaniliyinə Yetməyib.
***İnsan – Haqqa Yetməyib.***

**13. HAQSIZLIQ TƏRƏNNÜMÜ**

Nitsşe Hakimiyyət Ehtirasını İnsanın əsas Məziyyəti sayır.

Əslində o, İnsan Haqsızlığını vəsf edir; Haqsızlıq Tərənnümçüsünə çevrilir.

**14. AMANSIZ HAQSIZLIQ**

Nitsşe Amansızlığı Haqq sayır.
Amansız Haqsızlıq Təlqin eləyir.
Amansız Haqsızlıq "Haqqı" Təbliğ eləyir.

**15. HAQSIZLIĞIN YAŞATDIĞI**

İnsanın Ağalıq Haqqı Yoxdur.
Ancaq Hakimiyyəti Ağalıq Yaşadır.
Əslində Hakimiyyətin Yaşamağa Haqqı Yoxdur.
İnsanın Nökərlik Haqqı Yoxdur.
Ancaq Hakimiyyəti Nökərlik Yaşadır.
Əslində Hakimiyyətin Yaşamağa Haqqı Yoxdur.
İnsanın Təbəqə Haqqı Yoxdur.
Ancaq Hakimiyyəti Təbəqəlik Yaşadır.
Əslində Hakimiyyətin Yaşamağa Haqqı Yoxdur.
İnsanın Yadlaşma Haqqı Yoxdur.
Ancaq Hakimiyyəti Yadlaşma Yaşadır.
Əslində Hakimiyyətin Yaşamağa Haqqı Yoxdur.
***Hakimiyyəti Haqsızlıq yaşadır.***

**16. ÜMUMİLİK AĞALIĞI**

Marks Dövlət Ağalığını rədd edir, ancaq Ümumilik Ağalığını vəsf edir.

Əslində o, Dövlət Ağalığını vəsf edir, çünki Dövlət Ağalığı Ümumilik Ağalığı Donunda görünür.

**17. HAQSIZLIQ – HALSIZLIQ**

Ədalət – Haqdır.

Ancaq Ədalət Dünyaya Hakim olmayıb.
Bu səbəbdən də Dünya – Halsızdır.

***Haqsızlıq – Halsızlıq Yaradıb.***

Xeyir – Haqdır.

Ancaq Xeyir Dünyaya Hakim olmayıb.
Bu səbəbdən də Dünya – Halsızdır.

***Haqsızlıq – Halsızlıq Yaradıb.***

Həqiqət – Haqdır.

Ancaq Həqiqət Dünyaya Hakim olmayıb.
Bu səbəbdən də Dünya – Halsızdır.

***Haqsızlıq – Halsızlıq Yaradıb.***

Dünya Yaranışından Halsızdır, çünki Haqqa – Yetməyib.

**18. HƏQİQƏT**

Nə qədər ki, Dünyaya Haqq Hakim olmayıb – bütün Hakimiyyətlər Haqsızdırlar.

**19. HAQQ – İNSANİLİK**

***İnsan Haqqı – İnsanilikdir.***

İnsan İnama Yetəndə – Haqlı olur.
İdraka Yetəndə – Haqlı olur.
Mənəviyyata Yetəndə – Haqlı olur.
İradəyə Yetəndə – Haqlı olur.

İnsan hələ Haqqa Yetməyib...

İnsanın İnsaniliyi hələ Nisbidir.

İnsan İnsaniliyə Yetməlidir ki, Haqlı olsun.

*9 Dözüm günü, Xəzan Ayı,18-il. Bakı.*

# ÖLÇÜ

**(22-ci Müqəddəs Kitab)**

## 1. DƏYİŞMƏZLİK

Dünyada hər şey dəyişir, ancaq Dünyanın Mənası Dəyişmir.

***İdrakın Məqsədi Dünyanın Dəyişməz Mənasına çatmaqdır.***

Hadisələr dəyişkəndir, ancaq hadisələrin Mahiyyəti dəyişmir.

***İdrakın Məqsədi Hadisələrin Dəyişməz Mahiyyətinə çatmaqdır.***

***Dəyişkənliyi zahiri gözlə görmək olur, Dəyişməzliyi görmək üçün daxili göz gərək.***

***İdrak – Daxili Gözdür.***

Dəyişkən Zaman olur, Mühit olur, Şərait olur, dəyişkən Həqiqət olmur; yəni Zaman, Mühit, Şərait dairəsində Həqiqət olmur; Həqiqət Zamandan, Şəraitdən, Mühitdən Üstündür.

***Zaman Həqiqəti*** Yalandır – çünki Zaman dəyişir, Həqiqət dəyişmir.

***Mühit Həqiqəti*** Yalandır – çünki Mühit dəyişir, Həqiqət dəyişmir.

***Şərait Həqiqəti*** Yalandır – çünki Şərait dəyişir, Həqiqət dəyişmir.

***Zamançılıq*** – əslində Həqiqəti Əzəlilikdən, Əbədilikdən, Sonsuzluqdan Təcrid etməkdir; – naşılar bunu Konkretlik adlandırırlar; əslində isə o, Yoxsulluqdur; Yoxsul Həqiqət olmur – Həqiqət həmişə Zəngindir.

***Mühitçilik*** – əslində Həqiqəti Əzəlilikdən, Əbədilikdən, Sonsuzluqdan Təcrid etməkdir; – naşılar bunu Konkretlik adlandırırlar; əslində isə o, Yoxsulluqdur; Yoxsul Həqiqət olmur – Həqiqət həmişə Zəngindir.

***Şəraitçilik*** – əslində Həqiqəti Əzəlilikdən, Əbədilikdən, Sonsuzluqdan Təcrid etməkdir; – naşılar bunu Konkretlik adlandırırlar; əslində isə o, Yoxsulluqdur; Yoxsul Həqiqət olmur – Həqiqət həmişə Zəngindir.

Bir Dövrün Həqiqəti olmur, bütün Dövrlərin Həqiqəti olur; çünki heç bir Dövr Əbədi deyil, Əbədi olmayan Həqiqət yoxdur.

***Dəyişkənlik – Yoxluq Yoludur.***

Gerçəklikdə Hadisələr Yoxluq Yoluna düşürlər, Yox olurlar.

***Mahiyyət, Məna Yox olmur; Hadisələr ölür – Hadisələrin Mənası qalır.***

***Dəyişən ölür, Dəyişməz qalır.***

***Varlıq – Dəyişməz Məna və Dəyişən Hadisələr Birliyidir.***

İdrakın Məqsədi Dəyişən Hadisələrin Dəyişməz Mənasına çatmaqdır; Dəyişkənliyin Dəyişməzliyini dərk etməkdir; Yoxa çıxanın Varlığını dərk etməkdir; Gözün görmədiyini görməkdir; Dünyaya daxili gözlə baxmaqdır.

Yoxluğa aparan Dəyişkənlik Dünyanı Təməlindən qopara bilmir; Təməl – sarsılmır, dəyişmir; Dünyadakılar Çay kimi axırlar; Dünyanın Mahiyyəti Dağ kimi möhkəm dayanır.

***İdrak Təmələ – Mənaya çatır; Dəyişkən Dünyada Dəyişməz Məna tapmaq – İdrakın Məqsədi budur.***

***Dəyişən nə varsa – əslində Qeyri-həqiqidir.***

Dəyişkən Məhəbbət – əslində qeyri-həqiqi Məhəbbətdir.

Dəyişkən Dostluq – əslində qeyri-həqiqi Dostluqdur.

Dəyişkən Etiqad – əslində qeyri-həqiqi Etiqaddır.

Dəyişkən Xeyir – əslində qeyri-həqiqi Xeyirdir.

Dəyişkən Ədalət – əslində qeyri-həqiqi Ədalətdir.

Kamilliyə çatana qədər Adam dəyişir, ancaq Kamillik Dəyişməzdir; Kamillik dəyişərsə – Naqisləşər.

***Qeyri-Kamillik Dəyişkəndir, Kamillik – Dəyişməz.***

Adam Dəyişkəndir – İnsan Dəyişməz.

Adam Məhəbbəti Dəyişkəndir; İnsan Məhəbbəti – Dəyişməz.

Adam Dostluğu Dəyişkəndir; İnsan Dostluğu – Dəyişməz.

Adam Etiqadı Dəyişkəndir; İnsan Etiqadı – Dəyişməz.

Adam Xeyiri Dəyişkəndir; İnsan Xeyiri – Dəyişməz.

Adam Ədaləti Dəyişkəndir; İnsan Ədaləti – Dəyişməz.

«Eyni çaya iki dəfə girmək olmaz» – deyirlər; ancaq sabit, müəyyən özünəbənzərliyi olmayan çay – çay deyil – Yoxluqdur.

Dəyişkənlik Fəlsəfəsi (Dialektika) – Dünyaya Səthi, Zahiri münasibətdir, üzdəkini görməkdir; ***zahiri göz əməlidir – daxili göz əməli deyil;*** Mənadan, Mahiyyətdən ayrılmaqdır, ***Təməlsizlikdir.***

Həqiqət Dəyişməzliyi Ehkamçılığa qarşıdır; çünki Ehkam – Dəyişilməz Yalan deməkdir; – Yalan Dəyişilməzliyidir, Həqiqət Dəyişilməzliyi deyil.

***Həqiqət – Ehkama qarşıdır, çünki Yalana qarşıdır.***

Ehkam – İdrakı buxovlayır; Həqiqət – Ehkam Buxovunu qırır.

***Dəyişməz Həqiqət – Dəyişməz Ehkamı aradan qaldırır.***

***Həqiqət – Dəyişməzlik dərkidir və bu səbəbdən də Dəyişməzdir.***

## 2. BÜTÖVLÜK

Həyatda hər şey Ziddiyyətlidir, Həyatın Mahiyyəti isə Bütövdür.

***İdrakın Məqsədi – Həyatın Bütöv Mahiyyətinə çatmaqdır.***

Hadisələr Ziddiyyətlidir, Məna – Bütövdür.

***İdrakın Məqsədi – Hadisələrin Bütöv Mənasına çatmaqdır.***

Ziddiyyətli nə varsa – Qeyri-həqiqidir.

Ziddiyyətli Xeyir – Qeyri-həqiqi Xeyirdir.

Ziddiyyətli Ədalət – Qeyri-həqiqi Ədalətdir.

Ziddiyyətli İnam – Qeyri-həqiqi İnamdır.

Ziddiyyətli İdrak – Qeyri-həqiqi İdrakdır.

Ziddiyyətli Mənəviyyat – Qeyri-həqiqi Mənəviyyatdır.

Ziddiyyətli İradə – Qeyri-həqiqi İradədir.

Gerçəklik – Ziddiyyətlidir, Gerçəkliyin Mənası Bütövdür.

Bu səbəbdən də Həqiqət Gerçəklikdən Üstündür.

***Gerçəklik – Ziddiyyətlidir, Həqiqət – Bütöv.***

Keçici Ziddiyyətlidir; Əbədi – Bütöv.

Ötəri Ziddiyyətlidir; Əzəli – Bütöv.

Sonlu Ziddiyyətlidir; Sonsuz – Bütöv.

Qeyri-Kamil Ziddiyyətlidir; Kamil – Bütöv.

Keçici Həqiqət olmur, Ötəri Həqiqət olmur, Sonlu Həqiqət olmur, Qeyri-Kamil Həqiqət olmur.

***Dünya Ziddiyyətlidir; Həqiqət – Bütöv.***

İdrak Ziddiyyəti görür, bilir; – ancaq Ziddiyyətdə dayanmır – Bütövə çatır.

***Ziddiyyətdə Dünyanın Mənadan Aşağı olması görünür, bilinir;*** Həqiqətdə – Dünyanın Mənası.

Mahiyyətlə Təzahür arasında Ziddiyyət var: Mahiyyət Bütövdür; Təzahür – Ziddiyyətli.

İdrak Təzahürü görür, bilir; – ancaq Təzahürdə dayanmır, ondan Yüksəkdə olan Mahiyyətə çatır.

Dünyadakı – Ziddiyyətlidir, Mənadakı – Bütöv.

***Dünyada Xeyir–Şər Ziddiyyəti var – Mütləq Xeyir Bütövdür, Ziddiyyətsizdir.***

İdrak Xeyir–Şər Ziddiyyətini görür, bilir; – ancaq onda dayanmır, Mütləq Xeyirə Yüksəlir.

***Dünyada Ədalət–Ədalətsizlik Ziddiyyəti var – Mütləq Ədalət Bütövdür, Ziddiyyətsizdir.***

İdrak həmin Ziddiyyəti görür, bilir; – ancaq onda dayanmır, Mütləq Ədalətə Yüksəlir.

***Dünyada İnam–İnamsızlıq Ziddiyyəti var;*** İdrak bu Ziddiyyəti görür, bilir; – ancaq onda dayanmır – Mütləq İnama çatır.

***Dünyada Mənəviyyat–Mənəviyyatsızlıq Ziddiyyəti var;*** İdrak bu Ziddiyyəti görür, bilir; – ancaq onda dayanmır, Mütləq Mənəviyyata çatır.

***Dünyada İradə–İradəsizlik Ziddiyyəti var;*** İdrak bu Ziddiyyəti görür, bilir; – ancaq onda dayanmır, Mütləq İradəyə çatır.

Cəmiyyət Ziddiyyətlidir – Həqiqət – Bütöv, bu səbəbdən də Həqiqət Cəmiyyəti ötür.

Din – Həqiqətə Ziddir.

***Dünya – Mahiyyətdən Aşağıdır, bu səbəbdən də Ziddiyyətlidir.***

***İdrakın Məqsədi – Mahiyyətin Dərkidir, – yəni Bütövlüyün Dərkidir.***

***Ziddiyyətdə dayanıb qalan İdrak – nisbidir, naqisdir.***

***Ziddiyyəti görmək asandır – Ziddiyyətlərin arxasındakı Bütövlüyü görmək çətindir.***

Ziddiyyət Fəlsəfəsi (Dialektika) Gerçəkliyi görür – Mahiyyəti görmür; Hadisəni görür – Mənanı görmür; bu səbəbdən də Həqiqətə çatmır.

***Ziddiyyət – Dünyanın Mənadan əskik olmasıdır.***

***Həqiqət – Dünyadan Artıq olan Bütöv Mənaya çatır.***

## 3. MÜSTƏQİLLİK

***Hadisələr Bir-birindən asılıdır; Mahiyyət – Müstəqildir.***

Hadisələrin heç biri tam özü olmur, başqasına keçir; onların müəyyənliyi, özünəməxsusluğu nisbi səciyyə daşıyır.

***Məna – Mütləq dərəcədə müəyyəndir***.

Gerçəklikdə Xeyir Şərə keçir, Şər Xeyirə; bu səbəbdən də Xeyirin Müəyyənliyi Nisbidir – haradasa Xeyir elə Şərdir, Xeyir Şərdən asılıdır; Şərə qarşı olan Xeyir həm də Şərdən bəhrələnir; Şərdən ayrı Xeyir tanımır Gerçəklik – bu səbəbdən də Xeyirin Müstəqilliyi tam olmur.

İdrakın Məqsədi – ***Mütləq Xeyiri*** dərk etməkdir; bu səbəbdən də o, Gerçəklik səviyyəsində Xeyiri ötməli, Məna səviyyəsində Xeyirə çatmalıdır.

Gerçəklikdə ***Ədalətlə Ədalətsizlik*** arasında möhkəm Sədd olmur: Ədalət Ədalətsizliyə keçir; Ədalətsizlik – Ədalət bilinir, Ədalətsizləşir.

İdrakın Məqsədi – ***Mütləq Ədaləti*** dərk etməkdir; bu səbəbdən də o, Gerçəklik səviyyəsində Ədaləti ötməli, Məna səviyyəsində Ədalətə çatmalıdır.

Gerçəklikdə ***Həqiqətlə Yalan*** arasında möhkəm Sədd olmur: Həqiqət Yalanlaşır; Yalan – Həqiqət bilinir, Həqiqət Yalanla birgə yaşayır.

İdrakın Məqsədi – ***Mütləq Həqiqəti*** dərk etməkdir; bu səbəbdən də o, Gerçək Həqiqəti ötməli, Məna səviyyəsində Həqiqətə çatmalıdır.

Həyatda ***İnamla İnamsızlıq*** arasında möhkəm Sədd olmur: İnam İnamsızlığa keçir; İnamsızlıq – İnam bilinir, İnam İnamsızlıqla birgə yaşayır.

İdrakın Məqsədi – ***Mütləq İnamı*** dərk etməkdir; Gerçək İnam səviyyəsini ötmək, Məna səviyyəsində İnam səviyyəsinə çatmaqdır.

Həyatda ***Mənəviyyatla Mənəviyyatsızlıq*** arasında möhkəm Sədd olmur: Mənəviyyat Mənəviyyatsızlığa keçir; Mənəviyyatsızlıq – Mənəviyyat bilinir, Mənəviyyatla Mənəviyyatsızlıq birgə yaşayır.

İdrakın Məqsədi – ***Mütləq Mənəviyyatı*** dərk etməkdir; bu səbəbdən də Gerçək Mənəviyyatı ötmək, Məna səviyyəsində Mənəviyyata çatmaqdır.

Həyatda ***İradəylə İradəsizlik*** arasında möhkəm Sədd olmur: İradə İradəsizliyə keçir; İradəsizlik – İradə bilinir, İradəylə İradəsizlik birgə yaşayır.

İdrakın Məqsədi – ***Mütləq İradəni*** dərk etməkdir; bu səbəbdən də Gerçək İradəni ötmək, Məna səviyyəsində İradəyə çatmaqdır.

Həyatda Ağ – tam Ağ olmur – həm də Qara olur; Təzə – tam Təzə olmur – həm də Köhnə olur; Bugün – tam Bugün olmur – həm də Dünən olur; Ləyaqət – tam Ləyaqət olmur – həm də Qəbahət olur; Cəsarətlə Qorxu qoşalaşır, Mərhəmətlə Nifrət qoşalaşır, Müdrikliklə Naşılıq qoşalaşır.

Asılılıq Fəlsəfəsinin (Dialektikanın) əksliklərin vəhdəti adlandırdığı hal – Gerçəklik halıdır; İdrak onu duyur, görür, bilir; ancaq onda dayanmır, qalmır; Məna halına – ***Əsillik***, ***Xalislik, Müstəqillik*** halına çatır.

***İdrakda – Əsillik, Xalislik, Müəyyənlik dərk olunur.***

***Qeyri-Müəyyən Həqiqət olmur.***

Şərə keçən Xeyir – Qeyri-Həqiqi Xeyirdir.

Ədalətsizliyə keçən Ədalət – Qeyri-həqiqi Ədalətdir.

İnamsızlığa keçən İnam – Qeyri-həqiqi İnamdır.

İdraksızlığa keçən İdrak – Qeyri-həqiqi İdrakdır.

Mənəviyyatsızlığa keçən Mənəviyyat – Qeyri-həqiqi Mənəviyyatdır.

İradəsizliyə keçən İradə – Qeyri-həqiqi İradədir.

***Gerçəklik səviyyəsində Həqiqət olmur, Məna səviyyəsində Həqiqət olur.***

Dünya Xeyiri Şərə, Ədaləti Ədalətsizliyə, Həqiqəti Yalana, İnamı İnamsızlığa, İdrakı İdraksızlığa, Mənəviyyatı Mənəviyyatsızlığa, İradəni İradəsizliyə, Ağı Qaraya, Ləyaqəti Qəbahətə, Müdrikliyi Naşılığa bağlayır.

***İdrak bu Mahiyyətə zidd Bağı qırır: Əsilliyi, Müəyyənliyi, Xalisliyi təsdiq edir.***

## 4. MÜTLƏQİLİK

***Həyatda hər şey Nisbidir, Məna – Mütləqdir.***

***İdrakın Məqsədi – Mənaya çatmaqdır.***

***Nisbilik – Natamlıq deməkdir.***

Həyatdakı ***Xeyir*** – natamdır; İdrakın Məqsədi – natam Xeyiri ötmək, Tam Xeyirə çatmaqdır.

Həyatdakı ***Ədalət*** – natamdır; İdrakın Məqsədi – natam Ədaləti ötmək, Tam Ədalətə çatmaqdır.

Həyatdakı ***Həqiqət*** – natamdır; İdrakın Məqsədi – natam Həqiqəti ötmək, Tam Həqiqətə çatmaqdır.

Həyatdakı ***İnam*** – natamdır; İdrakın Məqsədi – natam İnamı ötmək, Tam İnama çatmaqdır.

Həyatdakı ***Mənəviyyat*** – natamdır; İdrakın Məqsədi – natam Mənəviyyatı ötmək, Tam Mənəviyyata çatmaqdır.

Həyatdakı ***İradə*** – natamdır; İdrakın Məqsədi – natam İradəni ötmək, tam İradəyə çatmaqdır.

Həyatdakı ***Kamillik*** – natamdır; İdrakın Məqsədi – natam Kamilliyi ötmək, Tam Kamilliyə çatmaqdır.

Həyatdakı ***Müdriklik*** – natamdır; İdrakın Məqsədi –natam Müdrikliyi ötmək, Tam Müdrikliyə çatmaqdır.

***Nisbilik – keçicilik deməkdir.***

Həyatdakı ***Xeyir*** – keçici Xeyirdir; İdrakın Məqsədi – keçici Xeyiri ötmək, Əbədi Xeyirə çatmaqdır.

Həyatdakı ***Ədalət*** – keçici Ədalətdir; İdrakın Məqsədi – keçici Ədaləti ötmək, Əbədi Ədalətə çatmaqdır.

Həyatdakı ***Həqiqət*** – keçici Həqiqətdir; İdrakın Məqsədi – keçici Həqiqəti ötmək, Əbədi Həqiqətə çatmaqdır.

Həyatdakı ***İnam*** – keçici İnamdır; İdrakın Məqsədi – keçici İnamı ötmək, Əbədi İnama çatmaqdır.

Həyatdakı ***Mənəviyyat*** – keçici Mənəviyyatdır; İdrakın Məqsədi – keçici Mənəviyyatı ötmək, Əbədi Mənəviyyata çatmaqdır.

Həyatdakı ***İradə*** – keçici İradədir; İdrakın Məqsədi – keçici İradəni ötmək, Əbədi İradəyə çatmaqdır.

Həyatdakı ***Kamillik*** – keçici Kamillikdir; İdrakın Məqsədi – keçici Kamilliyi ötmək, Əbədi Kamilliyə çatmaqdır.

Həyatdakı ***Müdriklik*** – keçicidir; İdrakın Məqsədi – keçici Müdrikliyi ötmək, Əbədi Müdrikliyə çatmaqdır.

***Nisbilik – sonluluq deməkdir.***

Həyatdakı ***Xeyir*** – sonlu Xeyirdir; İdrakın Məqsədi – sonlu Xeyiri ötmək, Sonsuz Xeyirə çatmaqdır.

Həyatdakı ***Ədalət*** – sonlu Ədalətdir; İdrakın Məqsədi – sonlu Ədaləti ötmək, Sonsuz Ədalətə çatmaqdır.

Həyatdakı ***Həqiqət*** – sonlu Həqiqətdir; İdrakın Məqsədi – sonlu Həqiqəti ötmək, Sonsuz Həqiqətə çatmaqdır.

Həyatdakı ***İnam*** – sonlu İnamdır; İdrakın Məqsədi – sonlu İnamı ötmək, Sonsuz İnama çatmaqdır.

Həyatdakı ***Mənəviyyat*** – sonlu Mənəviyyatdır; İdrakın Məqsədi – sonlu Mənəviyyatı ötmək, Sonsuz Mənəviyyata çatmaqdır.

Həyatdakı ***İradə*** – sonlu İradədir; İdrakın Məqsədi – sonlu İradəni ötmək, Sonsuz İradəyə çatmaqdır.

Həyatdakı ***Kamillik*** – sonlu Kamillikdir; İdrakın Məqsədi – sonlu Kamilliyi ötmək, Sonsuz Kamilliyə çatmaqdır.

Həyatdakı ***Müdriklik*** – sonlu Müdriklikdir; İdrakın Məqsədi – sonlu Müdrikliyi ötmək, Sonsuz Müdrikliyə çatmaqdır.

***Nisbilik – qeyri-kamillik deməkdir.***

Həyatdakı ***Xeyir*** – qeyri-kamil Xeyirdir; İdrakın Məqsədi – qeyri-kamil Xeyiri ötmək, Kamil Xeyirə çatmaqdır.

Həyatdakı ***Ədalət*** – qeyri-kamil Ədalətdir; İdrakın Məqsədi – qeyri-kamil Ədaləti ötmək, Kamil Ədalətə çatmaqdır.

Həyatdakı ***Həqiqət*** – qeyri-kamil Həqiqətdir; İdrakın Məqsədi – qeyri-kamil Həqiqəti ötmək, Kamil Həqiqətə çatmaqdır.

Həyatdakı ***İnam*** – qeyri-kamil İnamdır; İdrakın Məqsədi – qeyri-kamil İnamı ötmək, Kamil İnama çatmaqdır.

Həyatdakı ***Mənəviyyat*** – qeyri-kamil Mənəviyyatdır; İdrakın Məqsədi – qeyri-kamil Mənəviyyatı ötmək, Kamil Mənəviyyata çatmaqdır.

Həyatdakı ***İradə*** – qeyri-kamil İradədir; İdrakın Məqsədi – qeyri-kamil İradəni ötmək, Kamil İradəyə çatmaqdır.

Həyatdakı ***Kamillik*** – qeyri-kamillikdir; İdrakın Məqsədi – qeyri-kamilliyi ötmək, Kamilliyə çatmaqdır.

Həyatdakı ***Müdriklik*** – qeyri-kamil Müdriklikdir; İdrakın Məqsədi – qeyri-kamil Müdrikliyi ötmək, Kamil Müdrikliyə çatmaqdır.

***Zaman – nisbi Vaxtdır əslində – keçici, sonlu, qeyri-kamil.***

İdrak – Zamanı ötür, Zaman səviyyəsində Xeyiri, Ədaləti, Həqiqəti, İnamı, Mənəviyyatı, İradəni, Kamilliyi, Müdrikliyi ötür.

***Şərait – nisbi Amildir əslində – keçici, sonlu, qeyri-kamil.***

İdrak – ***Şəraiti*** ötür, Şərait səviyyəsində Xeyiri, Ədaləti, Həqiqəti, İnamı, Mənəviyyatı, İradəni, Kamilliyi, Müdrikliyi ötür.

***Mühit – nisbi Birlikdir əslində – keçici, sonlu, qeyri-kamil.***

İdrak – ***Mühiti*** ötür, Mühit səviyyəsində Xeyiri, Ədaləti, Həqiqəti, İnamı, Mənəviyyatı, İradəni, Kamilliyi, Müdrikliyi ötür.

***Cəmiyyət – nisbi Qurumdur əslində – keçici, sonlu, qeyri-kamil.***

İdrak – ***Cəmiyyəti*** ötür, Cəmiyyət səviyyəsində Xeyiri, Ədaləti, Həqiqəti, İnamı, Mənəviyyatı, İradəni, Kamilliyi, Müdrikliyi ötür.

***Həyat Mütləqə çatmır, İdrak – çatır.***

Nisbilik Fəlsəfəsi (Dialektika) İdrakı Nisbiliyə pərçimləyir; onu Mahiyyətindən ayırır; Nisbiliyi Mütləqləşdirir, Mütləqi Nisbiləşdirir.

İdrak Nisbini görür, bilir; ancaq onda dayanmır, qalmır; Mütləqə Yüksəlir.

İdrakilik – Mütləqilikdir əslində.

*25 İnam günü, Od Ayı, 15-ci il. Bakı.*

# HAQQ

**(20-ci Müqəddəs Kitab)**

# 1. HAQQ – HÜQUQ

***Haqq – İnsaniliyi Təsdiq edir, Hüquq – Adamlığı qoruyur.***

***İnsanilik*** – Mütləq Xeyir deməkdir – Mütləq Ədalət, Mütləq Həqiqət, Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə...

***Adamlıq*** – Cəmiyyətçilik deməkdir – Ağalıq–Nökərlik, Təbəqələşmə, Özgələşmə, Hamılaşma.

***Haqq – Gerçəkliyi Amala Yüksəldir.***

***Hüquq – Gerçəkliyi Qoruyur.***

***Haqq – Mənanı İfadə eləyir; Hüquq – Təzahürü.***

***Bu səbəbdən də Haqq – Nisbilik tanımır, Hüquq – Mütləqilik.***

Hüquq – Mütləq Ədalət tanımır; Hüquqi Ədalət – Nisbi Ədalətdir, Keçici Ədalətdir, Ötəri Ədalətdir, Sonlu Ədalətdir, Qeyri-Kamil Ədalətdir, yəni Gerçəklik səviyyəsində Ədalətdir.

***Bəşərin gerçəklik səviyyəsi – Cəmiyyətdir.***

Hüquq – ictimai ədalət tanıyır, ictimai həqiqət tanıyır, bu səbəbdən də əslində Ədalət tanımır, Həqiqət tanımır.

Çünki Nisbi Ədalət – Ədalət deyil.
Keçici Ədalət – Ədalət deyil.
Ötəri Ədalət – Ədalət deyil.
Qeyri-Kamil Ədalət – Ədalət deyil.
Sonlu Ədalət – Ədalət deyil.
Nisbi Həqiqət – Həqiqət deyil.
Keçici Həqiqət – Həqiqət deyil.
Ötəri Həqiqət – Həqiqət deyil.
Qeyri-Kamil Həqiqət – Həqiqət deyil.
Sonlu Həqiqət – Həqiqət deyil.

Hüquq – Gerçəkliyi qoruyur, bu səbəbdən də Həqiqətə çatmır, Ədalətə çatmır; yəni – Hüquq gerçəklik səviyyəsində Ədaləti qoruyur, Həqiqəti qoruyur; Gerçəklik səviyyəsində isə Ədalət yoxdur, Həqiqət yoxdur.

***Hüquq*** – Gerçəklikdən üstün ola bilmir, bu səbəbdən də Ədalətə çata bilmir, Həqiqətə çata bilmir.

Bu səbəbdən də Hüquq Qanunları – nisbi Qanunlardır, natam Qanunlardır, ötəri Qanunlardır, keçici Qanunlardır, qeyri-kamil Qanunlardır, sonlu Qanunlardır.

Bu səbəbdən də hüquq cinayəti aradan qaldıra bilmir; cinayəti aradan qaldırmaq üçün gerçəklikdən üstün olmaq gərək; çünki gerçəklik cinayəti öldürmür, yaşadır; – əslində Şər Xeyir nisbiliyindən yaranır.

***Haqq*** – İnsaniliyi Təsdiq edir, Mütləq Xeyiri Təsdiq edir; – Sonsuzu, Kamili, Əzəlini, Əbədini, Gerçəklikdən Üstün olanı – bu səbəbdən də Ədalətə çatır, Həqiqətə çatır.

***Hüquq Adamlıq haqqını qoruyur, əslində isə Adamlıq haqqı yoxdur; çünki nisbi Haqq olmur, Mahiyyətcə hüquq – olmayanı qoruyur.***

***Haqq – İnsanlıq Hüququnu qoruyur; əslində isə İnsanlıq Hüququ yoxdur. İnsanlıq Haqqı var – çünki Nisbi İnsanlıq olmur; – mahiyyətcə Haqq – Olanı qoruyur.***

***Gerçəklikdə Hüquq – Olan bilinir, Haqq – olmayan; – yəni gerçəklikdə Hüquq olur, – Haqq gerçəkliyin üzərində olur.***

Bu səbəbdən də Hüquqi İnam – Nisbi İnamdır.
Hüquqi İdrak – Nisbi İdrakdır.
Hüquqi Mənəviyyat – Nisbi Mənəviyyatdır.
Hüquqi İradə – Nisbi İradədir.

Hüquqi İnam – İctimai İnamdır, Cəmiyyət İnamıdır; – Ağalığa əsaslanan, Nökərliyə əsaslanan, Təbəqələşməyə əsaslanan, Özgələşməyə əsaslanan.

Hüquqi İnam – özünü haqq kimi təqdim eləyir, əslində isə Nisbi – Mütləq ola bilməz, İctimai – Ruhani ola bilməz.

Hüquqi İdrak – İctimai İdrakdır, Cəmiyyət İdrakıdır; – Ağalığa əsaslanan, Nökərliyə əsaslanan, Təbəqələşməyə əsaslanan, Özgələşməyə əsaslanan; Şərait, Zaman, Mühit səviyyəsində.

Hüquqi Mənəviyyat – İctimai Mənəviyyatdır, Cəmiyyət Mənəviyyatıdır; – Ağalığa əsaslanan, Nökərliyə əsaslanan, Təbəqələşməyə əsaslanan, Özgələşməyə əsaslanan; Şərait, Zaman, Mühit səviyyəsində.

Hüquqi İradə – İctimai İradədir, Cəmiyyət İradəsidir; – Ağalığa əsaslanan, Nökərliyə əsaslanan, Təbəqələşməyə əsaslanan, Özgələşməyə əsaslanan; Şərait, Zaman, Mühit səviyyəsində.

***Hüququn Məqsədi Gerçəkliyi qorumaqdır, ancaq Gerçəklik Dəyişkəndir, bu səbəbdən də Hüquq Gerçəkliyi qoruya bilmir, Dəyişən Gerçəkliklə birgə özü də dəyişməli olur.***

***Haqq İnamı*** – İnsanilik İnamıdır; yəni Mütləqilik İnamı; bu səbəbdən də o, Mütləq İnamdır; – Əzəli, Əbədi, Sonsuz, Kamil – Cəmiyyətə qarşı duran – yəni Ağalığa, Nökərliyə, Təbəqələşməyə, Hamılaşmaya, Özgələşməyə qarşı duran.

***Hüquq – Adamı cəmiyyətə tapşırır, Haqq – özünə.***

***Nəticədə Hüquq Adamı Adamlıqda saxlayır, Haqq onu İnsaniliyə Yüksəldir.***

***Hüquq – Cəmiyyət alətidir, Haqq – Ruhaniyyat Tələbi.***

***Hüququn Haqqı – Cəzadır.***

***Haqqın Hüququ – İnam.***

***Hüququn Hakimi – Cəmiyyətdir, Haqqın Hakimi – İnsan özü.***

***Hüquqda Adamı Cəmiyyət mühakimə eləyir; Haqda – Adam özü.***

***Hüquqda İnsana Cəmiyyət Sahib olur, Haqda – İnsan özü.***

***Hüququn Məqsədi – canini cəzalandırmaqdır; Haqqın Məqsədi – cinayəti öldürmək.***

Hüquq – caniləri edam edə bilir, ancaq Cinayəti öldürə bilmir.

Haqqın Məqsədi Mütləqdir – Cinayəti yox etmək.

***İnsan özünün hakimi olmayınca – cinayət ölməyəcək.***

***Özünə Sahib olmaq – Özünə Hakim olmaq deməkdir əslində.***

***Din – Haqdan uzaqdır,*** – Hüquqa yaxındır: Göydəki Ağalığı – Allahlığı, Yerdəki Nökərliyi – Bəndəliyi qoruyur; Adamları

cəhənnəmlə Qorxuzur, Cəzalandırır; Təbəqələşməni, Özgələşməni, Hamılaşmanı – Cəmiyyətçiliyi yaşadır.

***Din – Haqdan uzaqdır,*** çünki Mütləqilik Yaradılmır – Özündən yaranır.

Din – İnsan tanımır, çünki İnsandakı Mütləqiliyi tanımır, Dində İnsan Özünün Sahibi deyil – Quldur, Qismətə tabedir; Özündən asılı deyil, Allahdan asılıdır.

***Din – İnsan üzərində Mənəvi hökmranlıqdır, ruhani cəmiyyətçilikdir.***

***Hüquqla Din qoşadır – Hüquq Haqdan aşağı, Din – Haqqa qarşıdır.***

## 2. HƏYAT HAQQI

***Hüquqda Həyat haqqı – Can haqqıdır;***
***Haqda – İnsanilik Haqqı; yəni Hüquq – Canı qoruyur, Haqq – Bütöv İnsanı.***

***Hüquq Canı Canidən qoruyur, Haqq – İnsanı Adamlıqdan. Hüquq – cismani ölüm tanıyır təkcə, Haqq – Ruhani ölüm tanıyır həm də.***

Hüquq – İnsanı ondan kənardakı Canavardan qoruyur; Haqq – ondakı Canavardan.

Hüquq – İnsanı ondan kənardakı İlandan qoruyur; Haqq – ondakı İlandan.

Hüquq – İnsanı ondan kənardakı Tülküdən qoruyur; Haqq – ondakı Tülküdən.

***Haqq əmindir ki, Adam İnsan olmasa, Adamın həyatına Qəsd edəcək. Qatilliyin Kökü Adamın daxilindədir – Adam özündəki Canavarı öldürməsə – başqasını öldürəcək; özündəki İlanı öldürməsə – başqasını çalacaq; özündəki Tülkünü öldürməsə – başqasını aldadacaq***.

***Hüquq – nəticəni cəzalandırır, Haqq – səbəbi.***

***Hüquqda – Həyat Haqqı – Cəmiyyət Haqqıdır; Haqda – Mənəvi Kamillik Haqqı.***

***Adam Kamil olmayınca, yəni İnsan olmayınca başqasının həyatına Qəsd edəcək; İnsan öz həyatına Sahib olmayınca, hakim olmayınca başqasının həyatına Qəsd edəcək.***

***Qəsdçilik – Adam İşidir, İnsan İşi deyil.***

***İnsan özündəki Qəsdçiliyi öldürməsə, Başqasına Qəsd edəcək.***

***Hüquq – Cəmiyyətçidir; Haqq – Ruhçu.***

***Haqq əmindir ki, Ağalıq – mahiyyətcə Qəsdçilikdir, Nökərlik – mahiyyətcə Qəsdçilikdir, Təbəqələşmə – mahiyyətcə Qəsdçilikdir, Hamılaşma – mahiyyətcə Qəsdçilikdir, Özgələşmə – mahiyyətcə Qəsdçilikdir, Cəmiyyət – Qəsdçidir, İnsaniliyə Qəsd edəndir.***

Haqq bilir ki, öldürmənin yüz əməli var, cana Qəsdlə bitmir öldürmə: – İnsanın Mənəvi Kamillik Haqqına Qəsd etmək də Öldürmədir; İnsanı özündən ayırmaq da Öldürmədir; İnamsızlıq, İdraksızlıq, Mənəviyyatsızlıq, İradəsizlik də – Öldürmədir.

***Canı qorumaq və candakı Mütləqiliyi qorumamaq – Canı Qətl qarşısında qoymaqdır əslində – Candakı Canavar Canı öldürəcək.***

Hüquq Zahiridə qalır – Daxilə enmir; ***Qatil cəzalanır – Qətl yaşayır – çünki Qətlçilik ölmür.***

***Həyat Haqqını qorumaq üçün – Qətlçiliyi öldürmək gərək, burada Cəzaçı Adam özü olmalıdır.***

Adamdan kənardakı Cəzaçı – Adamdakı Canavarlığa qalib gələ bilməz, Adamdakı İlanlığa qalib gələ bilməz, Adamdakı Tülkülüyə qalib gələ bilməz.

***Qəsdçiliklə Döyüş İnsanın öz Daxili İşi olmalıdır; – Haqq İşi Daxili İşdir əslində.***

Bu səbəbdən də Hüquq əslində Canı da qoruya bilmir; Həyat Haqqı Cəmiyyətdə qorunmur; Qəsdçilik qadağan edilir, cəzalandırılır, an-

caq ləğv olunmur; çünki ***Qəsdçiliyin kökü Daxildədir, Zahirdə deyil;*** Qəsdçiliyin ölümü də Daxili Əməldir, Zahiri Əməl deyil.

Hüquq – Həyat Haqqını qoruya bilmir, çünki Həyat haqqı – İnsanilik Haqqıdır; ***İnsan isə – özündə Mütləqilik gəzdirən, bu səbəbdən də Cəmiyyətdən, Şəraitdən, Mühitdən Üstün olan, Mütləqə can atan və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır.***

***Bu səbəbdən də Həyat Haqqı – əslində Ali Həyat Haqqı deməkdir.***

***Hüquq – Həyatı qoruyur, yəni İnsanın Adam səviyyəsini qoruyur, – yəni İnsanı nisbi mənada qoruyur – əslində qorumur, çünki Adam İnsan olmayınca – Qəsdçilik yaşayacaq – Qəsdçilik yaşadıqca – Qəsd olacaq.***

Hüquq – İnsanı ***Cəmiyyət səviyyəsində*** qoruyur – yəni əslində qorumur; çünki Cəmiyyət Adamlığa yarayır – İnsanlığa yaramır.

Adamlıqsa – Qəsdçiliyi yaşadır – Qəsdçilik yaşadıqca – Qəsd olacaq.

Hüquq – İnsanı ***Şərait səviyyəsində*** qoruyur – yəni əslində qorumur; çünki Şərait Adamlığa yarayır – İnsanlığa yaramır.

Adamlıqsa – Qəsdçiliyi yaşadır – Qəsdçilik yaşadıqca – Qəsd olacaq.

Hüquq – İnsanı ***Mühit səviyyəsində*** qoruyur – yəni əslində qorumur; çünki Mühit Adamlığa yarayır – İnsanlığa yaramır.

Adamlıqsa – Qəsdçiliyi yaşadır – Qəsdçilik yaşadıqca – Qəsd olacaq.

Haqq – İnsanı ***İnsanilik səviyyəsində*** qoruyur; İnsanı dəyişdirir; Adamı İnsana Yüksəldir; Özüylə döyüşdürür, Özümləşdirir; Onu Qəsdçilikdən qurtarır – Qəsdçiliyin kökünü kəsir.

Hüquq – İnsan haqqını elan edir, ancaq Müharibəni rədd edə bilmir.

***Müharibə – Ölüm həyatıdır, Öldürmək işidir.***

Müharibəni Həyatdan silə bilməyən hüquq – Həyat haqqını qoruya bilmir əslində.

Müharibəni həyatdan silmək üçün onu Mənəviyyatdan silmək gərək, bu isə Haqq İşidir, Hüquq İşi deyil.

***Həyat Haqqı – Hüquqa sığmır; Həyat Haqqını qorumaq üçün İnsanlaşmaq gərək.***

***Həyat Haqqı – İnsanlaşma Haqqı deməkdir əslində***.

Dində Həyat İnsandan ayrılır; bütünlüklə Allaha tapşırılır; Mahiyyətcə inkar edilir; ***Din – qatilliyi lənətləyir; ancaq dində İnsan Həyatı Allahın İradəsinə pərçimlənir;*** Allah Haqqı əslində Həyat Haqqını rədd edir: Hər şey Allahın əlindədir, o cümlədən İnsan Həyatı – istəsə verər, istəsə alar.

Din – fəlakətli Haqsızlıq yaradır; – dində İnsan öz həyatına Sahib ola bilmir, hakim ola bilmir.

## 3. AZADLIQ HAQQI

***Hüquq*** – Azadlığı Həyat səviyyəsində qoruyur: – ***İnsana Yüksəlməyən Adam özündə Canavarı yaşadır, İlanı yaşadır, Tülkünü yaşadır:*** Azadlıq Haqqı – mahiyyətcə Canavarlıq Haqqı olur, İlanlıq Haqqı olur, Tülkülük Haqqı olur.

***Hüquq – Adamdan Mənəvi Kamillik Tələb etmir, Özüylədöyüş tələb etmir: bu səbəbdən də o, əslində Canavarlığı qoruyur, İlanlığı qoruyur, Tülkülüyü qoruyur.***

Hüququn Adama verdiyi Azadlıq – əslində Canavarlığa verilən Azadlıq olur; İlanlığa verilən Azadlıq olur; Tülkülüyə verilən Azadlıq olur.

***Haqq – Azadlığı İnsanilik səviyyəsində qoruyur – Mənəvi Kamillik Tələbi səviyyəsində, Adamın İnsana Yüksəlməsi Tələbi səviyyəsində.***

Haqda İnsan özündəki Canavardan, İlandan, Tülküdən xilas olur.

Haqq – Adamdakı Canavar azadlığını, İlan azadlığını, Tülkü azadlığını rədd edir.

***İnsan olmadan Azad olmaq – əslində Əsarətdir; Azad olmaq üçün – İnsan olmaq gərək.***

Hüquq – Azadlığı ***Cəmiyyət*** səviyyəsində qoruyur – yəni Ağalıq–Nökərlik, Təbəqələşmə, Hamılaşma, Özgələşmə səviyyəsində.

***Əslində isə Ağalıq–Nökərlik səviyyəsində Azadlıq – Əsarətdir.***

***Hüquq Azadlıq adı altında Əsarəti qoruyur.***

Tarixi gedişatda Ağalığın–Nökərliyin adı dəyişir, biçimi dəyişir – Mahiyyəti dəyişmir.

***Hüquq Azadlıq adı altında Ağalığı–Nökərliyi qoruyur.***

***Təbəqələşmə səviyyəsində Azadlıq – əslində Əsarətdir.***

***Hüquq Azadlıq adı altında Əsarəti qoruyur.***

Tarixi gedişatda Təbəqələşmənin adı dəyişir, biçimi dəyişir – Mahiyyəti dəyişmir.

***Hüquq Azadlıq adı altında Təbəqələşməni qoruyur.***

***Hamılaşma səviyyəsində Azadlıq – əslində Əsarətdir.***

***Hüquq Azadlıq adı altında Əsarəti qoruyur.***

Tarixi gedişatda Hamılaşmanın adı dəyişir, biçimi dəyişir – Mahiyyəti dəyişmir.

***Hüquq Azadlıq adı altında Hamılaşmanı qoruyur.***

***Özgələşmə səviyyəsində Azadlıq – əslində Əsarətdir.***

***Hüquq Azadlıq adı altında Əsarəti qoruyur.***

Tarixi gedişatda Özgələşmənin adı dəyişir, biçimi dəyişir – Mahiyyyəti dəyişmir.

***Hüquq Azadlıq adı altında Özgələşməni qoruyur.***

***Haqq*** – Azadlığı İnsanilik səviyyəsində qoruyur – yəni Ağalığı, Nökərliyi, Təbəqələşməni, Hamılaşmanı, Özgələşməni rədd edir.

***Hüquq – Cəmiyyət qoruyucusudur; Haqq – İnsan yaradıcısı.***

Din – Allahdan başqa Azad Varlıq tanımır; bütün digər Varlıqlar Dində Allahın əsarəti altındadırlar.

İnsan – Dində Bəndədir, Quldur. Bəndə, Qul – Azad ola bilməz.

Allah – Dünyanın Ağasıdır; Ağalıq olan yerdə Azadlıq ola bilməz.

***Bu baxımdan, Din – Haqqa qarşıdır, Hüquqla qoşadır – Cəmiyyətçiliklə Allahçılıq bir-birinə Təndir.***

## 4. BƏRABƏRLİK HAQQI

Hüquqda Adamlar Qanun qarşısında Bərabərdirlər; – bu, əslində Bərabərsizlikdir, çünki Qanun – Cəmiyyətçiliyi ifadə edir; Cəmiyyət – Ağalıq–Nökərlik deməkdir; – Ağalıq–Nökərlik olan yerdə Bərabərlik yoxdur; Cəmiyyət – Təbəqələşmə deməkdir; – Təbəqələşmə olan yerdə Bərabərlik yoxdur; Cəmiyyət – Hamılaşma deməkdir; – Hamılaşma olan yerdə Bərabərlik yoxdur; Cəmiyyət – Özgələşmə deməkdir; – Özgələşmə olan yerdə Bərabərlik yoxdur.

***Qanun qarşısında Bərabər olmaq – əslində Bərabər olmamaqdır.***

***Hüquqi Bərabərlik – Bərabərsizliyi qoruyur.***

***Haqda*** İnsan – İnsanilik qarşısında Bərabərdir: bu səbəbdən də Haqq – Cəmiyyətçiliyə qarşıdır: Ağalığı– Nökərliyi, Təbəqələşməni, Hamılaşmanı, Özgələşməni rədd edir.

Haqq – Şəxsiyyətin Mütləqiliyini, – Şəraitdən, Mühitdən, Cəmiyyətdən üstünlüyünü, Mütləqə meylini və Mütləqləşməyə qadirliyini təsdiq edir.

***Haqq həm də Adamlardan Ruhani Kamillik Tələb edir və bu səbəbdən də Ruhani Bərabərliyi rədd edir: Haqda Naşı Kamilə, Naqis Xalisə Bərabər deyil.***

Haqda Ruhaniyyatın Maddi ölçüsü, Maddi əvəzi olmur; Ruhaniyyatı Maddiyyatla ölçmək günahdır; Ruhaniyyatın qiyməti – Ruhaniyyatın özüdür; Ruhani Əməli – Maddiyyatla dəyərləndirmək – Ruhaniyyatı alçaltmaqdır; Ruhçuluğun Ruhani dəyəri var – Maddi dəyəri yoxdur; Maddiyyat Ruhaniyyata bərabər deyil, Ruhaniyyat öz işığıyla işıqlanır, ***Maddiyyatı İşıqlandırır.***

Bəşərin böyük fəlakətlərindən biri – Ruhaniyyatı Maddiyyatla ölçmək, dəyərləndirməkdir: Kamil Şəxsiyyət – Varidatla, Mal-

dövlətlə fərqlənmir, Ruhani Qüdrətlə fərqlənir; ***Varidatla, Mal-dövlətlə, İmtiyazla fərqlənmək – Kamilliyə ziddir.***

Mahiyyətcə cəmiyyət Ruhani Kamilliyə qarşıdır; çünki Maddiyyat, İmtiyaz fərqində Ruhaniyyat alçalır.

***İnamçı*** – Varidata, Mal-dövlətə, İmtiyaza xidmət eləmir – İnama xidmət eləyir; İnamın Var-dövlət, İmtiyaz adlı Qazancı olmur; ***İnamçının Qazancı – İnam özüdür.***

***Bu səbəbdən də Cəmiyyət səviyyəsində İnamçılıq olmur və Hüquq Yalançı İnamçılığı qoruyur əslində.***

***İdrakçı*** – Varidata, Mal-dövlətə, İmtiyaza xidmət eləmir – İdraka xidmət eləyir; İdrakın Var-dövlət, İmtiyaz adlı Qazancı olmur; ***İdrakçının Qazancı – İdrak özüdür.***

***Bu səbəbdən də Cəmiyyət səviyyəsində İdrakçılıq olmur və Hüquq Yalançı İdrakçılığı qoruyur əslində.***

***Mənəviyyatçı*** – Varidata, Mal-dövlətə, İmtiyaza xidmət eləmir – Mənəviyyata xidmət eləyir; Mənəviyyatın Var-dövlət, İmtiyaz adlı Qazancı olmur; ***Mənəviyyatçının Qazancı – Mənəviyyat özüdür.***

***Bu səbəbdən də Cəmiyyət səviyyəsində Mənəviyyatçılıq olmur və Hüquq Yalançı Mənəviyyatçılığı qoruyur əslində***.

***İradəçi*** – Varidata, Mal-dövlətə, İmtiyaza xidmət eləmir – Ruhani Kamilliyə xidmət eləyir; İradənin Var-dövlət, İmtiyaz adlı Qazancı olmur; ***İradəçinin Qazancı – Ruhani Kamillikdir.***

***Bu səbəbdən də Cəmiyyət səviyyəsində İradəçilik olmur və Hüquq Yalançı İradəçiliyi qoruyur əslində.***

***Ruhaniyyatı Maddiyyatla dəyərləndirirlər, endirirlər – Mənəvi pozğunluğun səbəblərindən biri budur.***

***Ruhaniyyat Maddiyyat vasitəsiylə yox, Maddiyyat üzərində Yüksəlir.***

***Kommunizm*** – maddi bərabərlik əsasında İnsaniliyə çatmaq istəyir.

Cəmiyyətdə hökm sürən təzadlı maddi bərabərsizlik İnsaniliyə ziddir; ***ancaq maddi bərabərsizliyin ləğviylə yaranan İnsanilik arzusu – Xülyadır.***

***Çünki maddi bərabərlik özü-özlüyündə İnsan yaratmır:*** yəni Adamdakı Canavarı, İlanı, Tülkünü öldürmür; Cəmiyyətdəki Ağalığı–Nökərliyi, Təbəqəliyi, Hamılaşmanı, Özgələşməni aradan qaldırmır; – ***yəni Maddi bərabərlik özü-özlüyündə İnsanı dəyişmir; İnsan dəyişməsə – İnsanilik yaranmaz; Maddi bərabərliyin hökm sürdüyü həyat Anti-İnsani ola bilər.***

Maddi bərabərliyin İnsan həyatında rolu şəksizdir, ***ancaq maddi bərabərliyin İnsani Həyat, yəni Ruhani Həyat yaradacağına İnam – Xülyadır.***

***Ruhani Varlıq olan İnsanı – maddiyyat dəyişdirə bilməz, onu yalnız İnsan özü dəyişdirə bilər; İnsan dəyişməsə – İnsani Həyat, Ali Həyat yaranmaz; İnsan özünü dəyişdirməsə – Dünya dəyişməyəcək,*** – İnsani Həyat, Ali Həyat yaranmayacaq; İnsani Həyat yaranmasa – İnsan həyatdan bezəcək***, Həyatla Ölüm arasında Fərq azalacaq.***

Bütün cəmiyyətlərə xas olan maddi bərabərsizlik – Ağalıq-Nökərliklə, Təbəqələşmə, Hamılaşma, Özgələşmə ilə təndir: ***ancaq onun ləğvi – hələ İnsaniliyin təsdiqi deyil: Adam İnsan olmayınca – İnsanilik bərqərar olmaz.***

Dində İnsanlar – Bəndələr – Qullar Allah qarşısında bərabərdirlər; ancaq bu bərabərlik gerçəkdəki, cəmiyyətdəki bərabərsizliyə qarşı deyil, onu rədd etmir; Allah qarşısındakı bərabərlik nə Ağalığı–Nökərliyi, nə Təbəqələşməni, nə Hamılaşmanı, nə də Özgələşməni inkar etmir; Din – Adamları Mənəvi Kamilliyə çağırır – ancaq Ağalıq adlı Mənəvi naqisliyi inkar eləmir; Nökərlik adlı Mənəvi naqisliyi inkar eləmir; Hamılaşma adlı Mənəvi naqisliyi inkar eləmir; Təbəqələşmə adlı Mənəvi naqisliyi inkar eləmir; Özgələşmə adlı

Mənəvi naqisliyi inkar eləmir; bu səbəbdən də onun Mənəvi Kamillik çağırışında həqiqət yoxdur.

***İnsanlar bir-birinə Mahiyyət baxımından bərabərdirlər: hər bir İnsan – Mütləqilik daşıyıcısıdır; öz daxili imkanı baxımından Cəmiyyətdən Üstündür, Şəraitdən Üstündür, Mühitdən Üstündür. Mütləqə – yəni Əzəliyə, Əbədiyə, Sonsuza, Kamilə meyl eləyən və Mütləqləşməyə qadir olandır.***

***İnsanlar bir-birindən Fərqlidirlər, həm də İnsanlıq adlanan Vahid Mənanın Təzahürləridirlər.***

## 5. MÜSTƏQİLLİK HAQQI

***Hüquq*** Cəmiyyət səviyyəsində Müstəqillik tanıyır,

– bu səbəbdən də Müstəqillik tanımır əslində, çünki ***Ağalıq–Nökərlik Dairəsində Fərdiyyət Müstəqilliyi*** olmur, ***Xalq Müstəqilliyi*** olmur, ***Dövlət Müstəqilliyi*** olmur.

***Təbəqəlik Dairəsində Fərdiyyət Müstəqilliyi*** olmur, ***Xalq Müstəqilliyi*** olmur, ***Dövlət Müstəqilliyi*** olmur.

***Hamılaşma Dairəsində Fərdiyyət Müstəqilliyi*** olmur, ***Xalq Müstəqilliyi*** olmur, ***Dövlət Müstəqilliyi*** olmur.

***Özgələşmə Dairəsində Fərdiyyət Müstəqilliyi*** olmur, ***Xalq Müstəqilliyi*** olmur, ***Dövlət Müstəqilliyi*** olmur.

Fərdiyyət Müstəqilliyi – Özünəməxsusluğu – Ağalığa qarşıdır, Nökərliyə qarşıdır, Təbəqələşməyə, Hamılaşmağa, Özgələşməyə qarşıdır.

Hüquq ***Fərdiyyət Müstəqilliyini elan edir;*** ancaq onu Həyata keçirmir: Fərdiyyət Müstəqilliyinə qarşı Ağalıq dayanır Cəmiyyətdə, Nökərlik dayanır; Təbəqələşmə, Hamılaşma, Özgələşmə dayanır.

Hüquq Cəmiyyəti qoruyur; ***bu səbəbdən də Fərdiyyət Müstəqilliyini qorumur*** – Fərdi Qeyri-Müstəqilliyi qoruyur.

Hüquqda ***Xalq Müstəqilliyinə*** qarşı Ağalıq–Nökərlik dayanır; Təbəqələşmə, Hamılaşma, Özgələşmə dayanır.

***Hüquqda Xalq Müstəqilliyi elan edilir, əslində isə Xalq Qeyri-Müstəqilliyi təsdiq olunur.***

***Hüquqda*** Dövlət Müstəqilliyinə qarşı Ağalıq–Nökərlik dayanır: Hüquq Ağa Dövlətlər – Rəiyyət Dövlətlər mövcudluğunu qoruyur. Aşağı Dövlətlərin Yüksək Dövlətlərdən Asılılığını təsdiq edir; ***Rəiyyət Dövlətlər, Aşağı Dövlətlər – Ağa Dövlətlər, Yüksək Dövlətlər tərəfindən Hamılaşdırılır, Özgələşdirilir.***

***Hüquq Dövlət Müstəqilliyini elan edir, əslində Dövlət Qeyri-Müstəqilliyini qoruyur.***

***Haqq Müstəqilliyi İnsanilik səviyyəsində qoruyur:*** yəni Ağalığa, Nökərliyə, Hamılaşmaya, Özgələşməyə, Təbəqələşməyə qarşı çıxır, bu səbəbdən də ***Fərdiyyət Müstəqilliyini qoruyur, Dövlət Müstəqilliyini qoruyur, Xalq Müstəqilliyini qoruyur.***

***Haqda Fərd üzərində Ağalıq rədd olunur, Təbəqəlik rədd olunur, Hamılaşma rədd olunur, Özgələşmə rədd olunur – Fərd özünə sahib olur, hakim olur.***

***Haqda Xalq üzərində Ağalıq rədd olunur, Təbəqəlik rədd olunur, Hamılaşma rədd olunur, Özgələşmə rədd olunur – Xalq özünə sahib olur, hakim olur.***

***Haqda bir Dövlətin başqa Dövlət üzərində Ağalığı, bir Dövlətin başqa Dövlətdən asılılığı rədd olunur.***

***Din Fərdi Müstəqillik tanımır – Dində Fərdiyyət yoxdur – Bəndə var; Din Xəlqi Müstəqillik tanımır – Dində Xalq əvəzinə Bəndələr cəmi var; Din Dövlət Müstəqilliyi tanımır – Dində Dövlət Allah İradəsinin təsdiqidir.***

***Dində Allahdan başqa Müstəqil olan yoxdur.***

***Haqq Dinə qarşıdır – çünki Müstəqil Fərd, Müstəqil Xalq, Müstəqil Dövlət qoruyucusudur; – Müstəqilliyi Cəmiyyətdən və***

***Dindən qoruyandır. Haqq İnsaniliyi qoruyur; bu səbəbdən də Müstəqilliyi qoruyur.***

***Hüquq – Şərait səviyyəsində*** Müstəqillik tanıyır; Şərait səviyyəsində Müstəqillik olmur əslində, nisbi müstəqillik Müstəqillik deyil; ötəri, keçici, qeyri-kamil müstəqillik Müstəqillik deyil.

***Hüquq – Şəraiti qoruyur, bu səbəbdən də Müstəqilliyi qorumur.***

Fərdiyyət Şəraiti ötür; bu səbəbdən də Şərait səviyyəsində Fərdi Müstəqillik olmur, Fərdi Müstəqillik elanı olur.

***Şərait səviyyəsində Fərdi Müstəqillik – Qeyri-Müstəqillikdir əslində.***

***Şərait – Müstəqillik həddidir, onu aşmaq gərək.***

Şərait səviyyəsində Xəlqi Müstəqillik olmur, Xəlqi Müstəqillik elanı olur.

***Şərait səviyyəsində Xəlqi Müstəqillik – Qeyri-Müstəqillikdir əslində.***

Şərait səviyyəsində Dövlət Müstəqilliyi olmur, Dövlət Müstəqilliyi elanı olur.

***Şərait səviyyəsində Dövlət Müstəqilliyi – Qeyri-Müstəqillikdir əslində.***

***Hüquq – Mühit səviyyəsində*** Müstəqillik tanıyır, bu səbəbdən də əslində Müstəqillik tanımır: çünki Nisbi Müstəqillik – Müstəqillik deyil.

***Hüquq – Mühiti qoruyur, bu səbəbdən də Müstəqilliyi qorumur.***

Fərdiyyət Mühiti ötür; bu səbəbdən də Mühit səviyyəsində Fərdi Müstəqillik olmur, Fərdi Müstəqillik elanı olur.

***Mühit səviyyəsində Fərdi Müstəqillik – Qeyri-Müstəqillikdir əslində.***

Mühit səviyyəsində Xəlqi Müstəqillik olmur, Xəlqi Müstəqillik elanı olur.

***Mühit səviyyəsində Xəlqi Müstəqillik – Qeyri-Müstəqillikdir əslində.***

Mühit səviyyəsində Dövlət Müstəqilliyi olmur, Dövlət Müstəqilliyi elanı olur.

***Mühit səviyyəsində Dövlət Müstəqilliyi – Qeyri-Müstəqillikdir əslində.***

***Haqq – Şəraiti ötür, Mühiti ötür – Əzəliyə, Əbədiyə, Sonsuza, Kamilə çatır.***

***Hüquq Müstəqilsizliyi – Adamın Şəraitdən, Mühitdən Asılılığını qoruyur.***

***Haqq Müstəqilliyi – İnsanın Şəraitdən, Mühitdən Üstünlüyünü qoruyur.***

## 6. MÜLKİYYƏT HAQQI

Hüquq səviyyəsində Mülkiyyət Haqqı – ***Ağalıq haqqıdır*** əslində – yəni Sahibkarın Əməkçi üzərində Ağalığının Haqqıdır; – ***Mülkiyyətə Əməkçi Sahib olmur; Sahibkarlıq – Əməkdən ayrılır;*** Mülkiyyətə Zəhmətkeş Əməyini mənimsəyən sahib olur – Kapitalist, Mülkədar, Dövlət; Hüquq Əməkçi Mülkiyyətsizliyini qoruyur əslində; ***Hüququn qoruduğu Sahibkarlıq – Əməkçi Mülkiyyətsizliyinə əsaslanır.***

Hüquq səviyyəsində Mülkiyyət haqqı – ***Təbəqə haqqıdır*** əslində; – Hüququn qoruduğu Mülkiyyət Yüksək Təbəqəyə xidmət eləyir: Əməkçi Aşağı Təbəqə sayılır, Əməyi mənimsəyən – Yuxarı Təbəqə; Əməkçi – Əməyindən tam bəhrələnə bilmir; Sahibkar Özgə Əməyindən bəhrələnir; ***eybəcər bir natarazlıq yaranır və hüquq həmin natarazlığı qoruyur.***

Hüquq səviyyəsində Mülkiyyət – Əməkçinin Mülkiyyətsizlik əsasında Hamılaşması, Özgələşməsidir.

Cəmiyyətdə Əməkçi adlanan Rəiyyət yaranır, Əmək özgələşir; Əməkçiyə yox, Sahibkara xidmət eləyir; Hüquq eybəcər Ədalətsizliyi qoruyur: Əməkçi Cəmiyyətin əlavəsinə çevrilir.

***Haqda*** – Mülkiyyət Haqqı – Əmək Haqqıdır; Mülkiyyətə Əməkçi sahib olmalı, Əməkçi üzərində Ağalıq aradan qalxmalı, Əmək – Zəhmətkeşə xidmət etməli, Əməkçi Sahibkarlığı yaranmalı, Əməkçiylə Mülkiyyət arasında Yadlıq aradan qalxmalıdır.

***Kapitalizmdə*** Mülkiyyət haqqı – ***Var haqqıdır;*** Kapitalist – Əməkçini Satın alır və satır əslində, Sahibkar Əməkçiyə əşya kimi baxır; mahiyyətcə onu alır və satır; kapitalist – tacirdir əslində: – bir vaxt qul tacirləri olan kimi, indi Əməkçi tacirləri var: kapitalist – Əməkçi taciridir, əməyi mənimsəmək – mahiyyətcə Əməkçini mənimsəməkdir; əməkdən qazanc götürmək – əslində Əməkçidən qazanc götürməkdir.

***Hüquq – kapitalist mülkiyyətini qoruyur; kapitalistin Əməkçi ticarətini qoruyur.***

***Sosializmdə*** Mülkiyyət Haqqı – ***Zor haqqıdır;*** burada Mülkiyyət Sahibkardan alınıb Zorla Dövlətə verilir; əslində burada Zorakı Dövlət Kapitalizmi yaranır, Dövlət özü kapitalist olur: Əmək, Əməkçi Dövlət tərəfindən mənimsənilir; ***yenə də mülkiyyət əməkçidən ayrılır, əməkçi mülkiyyətsizliyi bərqərar olur.***

***Hüquq sosialist Mülkiyyətini qoruyur – Dövlət Kapitalizmini qoruyur.***

***Haqq*** – Var Haqqını və Zor Haqqını rədd eləyir; Əmək Haqqını, Əməkçi Haqqını, Əməkçi Mülkiyyətini təsdiq eləyir.

***Hüquq*** – Kapitalist Mülkiyyətini xüsusi mülkiyyət adı altında qoruyur; sosialist mülkiyyətini ictimai mülkiyyət adı altında qoruyur.

***Haqq*** – Əməkçi Mülkiyyətini tanıyır – əməyin yaratdığı mülkiyyəti tanıyır; ***Varın yaratdığı Mülkiyyəti yox, Zorun yaratdığı Mülkiyyəti yox.***

Din – mülkiyyətə münasibətdə Ağalıq haqqını qoruyur; Təbəqə haqqını qoruyur, Hamılaşmanı, Özgələşməni qoruyur: Yoxsullara Mərhəmətə çağırır, ancaq Yoxsulluğa qarşı döyüşmür; Halallığa çağırır, ancaq Pulçuluq, Varidatçılıq Haramlığına qarşı döyüşmür;

əməyin, əməkçinin mənimsənilməsinə qarşı döyüşmür: insaniliyə çağırır, ancaq antiinsani münasibətlərə qarşı çıxmır; – ***əməkçi mülkiyyətsizliyini qoruyur əslində.***

***Kommunizm*** – ictimai mülkiyyət haqqını təsdiq edir, əslində isə ictimai mülkiyyət əməkçi mülkiyyətsizliyini aradan qaldırmır, başqa biçimdə bərqərar edir; hamıya məxsus olan mülkiyyət heç kəsə məxsus olmur; Mülkiyyətə Dövlət sahib olur – Əməyi, Əməkçini mənimsəyən; ***Əməkçi üzərində təzə Ağalıq yaranır – Dövlət Ağalığı.***

***Xüsusi Mülkiyyət adı altında Əməkçi üzərində Şəxsi Ağalıq gizlənir; İctimai Mülkiyyət adı altında Dövlət Mülkiyyəti.***

***Kapitalist Hüququ – Kapitalizmin Mahiyyətini gizlədir; Sosialist Hüququ – Sosializmin Mahiyyətini.***

***Haqq – Kapitalizmə qarşıdır, Sosializmə qarşıdır.***

Mülkiyyətə, Əməkçiyə münasibətdə Var ilə Zor arasında Fərq azalır: Kapitalist Mülkiyyətə Varla Sahib olur – ***mahiyyətcə burada Var elə Zor deməkdir; Mahiyyətcə kapitalist Mülkiyyətə Zorla sahib olur – Var biçimində Zorla; Mülkiyyəti Varla almaq, yaxud Zorla almaq – bir şeydir mahiyyətcə.***

***Sosialist*** – Mülkiyyətə Zorla Sahib olur; əslində burada Zor elə Var deməkdir; Zor burada Var olur; Varın gördüyü işi görür; Zor biçimli Varla sahib olur Mülkiyyətə: ***Zorakı Var, Varlı Zor vasitəsi ilə.***

***Haqq Zorakı Vara qarşıdır, Varlı Zora qarşıdır; əməkçinin tərəfindədir; mülkiyyəti Var edənin tərəfindədir; hər cür Zora qarşıdır – o cümlədən Var Zoruna.***

## 7. ŞƏXSİYYƏT HAQQI

***Hüquq*** – Şəxsiyyəti Cəmiyyətə tapşırır – Cəmiyyət isə Şəxsiyyət üzərində Ağalıq deməkdir – Təbəqələşmə Şəxsiyyətə qarşıdır, Hamılaşma Şəxsiyyətə qarşıdır, Özgələşmə Şəxsiyyətə qarşıdır.

***Cəmiyyətə Şəxsiyyət gərək deyil – rəiyyət gərəkdir.***

***Şəxsiyyət*** – İnam haqqı deməkdir; Cəmiyyət – Şəxsiyyət İnamı üzərində Ağalıqdır.

***Şəxsiyyət*** – İdrak haqqı deməkdir; Cəmiyyət – Şəxsiyyət İdrakı üzərində Ağalıqdır.

***Şəxsiyyət*** – Mənəviyyat haqqı deməkdir; Cəmiyyət – Şəxsiyyət Mənəviyyatı üzərində Ağalıqdır.

***Şəxsiyyət*** – İradə haqqı deməkdir; Cəmiyyət – Şəxsiyyət İradəsi üzərində Ağalıqdır.

***Cəmiyyət – Şəxsiyyətsizlik həddidir – onu aşmaq gərək.***

***Hüquq*** – Cəmiyyətin Şəxsiyyət üzərində Ağalığını qoruyur.

***Haqq*** – Şəxsiyyəti İnsaniliyə tapşırır: Onu cəmiyyət Ağalığından, Təbəqələşməsindən, Hamılaşmasından, Özgələşməsindən qoruyur, onun Ruhani Ləyaqətini təsdiq edir.

***Haqq*** – Cəmiyyətin Şəxsiyyət üzərində İnam Ağalığına, İdrak Ağalığına, Mənəviyyat Ağalığına, İradə Ağalığına qarşı durur.

Hüquqda Şəxsiyyət haqqı – əslində Cəmiyyət haqqı olur, – ***Cəmiyyətin Şəxsiyyət üzərində Haqqı olur***.

***Cəmiyyət*** Şəxsiyyəti qorumur, alətləşdirir; Şəxsiyyət özünü Cəmiyyətdən qorumalı olur.

***Haqda Şəxsiyyət haqqı Şəxsiyyətin Cəmiyyətdən qorunmaq haqqı olur.***

***Ağalıq*** – Şəxsiyyət haqqının inkarıdır; Ağalıq olmayan yerdə – Cəmiyyət yoxdur; bu səbəbdən də Şəxsiyyət haqqı – Cəmiyyətə qarşıdır; ***cəmiyyətçiliklə şəxsiyyətçilik bir-birinə ziddir.***

***Nökərlik*** – Şəxsiyyət haqqının inkarıdır; Nökərlik olmayan yerdə – Cəmiyyət yoxdur; bu səbəbdən də Şəxsiyyət haqqı – Cəmiyyətə qarşıdır; ***cəmiyyətçiliklə şəxsiyyətçilik bir-birinə ziddir.***

***Təbəqəlik*** – Şəxsiyyət haqqının inkarıdır; Təbəqəlik olmayan yerdə – Cəmiyyət yoxdur; bu səbəbdən də Şəxsiyyət haqqı – Cəmiyyətə qarşıdır; ***cəmiyyətçiliklə şəxsiyyətçilik bir-birinə ziddir.***

***Kapitalist Pulçuluğu*** – Şəxsiyyət haqqının inkarıdır; Şəxsiyyəti nəzərə alan Pulçuluq, Gəlirçilik olmur; Kapitalizm Şəxsiyyət haqqını elan edir, əslində isə onu pulla satın alır; ***Pulçu – Şəxsiyyəti görmür – gəliri görür.***

***Kapitalizmdə Şəxsiyyət haqqı – gəlir haqqıdır – Şəxsiyyətə qarşı çevrilən.***

***Sosialist Zorçuluğu*** – Şəxsiyyət haqqının inkarıdır; Şəxsiyyətin Zora tapşırılmasıdır; Sosializmdə Cəmiyyət Ağalığı azalmır, artır; – ***Təbəqələşmə*** biçimini dəyişir, Mahiyyətini dəyişmir; ***Hamılaşma*** şiddətlənir, ***Özgələşmə*** bərqərar olur.

***Sosializmdə Şəxsiyyət üzərində Zor hakimliyi təsdiq olunur.***

***Haqq*** – Pulçuluğu, Zorçuluğu rədd edir, bu səbəbdən də Şəxsiyyəti qoruyur.

Din – Şəxsiyyəti Allah hakimliyinə pərçimləyir; Dində – Şəxsiyyət Özümlükdən məhrum olur: – Aqibət Özümlüyündən məhrum olur – onun Aqibətini Allah təyin edir; İdrak Özümlüyündən məhrum olur – onun həyatını Allahın İdrakı müəyyən edir; Mənəviyyat Özümlüyündən məhrum olur – onun Mənəviyyatını Allah müəyyən eləyir; İradə Özümlüyündən məhrum olur – onun ömrü Allah İradəsinə tabe olur: ***Dində İnsan tam Şəxsiyyətsizləşir.***

***Haqq*** – Şəxsiyyət üzərində Ağalıqların bütün çeşidlərini rədd edir; ***Din*** – Haqqa qarşıdır – Şəxsiyyət haqqına qarşıdır; ***Dini Haqq – Haqsızlıqdır əslində.***

***Şərait səviyyəsində*** Şəxsiyyət haqqı olmur; ***Şəxsiyyət haqqı – Şəraiti ötür.***

***Hüquq – Şəraitdən kənarda Şəxsiyyət haqqı tanımır; bu səbəbdən də – əslində Şəxsiyyət haqqı tanımır.***

***Mühit səviyyəsində Şəxsiyyət haqqı olmur; Şəxsiyyət haqqı – Mühiti ötür.***

***Hüquq – Mühitdən kənarda Şəxsiyyət haqqı tanımır; bu səbəbdən də əslində Şəxsiyyət haqqı tanımır.***

***Hüquq səviyyəsində – Haqq olmur; Haqq Hüquqdan Artıqdır, Böyükdür, Yüksəkdir, – Hüquq üzərində Yüksələndir.***

## 8. VƏTƏNDAŞLIQ HAQQI

Hüquqda Vətəndaşlıq – ***Cəmiyyətçilik*** ifadə eləyir, Yurdçuluq, Xalqçılıq ifadə eləmir: Yurdçuluq, Xalqçılıq – Cəmiyyətçilik deyil: Cəmiyyətlər – Nisbidirlər, Keçicidirlər; Xalq, Yurd – Mütləqdir, Əbədidir: ***Quldarlıq Cəmiyyəti olur – Quldarlıq Xalqı, Yurdu olmur; Feodallıq Cəmiyyəti olur – Feodallıq Xalqı, Yurdu olmur; Kapitalist Cəmiyyəti olur – Kapitalist Xalqı, Yurdu olmur; Sosialist Cəmiyyəti olur – Sosialist Xalqı, Yurdu olmur: Hüquqda Vətəndaşlıq – Cəmiyyətdaşlıq, Dövlətdaşlıq olur əslində və Mahiyyətcə Xalqçılıqdan, Yurdçuluqdan ayrılır:***

Ağalıq – Xalqçılığa, Yurdçuluğa Ziddir; Nökərlik – Xalqçılığa, Yurdçuluğa Ziddir; Təbəqəlik – Xalqçılığa, Yurdçuluğa Ziddir; Hamılaşma – Xalqçılığa, Yurdçuluğa Ziddir; Özgələşmə – Xalqçılığa, Yurdçuluğa Ziddir.

***Haqda – Vətəndaşlıq – Xalqçılıq, Yurdçuluq ifadə eləyir, bu səbəbdən də Ağalığa, Nökərliyə, Hamılaşmaya, Özgələşməyə qarşıdır.***

Hüquq səviyyəsində ***Vətəndaşlıq haqqı*** – Nisbidir, ***çünki Ağalıq Dairəsində Haqdır; Təbəqəlik, Hamılaşma, Özgələşmə Dairəsində Haqdır.***

Hüquq səviyyəsində ***Söz haqqı*** – Ağalıq Dairəsində, Təbəqəlik, Hamılaşma, Özgələşmə Dairəsində Söz Haqqıdır; ***Mahiyyətcə Söz Haqqının Yoxluğudur.***

Hüquq səviyyəsində ***Fikir Haqqı*** – Ağalıq Dairəsində, Təbəqələşmə, Hamılaşma, Özgələşmə Dairəsində Fikir Haqqıdır; ***Mahiyyətcə Fikir Haqqının Yoxluğudur.***

Hüquq səviyyəsində ***Etiqad Haqqı*** – Ağalıq Dairəsində, Təbəqələşmə, Hamılaşma, Özgələşmə Dairəsində Etiqad Haqqıdır; ***Mahiyyətcə Etiqad Haqqının Yoxluğudur.***

***Vətəndaşlıq Haqqı – Vətəndaşlıq Borcu tələb edir.***

Hüquqda Vətəndaşlıq Borcu Ağalıq Dairəsində gerçəkləşir, bu səbəbdən də əslində Vətəndaşlıq haqqına qarşı olur: Cəmiyyət Nökərlik Borcu yaradır – ***Haqqa Zidd;*** Təbəqə Borcu yaradır – ***Haqqa Zidd;*** Hamılaşma, Özgələşmə Borcu yaradır – ***Haqqa Zidd.***

***Hüquqda Haqq ilə Borc arasında keçilməz sədd yaranır. Haqq – Nökərlik borcunu, Təbəqələşmə, Hamılaşma, Özgələşmə Borcunu rədd edir; Xalqçılıq, Yurdçuluq Borcunu təsdiq edir; Haqq ilə Borc arasında Birlik yaranır; Haqq – Borc olur, Borc – Haqq.***

***Hüquq səviyyəsində Vətəndaşlıq – Cəmiyyətləşmək olur; Haqq səviyyəsində Özümləşən Xalq, Yurd – Xalqlaşan, Yurdlaşan Özümlük olur.***

***Cəmiyyətləşib Xalqa ziyan vermək olar; – əslində Xəlqi, Yurdçu Cəmiyyət olmur, özümləşən Xalq, Yurd – Xalqlaşan, Yurdlaşan Özümlük – Cəmiyyət üzərində Yüksəlir.***

Hüquqda ***Vətəndaşlıq Haqqı*** Şərait, Mühit, Zaman çərçivəsində həyata keçirilir; – Şərait çərçivəsində, Mühit çərçivəsində, Zaman çərçivəsində Haqq – Nisbi Haqdır, əslində Haqsızlıqdır: çünki Haqqın Varlığı onun Mütləqiliyindədir, Əbədiliyindədir, Kamilliyindədir; Nisbi Hüquq olur, ancaq Nisbi Haqq olmur; Keçici Hüquq olur, ancaq Keçici Haqq olmur; Qeyri-Kamil Hüquq olur, ancaq Qeyri-Kamil Haqq olmur; Dəyişkən Hüquq olur, ancaq Dəyişkən Haqq olmur.

***Hüquq Şəraitə uyğunlaşır, Mühitə uyğunlaşır, Zamana uyğunlaşır; Haqq – Şəraiti, Mühiti, Zamanı ötür.***

***Din*** – Vətəndaşlıq Haqqı tanımır – Allah Haqqı tanıyır – Bəndə Borcu tanıyır. Dində Allah – Haqlıdır, Bəndə – Borclu; Allah – Hökmdardır, Bəndə – Rəiyyət; Dində İlahi Həyat – Mahiyyətcə İctimai Həyatdır: burada Vətəndaş Allah qarşısında Haqsızdır.

Hüquq – Vətəndaşlıq tanımır – Dövlətdaşlıq tanıyır; Din – Vətəndaşlıq tanımır – Allahdaşlıq tanıyır.

***Haqq – Vətəndaşlıq tanıyır; yəni – Xalqçılıq, Yurdçuluq tanıyır.***

## 9. HƏQİQƏT HAQQI

Hüquq – Həqiqət tanımır, çünki Gerçəklik səviyyəsində Həqiqət olmur – Cəmiyyət səviyyəsində Həqiqət olmur; Zaman səviyyəsində Həqiqət olmur; Şərait səviyyəsində Həqiqət olmur; Mühit səviyyəsində Həqiqət olmur; – Ötəri Həqiqət olmur, Keçici Həqiqət olmur, Nisbi Həqiqət olmur, Sonlu Həqiqət olmur, Qeyri-Kamil Həqiqət olmur; ***Əzəli Həqiqət olur, Əbədi Həqiqət olur, Mütləq Həqiqət olur, Sonsuz Həqiqət olur, Kamil Həqiqət olur.***

***Yalnız Mütləq olan Həqiqidir; Həqiqət Haqqı – əslində Mütləqilik Haqqıdır*** – Gerçəklikdən Üstün, Cəmiyyətdən Üstün, Zamandan Üstün, Şəraitdən Üstün, Mühitdən Üstün.

***Hüquq*** – Gerçəklik səviyyəsində "Həqiqət"i qoruyur; – əslində Həqiqətsizliyi qoruyur; Zaman səviyyəsində "Həqiqət"i qoruyur, – əslində Həqiqətsizliyi qoruyur; Mühit səviyyəsində "Həqiqət"i qoruyur, – əslində Həqiqətsizliyi qoruyur; Şərait səviyyəsində "Həqiqət"i qoruyur, – əslində Həqiqətsizliyi qoruyur; Cəmiyyət səviyyəsində "Həqiqət"i qoruyur, – əslində Həqiqətsizliyi qoruyur.

Hüquq Ağalıq "Həqiqət"ini qoruyur – Həqiqətsizliyi qoruyur; Nökərlik "Həqiqət"ini qoruyur – Həqiqətsizliyi qoruyur; Təbəqə "Həqiqət"ini qoruyur – Həqiqətsizliyi qoruyur; Hamılaşma "Həqiqət"ini qoruyur – Həqiqətsizliyi qoruyur; Özgələşmə "Həqiqət"ini qoruyur – Həqiqətsizliyi qoruyur.

***Həqiqət Haqqı*** – Gerçəkliklə Ruhani Döyüş tələb edir; Hüquq – Gerçəkliyi qoruyur; – bu səbəbdən də Həqiqətə qarşı çıxır.

***Həqiqət Haqqı*** – Cəmiyyətlə Ruhani Döyüş tələb edir; Hüquq – Cəmiyyəti qoruyur, bu səbəbdən də Həqiqətə qarşı çıxır.

***Həqiqət Haqqı*** – Zamanla Ruhani Döyüş tələb edir; Hüquq – Zamanı qoruyur, bu səbəbdən də Həqiqətə qarşı çıxır.

***Həqiqət Haqqı*** – Şəraitlə Ruhani Döyüş tələb edir; Hüquq – Şəraiti qoruyur, bu səbəbdən də Həqiqətə qarşı çıxır.

***Həqiqət Haqqı*** – Mühitlə Ruhani Döyüş tələb edir;Hüquq – Mühiti qoruyur, bu səbəbdən də Həqiqətə qarşı çıxır.

Din – Həqiqət Haqqı tanımır; Yalan Haqqı, Cəfəngiyyat Haqqı tanıyır; Cəfəngiyyata, Yalana İnam aşılayır – Həqiqətsiz İnamdır, Həqiqətsizliyə İnamdır.

Bu səbəbdən də Həqiqət Haqqı Dinə qarşıdır; Yalana qarşı, Cəfəngiyyata qarşı durmayan Həqiqət yoxdur.

Həqiqət Hüquq səviyyəsindəki Haqqa qarşıdır, yəni Haqsızlığa qarşıdır.

***Həqiqət Haqqı – Mütləqilik Haqqıdır – Hüquqdan Üstün, Dinə Zidd.***

***Haqq özünü Həqiqətdə tapır; Hüquq Həqiqətə Yüksəlmir; bu səbəbdən də Haqqa çatmır.***

Həqiqət Mütləq İnam Tələb eləyir; Hüquq – Nisbi İnamı qoruyur; bu səbəbdən də Həqiqətə qarşı çıxır.

Nisbi İnamda Yalan var; İnam Mahiyyətcə Yalana qarşıdır; bu səbəbdən də Nisbi İnam – İnamsızlıqdır əslində.

Həqiqət Mütləq İdrak Tələb eləyir; Hüquq – Nisbi İdrakı qoruyur; bu səbəbdən də Həqiqətə qarşı çıxır.

Nisbi İdrakda Yalan var; İdrak Mahiyyətcə Yalana qarşıdır; bu səbəbdən də Nisbi İdrak – İdraksızlıqdır əslində.

Həqiqət Mütləq Mənəviyyat Tələb eləyir; Hüquq – Nisbi

Mənəviyyatı qoruyur; bu səbəbdən də Həqiqətə qarşı çıxır.

Nisbi Mənəviyyatda Yalan var; Mənəviyyat Mahiyyətcə Yalana qarşıdır; bu səbəbdən də Nisbi Mənəviyyat – Mənəviyyatsızlıqdır əslində.

Həqiqət Mütləq İradə Tələb eləyir; Hüquq – Nisbi İradəni qoruyur; bu səbəbdən də Həqiqətə qarşı çıxır.

Nisbi İradədə Yalan var; İradə Mahiyyətcə Yalana qarşıdır; bu səbəbdən də Nisbi İradə – İradəsizlikdir əslində.

Bu səbəbdən də Həqiqət Haqqı – Barışmazlıq Haqqı olur; Həqiqətin Gerçəkliklə, Zamanla, Şəraitlə, Mühitlə Barışmazlığı Haqqı olur.

***Həqiqət – Haqq Ölçüsüdür.***
***Həqiqət Haqqı – Mütləqilik Tələbidir.***

## 10. ƏDALƏT HAQQI

***Hüquq*** – Ədalət tanımır, çünki ***Gerçəklik*** səviyyəsində Ədalət olmur; ***Cəmiyyət*** səviyyəsində Ədalət olmur; ***Zaman, Şərait, Mühit*** səviyyəsində Ədalət olmur; – Nisbi Ədalət olmur; Keçici, Ötəri, Sonlu, Qeyri-Kamil Ədalət olmur; Ağalıq–Nökərlik səviyyəsində, Təbəqələşmə, Hamılaşma, Özgələşmə səviyyəsində Ədalət olmur; Cəmiyyətçi Ədalət olmur; Şəraitçi, Zamançı, Mühitçi Ədalət olmur.

***Zamanı, Şəraiti, Mühiti, Cəmiyyəti qoruyan Hüquq – əslində Ədalətsizdir.***

***Haqq*** – Ədaləti təsdiq edir – çünki Gerçəkliyi ötüb – Mənaya çatır; Nisbini ötüb – Mütləqə çatır; Ötərini ötüb – Əzəliyə çatır; Keçicini ötüb – Əbədiyə çatır; Sonlunu ötüb – Sonsuza çatır; Qeyri-Kamili ötüb – Kamilə çatır; Ağalığı–Nökərliyi, Təbəqələşməni, Hamılaşmanı, Özgələşməni rədd edir.

***Ədalət*** – Haqq səviyyəsində Təsdiq olunur.

***Hüquq*** Ədalət Haqqını elan edir; ancaq həyata keçirmir; əslində ona qarşı çıxır.

***Ədalət*** – Mütləq Azadlıq deməkdir – Gerçəklikdə Mütləq Azadlıq yoxdur – Nisbi Azadlıq var; Nisbi Azadlıq – Əsarətdir – yəni ədalətsizlikdir əslində; bu səbəbdən də Ədalət Gerçəkliyi ötür – Gerçəkliyi qoruyan hüququ ötür.

***Ədalət*** – Mütləq Bərabərlik deməkdir; Gerçəklikdə, Cəmiyyətdə, Zamanda, Şəraitdə, Mühitdə Mütləq Bərabərlik yoxdur – Nisbi Bərabərlik var; Nisbi Bərabərlik – Bərabərsizlikdir əslində; bu səbəbdən də Ədalət Gerçəkliyi ötür; Zamanı, Şəraiti, Mühiti, Cəmiyyəti ötür.

***Ədalət*** – Mütləq Müstəqillik deməkdir; Gerçəklikdə, Cəmiyyətdə, Zamanda, Şəraitdə, Mühitdə Mütləq Müstəqillik yoxdur – Nisbi Müstəqillik var; Nisbi Müstəqillik – Asılılıqdır əslində; bu səbəbdən də Ədalət Gerçəkliyi ötür; Zamanı, Şəraiti, Mühiti, Cəmiyyəti ötür.

***Ədalət*** – Mütləq Həqiqət deməkdir; Gerçəklikdə, Cəmiyyətdə, Zamanda, Şəraitdə, Mühitdə Mütləq Həqiqət yoxdur – Nisbi Həqiqət var; Nisbi Həqiqət – Həqiqətsizlikdir əslində; bu səbəbdən də Ədalət Gerçəkliyi ötür; Zamanı, Şəraiti, Mühiti, Cəmiyyəti ötür.

***Ədalət*** – Mütləq Xeyir deməkdir; Gerçəklikdə, Cəmiyyətdə, Zamanda, Şəraitdə, Mühitdə Mütləq Xeyir olmur – Nisbi Xeyir olur; Nisbi Xeyir – Xeyirsizlikdir əslində; bu səbəbdən də Ədalət Gerçəkliyi ötür; Zamanı, Şəraiti, Mühiti, Cəmiyyəti ötür.

Gerçəklik səviyyəsində – Zaman, Mühit, Şərait, Cəmiyyət səviyyəsində Haqq olmur – Hüquq olur; Haqq Hüququ ötür.

***Ədalətli Cəmiyyət olmur;*** çünki Cəmiyyət Ədalətsizlik üzərində – Ağalıq, Nökərlik, Təbəqələşmə, Hamılaşma, Özgələşmə üzərində qurulub.

Ədalətli Hüquq olmur, çünki Hüquq – Cəmiyyəti qoruyur.

***Ədalət*** – Mütləq İnama əsaslanır; bu səbəbdən Gerçəklik səviyyəsində İnama – Zaman, Şərait, Mühit, Cəmiyyət İnamına qarşıdır.

***Hüquq*** – Gerçəkliyə, Cəmiyyətə, Zamana, Şəraitə, Mühitə uyğunlaşır; ***Ədalət onları ötür; bu səbəbdən də Ədalətli Hüquq olmur – Ədalətli Haqq olur.***

***Ədalət*** – Mütləq İdraka əsaslanır; bu səbəbdən də Gerçəklik səviyyəsində İdraka – Zaman, Şərait, Mühit, Cəmiyyət İdrakına qarşıdır.

***Hüquq*** – Gerçəkliyə, Cəmiyyətə, Zamana, Şəraitə, Mühitə uyğunlaşır; Ədalət onları ötür.

***Ədalət*** – Mütləq Mənəviyyata əsaslanır; bu səbəbdən də Gerçəklik səviyyəsində Mənəviyyata – Zaman, Şərait, Mühit, Cəmiyyət Mənəviyyatına qarşıdır.

***Hüquq*** – Gerçəkliyə, Cəmiyyətə, Zamana, Şəraitə, Mühitə uyğunlaşır; Ədalət onları ötür.

***Ədalət*** – Mütləq İradəyə əsaslanır; bu səbəbdən də Gerçəklik səviyyəsində İradəyə – Zaman, Şərait, Mühit, Cəmiyyət İradəsinə qarşıdır.

***Hüquq*** – Gerçəkliyə, Cəmiyyətə, Zamana, Şəraitə, Mühitə uyğunlaşır; Ədalət onları ötür.

***Ədalət*** – Gerçəkliklə, Cəmiyyətlə, Zamanla, Mühitlə, Şəraitlə Ruhani Döyüş Tələb edir; Hüquq – onları qoruyur, bu səbəbdən də Ədalət hüquqa qarşı olur.

***Ədalətli Hüquq olmur – Ədalətli Haqq olur.***

***Hüquq – Haqqa qədərki Ədalətdir, əslində Ədalətsizlikdir.***

***Hüquq*** – Ədaləti qorumur, Gerçəkliyi Ədalətdən qoruyur; Cəmiyyəti Ədalətdən qoruyur; Zamanı, Şəraiti, Mühiti Ədalətdən qoruyur.

***Din*** – Ədalət tanımır, çünki Qismətçilik adlı Ədalət yoxdur – Ədalətsizlik var; Cənnətçilik adlı Ədalət yoxdur – Ədalətsizlik var; Cəhənnəmçilik adlı Ədalət yoxdur – Ədalətsizlik var; Yalan adlı Ədalət yoxdur – Ədalətsizlik var; Cəfəngiyyat adlı Ədalət yoxdur – Ədalətsizlik var.

***Din İnsanı Alçaldır – Ədalət İnsanı Ucaldır.***

***Haqq – Gerçəklik, Cəmiyyət, Zaman, Mühit, Şərait, Hüquq, Din üzərində Ucalır.***

## 11. XEYİR HAQQI

***Hüquq*** – Xeyir tanımır – ***Fayda tanıyır, Qazanc tanıyır;*** yəni Gerçəklik səviyyəsində Xeyir tanıyır; Cəmiyyət səviyyəsində Xeyir tanıyır; Ağalıq səviyyəsində, Nökərlik səviyyəsində, Təbəqəlik səviyyəsində, Özgələşmə səviyyəsində, Hamılaşma səviyyəsində, Zaman, Şərait, Mühit səviyyəsində Xeyir tanıyır***; Xeyirin qazancı – Xeyir özüdür;*** Nisbi Xeyir olmur, Keçici Xeyir olmur, Ötəri Xe-

yir olmur, Sonlu Xeyir olmur, Qeyri-Kamil Xeyir olmur – ***Mütləq Xeyir olur;*** bu səbəbdən də Xeyir – Gerçəkliyi ötür, Cəmiyyəti ötür, Şəraiti, Zamanı, Mühiti ötür; Hüquq – Gerçəkliyi qoruyur; Cəmiyyəti, Şəraiti, Zamanı, Mühiti qoruyur; – ***bu səbəbdən də Xeyirə qarşıdır Mahiyyətcə.***

***Haqq*** – Xeyiri qoruyur, yəni Xeyir Mütləqiliyini qoruyur, Xeyirin – Gerçəklikdən, Cəmiyyətdən, Şəraitdən, Zamandan, Mühitdən Üstünlüyünü qoruyur; Xeyir Haqqı – Gerçəkliklə, Cəmiyyətlə, Şəraitlə, Mühitlə, Zamanla Ruhani Döyüş Haqqı olur.

***Xeyir*** – İnsaniliyin Təsdiqi deməkdir – ***Gerçəklikdə İnsanilik*** Təsdiq olunmur – ***Adamlıq*** Təsdiq olunur; ***Cəmiyyətdə İnsanilik*** Təsdiq olunmur – ***Cəmiyyətçilik*** Təsdiq olunur – Ağalıq, Nökərlik, Təbəqələşmə, Özgələşmə Təsdiq olunur; ***Şəraitdə – Xeyir*** Təsdiq olunmur – ***Şəraitçilik*** Təsdiq olunur; Şəraitə uyğunlaşan Xeyir olmur – Qazanc olur, Fayda olur; ***Zamanda – Xeyir*** Təsdiq olunmur – ***Zamançılıq*** Təsdiq olunur; Zamana uyğunlaşan Xeyir olmur – Fayda olur, Qazanc olur; ***Mühitdə – Xeyir*** Təsdiq olunmur – ***Mühitçilik*** Təsdiq olunur; Mühitə uyğunlaşan Xeyir olmur – Fayda olur, Qazanc olur.

***Hüquq*** Xeyiri qorumur – Gerçəkliyi qoruyur – Gerçəkliyi Xeyirdən qoruyur əslində – Zamanı, Mühiti, Şəraiti Xeyirdən qoruyur.

***Hüquq*** – Xeyir Haqqı tanımır; Ağalıq Xeyiri – əslində Şərdir; Nökərlik Xeyiri – əslində Şərdir; Təbəqələşmə, Hamılaşma, Özgələşmə Xeyiri – əslində Şərdir; Gerçəklik Xeyirdən qazanc götürür; Cəmiyyət Xeyirdən qazanc götürür; Şərait, Mühit, Zaman Xeyirdən qazanc götürür.

***Xeyir – Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə, Mütləq Həqiqət, Mütləq Ədalət Birliyidir.***

İnamın Qazancı – İnam Özüdür; İdrakın Qazancı – İdrak Özüdür; Mənəviyyatın Qazancı – Mənəviyyat Özüdür; İradənin Qazancı –

İradə Özüdür; Ədalətin Qazancı – Ədalət Özüdür; Həqiqətin Qazancı – Həqiqət Özüdür.

***İnam adlı Qazanc olmur – Xeyir olur; İdrak adlı Qazanc olmur – Xeyir olur; Mənəviyyat adlı Qazanc olmur – Xeyir olur; İradə adlı Qazanc olmur – Xeyir olur; Ədalət adlı Qazanc olmur – Xeyir olur; Həqiqət adlı Qazanc olmur – Xeyir olur.***

Din – Xeyir tanımır; – İnsanı Qul sayan Xeyir olmur – Şər olur; Cəhənnəmçilik, Cənnətçilik, Qismətçilik adlı Xeyir olmur – Şər olur; Xurafat adlı Xeyir olmur – Şər olur; Yalan adlı Xeyir olmur – Şər olur; Cəfəngiyyat adlı Xeyir olmur – Şər olur.

***Hüquq*** – Şəri lənətləyir – aradan qaldırmır, çünki Şərsiz Gerçəklik olmur – Adamlıq olmur.

***Hüquq*** – Gerçəkliyi qoruyur – Şəri qoruyur – Nisbini, Keçicini, Ötərini, Sonlunu, Qeyri-Kamili qoruyur; Şərsiz Cəmiyyət olmur; Hüquq Cəmiyyəti qoruyur; Ağalığı, Nökərliyi, Təbəqələşməni, Hamılaşmanı, Özgələşməni qoruyur – Şəri qoruyur; Şərsiz Şərait olmur, Mühit olmur, Zaman olmur – Hüquq Şəraiti, Mühiti, Zamanı qoruyur – Şəri qoruyur; Gerçəklikdə Yalansız, Xurafatsız, Cəfəngiyyatsız İnam olmur, İdrak olmur, Mənəviyyat olmur, İradə olmur – Hüquq Gerçəklik səviyyəsində İnamı qoruyur, İdrakı qoruyur, Mənəviyyatı, İradəni qoruyur; Yalanı, Xurafatı, Cəfəngiyyatı qoruyur – Şəri qoruyur.

***Haqq – Xeyiri Gerçəklikdən, Cəmiyyətdən, Şəraitdən, Mühitdən, Zamandan qoruyur.***

***Xeyir özü ən böyük Haqdır; Haqq – Xeyir vasitəsiylə özünü qoruyur əslində.***

## 12. VİCDANÇILIQ

***Haqq*** – İnamda yaşayır, İdrakda yaşayır, Mənəviyyatda yaşayır, İradədə yaşayır, Vicdanda yaşayır; – ***Haqla İnsan Birləşir;*** Haqq – İnsan demək olur; Haqsızlıq – Ölüm sayılır; İnsansızlıq – Həyatsızlıq – Haqsızlıq bilinir; İnsan Haqq səviyyəsində yaşayır: Ömrünü Haqq

üstündə kökləyir, qurur; Haqq – İnsanın Suyu olur, Havası olur, Nəfəsi olur; Haqlaşan İnsan yaranır; Haqq – Varlıq demək olur; Haqsızlıq – Yoxluq; Haqq – Özümlük olur; İnsan – Haqq Birliyində Özgə hakimliyi rədd olunur; İnsanın Zahiri Qadağalara, Cəzalara ehtiyacı olmur.

***Həyat Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Həyat Haqqı demək olur.

***Azadlıq Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Azadlıq Haqqı demək olur.

***Bərabərlik Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Bərabərlik Haqqı demək olur.

***Müstəqillik Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Müstəqillik Haqqı demək olur.

***Mülkiyyət Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Mülkiyyət Haqqı demək olur.

***Şəxsiyyət Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Şəxsiyyət Haqqı demək olur.

***Vətəndaşlıq Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Vətəndaşlıq Haqqı demək olur.

***Həqiqət Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Həqiqət Haqqı demək olur.

***Ədalət Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Ədalət Haqqı demək olur.

***Xeyir Haqqı*** – Vicdan Haqqı olur – yəni İnsanla Bir olur – İnsan elə Xeyir Haqqı demək olur.

Gerçəklikdə Təsdiq olunmayan Haqq – İnsanda Təsdiq olunur, çünki İnsan Gerçəklikdən Üstündür; özündə Mütləq gəzdirəndir; Cəmiyyətdə Təsdiq olunmayan Haqq – İnsanda Təsdiq olunur, çünki İnsan Gerçəklikdən Üstündür, özündə Mütləq gəzdirəndir; Vicdan – Ağalığı İnsanın Daxilindən silməyə qadirdir; Nökərliyi İnsanın Daxilindən silməyə qadirdir; Təbəqələşməni İnsanın Daxilindən

silməyə qadirdir; Hamılaşmanı İnsanın Daxilindən silməyə qadirdir; Özgələşməni İnsanın Daxilindən silməyə qadirdir. Şəraitdə Təsdiq olunmayan Haqq İnsanda Təsdiq olunur, çünki İnsan Şəraitdən Üstündür; Zamanda Təsdiq olunmayan Haqq İnsanda Təsdiq olunur, çünki İnsan Zamandan Üstündür; Mühitdə Təsdiq olunmayan Haqq İnsanda Təsdiq olunur, çünki İnsan Mühitdən Üstündür.

***Vicdanda*** Haqq Evi – İnsanın Daxili Dünyasıdır; İnsanı Daxili Dünya idarə edir; İnam, İdrak, Mənəviyyat, İradə Haqsızlığa qarşı Birləşir; – yəni Haqq İnsanla Birləşir – Haqsızlığa qarşı.

***Vicdan*** – Dinə qarşıdır, çünki Qismətçiliyə qarşıdır; Qismətçilik – İnsandakı Mütləqiliyin inkarıdır; Din – İnamın inkarıdır; Yalan – Həqiqətin inkarıdır; Cəfəngiyyat – İdrakın inkarıdır; Cənnətçilik, Cəhənnəmçilik – Ləyaqətin inkarıdır.

Haqqın Məkanı – İnsanilikdir; Dinin Məkanı – İnsansızlıq.

***Haqla İnsan Birləşəndə – Vicdançılıq Yaranır.***

## 13. MƏQSƏD

Hüququn Haqla əvəz olunması: İnsanların Hüququ ötüb – Haqqa çatması.

*14 Dözüm günü, Od Ayı,*
*15-ci il. Bakı.*
*(İyul, 1993-cü il).*

## MÜTLƏQƏ İNAM RUHANİYYATI

(Ruhsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – İnam Atanın (Asif Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008-2009-ili) İnam Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi, tapındığı hissəni "On Kutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Yeni təsnifat zamanı (Şölə ayı 32-il) Yan Bitiqlər bölməsini ləğv elədik. "Anlam İnsaniliyi" (III) və "Görmək İnsaniliyi" (IV) Bitiqlərini mövzuca bir-birinə yaxın olduqları üçün, "Görmək İnsaniliyi" adı altında birləşdirdik. Birinci Yan Bitiyi bütünlüklə Onluğun "Kutsal Qurucu-luq" adlı VI (indiki V) Bitiyinə keçirdik. (Bax: "İnama Doğru" dərgisi, 30 Xəzan 32-il; Oktyabr 2010, N2, səh.13).

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. İnam Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Kutsal Bitiq) – Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Kutsal İrsi sayılır. İrsin yiyəsi, qoruyucusu, sorumlusu İnam Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Atamız var olsun!

***SAFRUH***
***Mütləqə İnam Ocağının Ruhsal Başçısı***
***29 Solğun 35-il (29.10.2013).***

# İÇƏRİSİ

Buzqıran Gəmi Yolçuluğu. Önsöz – haray. SAFRUH. .................... 7
İnsanlaşmaq ........................................................................ 13

İQTİSADİYYAT İNSANSIZLIĞI –
İQTİSADİYYAT İNSANİLİYİ ............................................... 15
I. İnsansızlıq yönü ................................................................ 17
II. Antiinsani mülkiyyət ........................................................ 17
III. Antiinsani istehsalat ....................................................... 18
IV. Antiinsani ticarət ............................................................ 20
V. Antiinsani iqtisadiyyat – Cəmiyyət .................................. 21
VI. Antiinsani iqtisadiyyat – Təbiət ..................................... 22
VII. İnsanilik yönü ................................................................ 23
VIII. İnsani mülkiyyət ........................................................... 24
IX. İnsani istehsalat ............................................................... 25
X. İnsani mübadilə ................................................................ 26
XI. İnsani iqtisadiyyat – Cəmiyyət ........................................ 27
XII. İnsani iqtisadiyyat – Təbiət ........................................... 28
XIII. Zərurət.......................................................................... 28

HƏQİQƏT AZADLIĞI – CƏFƏNGİYYAT ƏSARƏTİ ............... 29
SİYASƏTDƏN ÜSTÜN ........................................................... 39
1. Cəmiyyət – Siyasi Dünya ................................................... 41
2. Böyük ölkələr – Kiçik ölkələr............................................. 42
3. Mərkəzlər – Əyalətlər ........................................................ 43
4. İnkişaf etmişlər – İnkişafdan qalmışlar .............................. 45
5. Əməkdaşlıq – Asılılıq ........................................................ 46
6. Birliklər – Hakimliklər ....................................................... 47
7. Təsir dairələri – Siyasi buxovluq ....................................... 48
8. Dünyaçılıq – Təcridçilik .................................................... 49

9. Vahidləşmə (İnteqrasiya) – Əksilmə .......... 50
10. Ümumbəşərilik – Millilik .......... 51
11. Oyun – Oyunçuluq .......... 52
12. Siyasi fəallıq – Azad xudbinlik .......... 53
13. Siyasət pozğunluğu .......... 54
14. Siyasətdən çıxmaq .......... 56

HAQQ – HAQSIZLIQ .......... 57

ÖLÇÜ .......... 65
1. Dəyişməzlik .......... 67
2. Bütövlük .......... 69
3. Müstəqillik .......... 71
4. Mütləqilik .......... 73
HAQQ .......... 77
1. Haqq – Hüquq .......... 79
2. Həyat haqqı .......... 82
3. Azadlıq haqqı .......... 85
4. Bərabərlik haqqı .......... 87
5. Müstəqillik haqqı .......... 90
6. Mülkiyyət haqqı .......... 93
7. Şəxsiyyət haqqı .......... 95
8. Vətəndaşlıq haqqı .......... 98
9. Həqiqət haqqı .......... 100
10. Ədalət haqqı .......... 102
11. Xeyir haqqı .......... 104
12. Vicdançılıq .......... 106
13. Məqsəd .......... 108

**Türkün (ilk) Ruhaniyyat Ocağı -**
**İnam Atanın (Asif Atanın)**
**Mütləqə İnam Ocağı**

**İNAM ATA**
**(Asif Ata)**
**(Əfəndiyev Asif Qasım oğlu)**

On Kutsal Bitiq`in Yeddinci Bitiqi:

**HÜQUQDAN HAQQA**
(Türk dilində)

Bizimlə əlaqə:

İnam Evi: +99412 514 62 08; 055 448 02 54

Üzqabığının dizaynı:
**Yolruh Atalı**

Bilgisayar işi**:**
**Uluruh Atalı**

Düzəlişçi:
**Sadiq Atalı**